**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Bakı Dövlət Universiteti**

Tarix fakültəsi

İstiqamətin şifri və adı **NM 070000**

İxtisasın şifri və adı **NM 070015**

Tarix kafedrasının magistrantı

Musayev Namiq Seyfulla oğlu

magistr elmi dərəcəsi almaq üçün

# II dünya müharibəsi illərində SSRİ-ABŞ münasibətləri

## D İ S S E R T A S İ Y A İ Ş İ

Elmi rəhbər: T.e.d.,prof. R.C.Süleymanov

Kafedra müdiri: T.e.d.,prof. T.T.Vəliyev

**B A K I – 2 0 0 1**

# MÜNDƏRİCAT

Giriş 3

I fəsil

1939-1941-ci illərdə SSRİ-ABŞ münasibətləri 9

II fəsil

1941-1943-cü illərdə SSRİ-ABŞ münasibətləri 35

III fəsil

1943-1945-ci illərdə SSRİ-ABŞ münasibətləri 82

Nəticə 115

Ədəbiyyat siyahısı 117

Rezüme 122

# GİRİŞ

Əsrlər boyu dövlətlərarası mübahisələrin həll edilməsinin ən populyar üsullarından biri müharibələr olmuşdur. Alman mütəfəkkiri K.Klauzvitsin fikrincə, «müharibə, dövlət siyasətinin başqa vasitələrlə davamından başqa bir şey deyildir».

Sivilizasiya inkişaf etdikcə müharibə aparmaq metodları daha da təkmilləşir, yeni döyüş texnikası və yeni silahlar ixtira edilir, müharibələr daha geniş miqyas və xarakter alırdı.Bu baxımdan XX yüzilliyin ilk yarısında baş vermiş və dünyanın o zamanki siyasi xəritəsində özünə yer tutmuş əksər dövlətləri öz orbitinə cəlb etmiş Birinci və İkinci dünya müharibələri diqqəti xüsusilə cəlb edir. Öz mahiyyəti və xarakteri baxımından oxşar olan bu müharibələrin hər ikisində Almaniya özünü bir qrup müttəfiqi ilə dünyanın ən qüdrətli dövlətlərinin başçılıq etdiyi və əksər dünya dövlətlərini əhatə edən nəhəng koalisiyaya qarşı vuruşmuş və hər ikisində də məğlub olmuşdur. İstər Birinci, istərsə də İkinci dünya müharibəsi dünyanın nəhəng dövlətləri arasında olan ziddiyyətlərdən meydana çıxmış və İkinci dünya müharibəsinin səbəbləri Birinci dünya müharibəsi ilə sıx bağlı olmuşdur. Belə ki, Birinci dünya müharibəsinin nəticərindən narazı qalmış dbvlətlər yeni bir qlobal müharibə törətmək yolu ilə öz arzularını gerçəkləşdirmək niyyətinə düşmüşlər. Burada əsas faktor Almaniyanın revanş almaq, habelə hitlerçilərin alman xalqının «ali irq» olması kimi sərsəm ideyalar irəli sürərək dünya ağalığına nail olmaq istiqamətində avantürist siyasət yeritmək faktorudur. Digər tərəfdən, birinci müharibənin yekunlarından yetərincə razı qalmamış və 1922-ci ildə Mussolini başda olmaqla faşistlərin hakimiyyətə gəlməsi ilə aqressivləşən İtaliyanın qəsbkarlıq siyasəti, Asiya və Sakit okeanında hegemonluq arzusunda olan millitarist Yaponiyasının işğalçılıq planları, öz əvvəlki müstəmləkələrinin bir hissəsinin birinci müharibə zamanı və ondan sonrakı vətəndaş müharibəsi illərində itirilməsi ilə barışmayan, kommunizmi ixrac etmək siyasətinin uğursuzluğa düçar olmasına

baxmayaraq Avropada və Asiyada yeni ölkələri öz təsir dairəsinə salmağa can atan Rusiya imperiyasının (qərb ədəbiyyatlarında demək olar ki, bütün hallarda SSRİ əvəzinə «Rusiya» sözü işlədilir və bizim də fikrimizcə bu haqlı mövqedir, buna görə də, hazırki magistr işində «SSRİ» termini ilə yanaşı «Rusiya» sözündən də bə'zən istifadə edilib ) bəd niyyətləri, habelə öz rəqiblərini döyüşdürmək yolu ilə onları zəiflətməyi və bu zaman kənarda qalacaqlarını düşünən İngiltərə və Fransa hakimi dairələrinin «uzaqgörən» gedişləri müharəbənin törədilməsində mühüm rol oynamışdır. ABŞ hakim dairələri isə, rəsmən birdəfəlik mövqeyində qalsalarda, İngiltərə və Fransanın siyasətini dolayı yolla dəstəkləmişlər.

1933-cü il yanvarın 30-da A.Hitler hakimiyyətə gəldikdən sonra, Almaniyanın natsist hökuməti öz təcavüzkar niyyətlərini həyata keçirməyə və Versal sistemini təftiş etməyə başladı. İngiltərə və Fransa Almaniyanın bu hərəkətlərinə dözümlülük nümayiş etdirir və sakitləşdirmə siyasəti yürüdürlər. Onlar ümid edirdilər ki, Almaniyanın SSRİ ilə toqquşması baş verəcək, bunun nəticəsində hər iki tərəf ağır zərbə alaraq zəifləyəcək. Bunu ABŞ-ın o zaman ki, daxili işlər naziri Harold İkes də öz gündəliklərində təsdiq edir: «İngiltərə faydasız şəkildə ümid edirdi ki, o, Rusiya ilə Almaniyanı bir-biri ilə toqquşdura biləcək və beləliklə özü toxunulmaz qalacaq[1]».

SSRİ isə Qərb dövlətləri arasındakı ziddiyyətlərdən istifadə edərək Almaniya ilə mübarizə adı altında Şərqi və M ərkəzi Avropada öz nüfuzunu gücləndirmək niyyətində idi. Bu səbəbdən idi ki, sovet rəhbərliyi Almaniyanın xarici siyasət sahəsindəki addımlarını bəhanə gətirərək, ilk fürsətdəcə öz ordularını Mərkəzi Avropa ölkələrinə yeritmək, həmin əraziləri özündən asılı vəziyyətə salmaq istəyirdi. Təsadüf deyil ki, 1939-cu ilin yayında İngiltərə və Fransa nümayəndələri ilə Almaniya əleyhinə blok yaratmaq barədə danışıqlar aparan sovet nümayəndəsi marşal Voraşilov sovet qoşunlarını Polşa və Rumıniyaya yeritmək barədə şərt irəli sürmüşdü.

---

[1] Harold L. Ickes. The Secret Diary of Harold L. Ickes. vol.2 N. Y. 1954. p.705

Düzdür, 1939-cu ildə blok yaranmadığından bu plan baş tutmadı. Lakin 1944-1945-ci illərdə həmin ölkələri və bir sıra digər Mərkəzi Avropa ölkələrini alman ordularından təmizləyən sovet rəhbərliyi həmin ərazilərdə marionet rejimlər yaradaraq, onları özündən asılı vəziyyətə saldı. Əslində bu, müharibəyə qədərki sovet siyasətinin gizli niyyətləri idi və XVIII-XIX əsrlərdəki çar Rusiyası siyasətinin birbaşa davamı demək idi.

1933-cü ilin Almaniya Millətlər Cəmiyyətindən çıxdı. 1 mart 1935-ci ildə MC-nin idarəçiliyində olan Saar bölgəsi plebistlə Almaniyaya birləşdirildi. Tezliklə, Almaniya hərbi aviasiya və iri ordu yaradılması üçün ümumi hərbi mükəlləfiyyətə keçdiyini bildirdi. 1935-ci ilin iyununda Almaniya ilə İngiltərə arasında bağlanmış hərbi-dəniz müqaviləsinə əsasən Almaniya öz hərbi dəniz donanmasının tonnajını 5,5 dəfə artırmağa, sualtı qayıqlar istehsal etməyə imkan qazandı. 1936-cı ilin martında Almaniya öz qoşunlarını hərbisizləşdirilmiş Reyn zonasına yeritdi.

Digər tərəfdən, başqa millitarist dövlətlər də öz təcavüzlərini həyata keçirirdilər. hələ 1931-ci ilin 18 sentyabırında Yaponiya Çinin Mancuriya vilayətinə qoşun yeritdi. 1932-ci ilin martında yaponlar işğal etdikləri ərazidə qondarma «Mançjou-Qo» dövlətini yaratdılar. 1933-cü ilin martında isə, Yaponiya MC-dən çıxdı.

1935-ci ilin oktyabrı-1936-cı ilin mayında faşist İtaliyası Efiopiyanı zəbt etdi.

1936-cı ilin iyulunda İspaniyada baş vermiş faşist qiyamından sonra başlamış vətəndaş müharibəsindən istifadə edən Almaniya və İtaliya qiyamçıların köməyinə öz hərbi dəstələrini göndərdilər. 1939-cu ilin martında İspaniyanın respublikaçı hökuməti süqut etdi və ölkədə Frankonun faşist diktaturası quruldu.

1938-ci il 12 martda Almaniya Avstriyanı ilhar etdi. 29-30 sentyabr 1938-ci ildə Münhen konfransı zamanı İngiltərənin Çemberlen və Fransanın Doladye hökumətləri Almaniyaya daha bir böyük güzəştə getdilər.

Sövdələşmə nəticəsində Çexoslovakiyanın Sudet vilayəti və s. almanlar yaşayan əraziləri Almaniyaya, macarlar yaşayan ərazisi Macarstana, polyaklar yaşayan ərazisi isə, Polşaya verildi. Nəticədə Çexoslovakiya öz ərazisinin 20 %-ni əhalisinin 25 %-ni itirdi.

1939-cu ilin martında isə, Almaniya bütün Çexoslavakiyanı işğal etdi. Litva isə, Almaniyanın təzyiqi ilə Klaypeda (Mamel) vilayətini ona verdi. Almaniya həm də Polşa qarşısında Qdanskın ona verilməsi məsələsini qaldırdı və rədd cavabı aldı.

Bu kimi beynəlxalq normaların ciddi pozuntuları qarşısında İngiltərə hökuməti artıq öz əvvəlki siyasətini açıq şəkildə davam etdirə bilməzdi. 29 mart 1939-cu ildə İngiltərə hökuməti «Polşanın müstəqilliyini təhdid edən və Polşa hökumətinin ona qarşı müqaviməti həyati dərəcədə vacib hesab etdiyi istənilən aksiyaya» qarşı Polşanı dəstəkləyəcəyi haqda Polşa hökumətinə təklif göndərdi[1].

1939-cu ilin aprelində İtaliya Albaniyanı zəbt etdi. May ayında isə Fransa ilə Polşa arasında hərbi ittifaq, Hitlelə Mussonun arasında isə, «polad pakt» bağlandı. 25 avqust 1939-cu ildə İngiltərə də, Polşa ilə qarşılıqlı yardım müqaviləsi imzaladı.

1939-cu ilin iyun-avqust aylarındakı Moskva danışıqlarında ingiltərə, Fransa və Rusiya arasında hərbi ittifaq yaradılması iştirakçı tərəflərin öz günahları üzündən baş tutmadı. Sovet hökuməti paralel şəkildə Almaniya ilə də yaxınlaşmaqda idi. Hələ 10 mart 1939-cu ildə İ.V.Stalin ÜKP-nin XVIII qurultayında çıxış edərək faşist-millitarist blokunun SSRİ-yə qarşı deyil, ABŞ, İngiltərə və Fransaya qarşı yönəldiyini demişdi[2]. Sovet-alman ittifaqı bağlanması üçün yoxlama adamları apreldə atılmışdı[3]. Məhz sovet siyasətçiləri sovet-alman yaxınlaşması təşəbbüsü ilə çıxış etmiş və ona qətiyyətlə nail olmuşdular.

---

[1] Лиддел-Гарт Б. Вторая мировая война (перевод с английского) М.1976 с.26
[2] Оглашению подлежит: СССР-Германия , документы и материалы М.1991 с.13. 1939-1941
[3] Лиддел-Гарт Б.указ. соч.с.27

Beləliklə, ingilis-fransız-sovet danışıqları nəticəsiz başa çatdı və əvəzinə 23 avqust 1939-cu ildə SSRİ ilə Almaniya arasında Moskvada, hücum etməmək haqqında müqavilə və Avropada nüfuz dairələri yaradılması, Polşanın bölüşdürülməsi, Bessarabiyanın SSRİ-yə ilhaq olunması, Baltikada SSRİ-yə fəaliyyət sərbəstliyi verilməsini nəzərdə tutan gizli protokol imzalandı[1].

Bununla da, Hitler Almaniyasına İkinci dünya məharibəsi törətmək üçün heç bir maneə qalmadı və 1 sentyabr 1939-cu ildə alman orduları Polşaya soxuldular.

Bütün bu sadalanlara yekun olaraq, onu qeyd edək ki, II dünya müharibəsinin törədilməsndə faşist-millitarist bloku ölkələrinin (Almaniya, İtaliya, Yaponiya) aqressiv planları ilə yanaşı, həm də, İngiltərə, Fransa, SSRİ, ABŞ kimi böyük övlətlərin də rolu olmuşdur. İngiltərə və Fransa təcavüzkarlara, ilk növbədə faşist Almaniyasına ard-ardına güzəştlər etmiş, onun təcavüz istiqamətini şərqə-Rusiyaya doğru yönəltməyə ümid etmişlər. SSRİ isə, əvvəlcə öz qəsbkar planlarını həyata keçirmək məqsədilə Almaniyaya qarşı çıxışlar etmiş, lakin sonradan, İngiltərə və Fransa ilə müttəfiqlik baş tutmadığına görə öz siyasətini 180 dərəcə dəyişərək, Almaniya ilə pakt imzalamışdı. Bütün bunlardan istifadə edən Almaniya və onun müttəfiqləri isə, müharibəyə ciddi hazırlaşmış, onun ilk mərhələsində böyük uğurlar əldə etmişlər.

ABŞ-a gəldikdə isə, o, müharibə öncəsi illərdə,1935-1937-ci il bitərəflik qanunlarına əsasən döyüşən ölkələrə silah satmır və bitərəflik siyasəti yürüdürdü. Bitrəflik siyasəti xalq kütləəri tərəfindən də dəstəklənirdi. Prezident F.D.Ruzveltin adminstrasiyasına müxalifətdə olan və konqresdə mühüm mövqe tutan təcridçi respublikaçılar da xalq arasındakı bu əhval-ruhiyyədə yararlanan Ruzvelt başda olmaqla «beynəlmiləlçilərə» qarşı aktiv mübarizə aparırdılar. Amerikaının geniş xalq kütlələrinin təcridçiliy, ilk

[1] Документы внешней политики. т.22. I М.1992.с.630-632

növbədə və əsasən yenidən müharibədə iştirak etmək istənilməməsindən, ABŞ-ın yaxınlaşan münaqişədə bitərəfliyini tə'min etməyə çalışmağında əks olunurdu[1]. Lakin vuruşan ölkələrə silah satışının qadağan olunması tcavüz qurbanı olan zəif ölkələrə ziyan vurur, təcavüzkarlara isə, heç bir mənfi tə'sir göstərmirdi. Döyüşən ölkələrə strateji xammal ixracı isə, qadağan olunmadığından, bu təcavüzkar dövlətlərə sərf edirdi.

Beləliklə, təcavüzün qarşısını almaq üçün gücündə olan dövlətlər nəinki bunun üçün heç bir addım atmadılar, əksinə, onun genişlənməsinə şərait yaratdılar. Müharibənin gedişi zamanı həmin bu dövlətlər faşist-millitarist bloku dövlətlərinin bəşəriyyət üçün nə qədər təhlükəli olduqlarını dərk edərək, ona qarşı fəal mübarizəyə başladılar və onların bu mübarizəsi faşist təcavüzünə uğramış azadlıq sevər xalqların mübarizəsi ilə birləşərək, aqressorların darmadağın edilməsinə şərait yaratdı. Məhz bu kontekstdə antifaşist bloku ölkələri arasında ən nəhəngləri olan ABŞ və SSRİ-nin ikinci dünya müharibəsi illərindəki münasibətləri olduqca əhəməyyət və maraq kəsb edir.

II dünya müharibəsi illərində sovet-amerikan münasibətləri məsələsinə istər rus-sovet, istərsə də, Qərb ölkələri tarixşünaslığında xeyli əsərlər həsr olunub.

Rusiyada II dünya müharibəsi dövründə SSRİ-nin xarici siyasətinə dairlər bir sıra sənəd topluları nəşr edilmiş və burada ABŞ-la münasibətlərə də geniş yer verilmişdir[2]. Habelə, 1941-1945-ci illərdə SSRİ-ABŞ münasibətlərini özündə əks etdirən xüsusi sənədlər toplusu iki cilddə dərc edilmişdir[3]. ABŞ-da da II dünya müharibəsinə aid çox cildli sənədlər topluları işıq üzü görmüş, həmin toplularda sovet-amerikan əlaqələrinə dair sənədlər də özünə yer tapmışdır[4]. Bunlarla yanaşı, rus dilində SSRİ XKS

---

[1] Кузнец Ю.Л. Вступление США во вторую мировою войну М. 1962 с.27
[2] Внешняя политика СССР. Сб.док.т.4.М.1946; Документы внешней политики. Т. 22.М. 1992; Каную и начало войны. Документы и материалы. Л. 1991 и.др.
[3] Советско-американские отношения во время великой. Отечественной войны; 1941-1945 гг. М. 1984
[4] Foreign Relations of United States. Doplomatic Papers. 1939-1945 Washinqton 1955-1970.

sədrinin ABŞ və Böyük Britaniya rəhbərləri ilə yazışmaları, həm Rusiyada, həm də ABŞ-da Tahran, Yalta, Berlin və s. konfransları barəsində sənəd topluları dərc edilib:

Mövzunun öyrənilməsində o dövrdə rəhbər vəzifələrdə işləmiş şəxslərin (F.Ruzvelt, K Hell, H.İkes, U Çörçill, Q.Jukov, Ştemenko və s.) xatirələri, yazışmaları dərc olunmuş mətinləri böyük əhəmiyyət kəsb edir.

a) Sovet tarixçilərindən A.H.Borisov SSRİ və ABŞ-a müttəfiqlik münasibətlərini, Y.L.Kuznets, N.V.Sivaçev, Y.F.Yazkov və s. ABŞ-ın II dünya müharibəsindəki siyasətini, N.İ.Lebedev, V.İ.Berejkov, P.P. Sevestyanov, V.Y. Siplos , A.A.Qromıko, B.N.Ponomaryov F.D.Volkov və s. SSRİ-nin xarici siyasətini, İ.N.Zemiskov, V.M.Kuliş II cəbhə məsələsini, Polşa tarixçisi S. Boratınski II dünya müharibəsi dövründəki konfransların tarixini tədqiq etmişlər, digər tərəfdən Rusiyada II dünya müharibəsinə dair çap edilən ədəbiyyatlarda SSRİ-ABŞ münasibətlərinə müəyyən yer verilmişdir. Onu qeyd edək ki, sovet tarixşünaslığında məsələyə birtərəfli yanaşılmış, ABŞ-ın II dünya müharibəsindəki rolu xeyli kiçildilmişdir və əksinə, sovet xarici siyasətinin əsl mahiyyəti gizlədilmişdi. Lakin, SSRİ-nin süqutu ərəfəsində rus tarixşünaslığında bu məsələyə dair nisbətən obyektiv baxış formalaşmış və bu özünü L.A.Kirşnerin, V.Daşiçevin, Y.Felştinskinin əsərlərində biruzə verilmişdir.

ABŞ tarixşünaslığında da II dünya müharibəsi zamanı SSRİ ilə münasibətlər məsələsinə müxtəlif ədəbiyyatlarda toxunulub. T.öMeddaksin əsəri müharibənin ilk mərəhələsindəki SSRİ-ABŞ münasibətlərini öyrənmək baxımından çox qiymətlidir[1]. U.Lanqer, S.Qlison və s. ABŞ tarixçiləri də müharibənin ilk illərindəki ABŞ tarixçiləri də müharibənin ilk illərindəki ABŞ siyasətini tədqiq etmişlər. Beyzell, R.Koukli R.Leyton və s. tarixçiləri 1941-1945-ci illərə də antifaşist koalisiyası daxilindəki, münasibətləri, R.Divayn

[1] Maddux T. Years of Estranqement Amerikan Relations uith Sovet Union, 1933-1941 Tallahasse, 1980

Ruzveltin II dünya müharibəsindəki fəaliyyətini araşdırmış, bu zaman SSRİ ilə münasibətlər məsələsinə də, xüsusi diqqət yetirmişlər. R.Şervudun, «Ruzvelt və Hopkins» əsərindəki bir sıra məqamlar da mövzumuz üçün mühüm maraq kəsb edir. M.Stoler, habelə əsərləri rus dilinə tərcümə edilmiş ABŞ hərbi tarixçiləri M.Metiofer və E.Spellin əsərlərində, ingilis rəsmi tarixçiləri C.Batler, C.Quayer, C.Erman II cəbhə məsələsinə və s. məsələlərə toxunmuşlar. İngilis tarixçisi B.Mudel Hart II dünya müharibəsinə həsr edilmiş əsərində müttəfiqlərarası münasibətlərə də diqqət yetirmişdir.

ABŞ tarixşünaslığı barədə onu da qeyd etmək lazımdır ki, II dünya müharibəsinə dair bu ölkədə 3 cərəyan mövcuddur: mühafizəkar (rəsmi tarixşünaslıq), liberial-tənqidi və təftişçi. Əgər ilk ikicərəyanın nümayəndələri (mühafizəkarlardan U.Lanqer, S.Qlison, R.Koukli, R.Leyton, M.Metlofor, E. Spell və b. liberal-tənqidçilərdən H. Kommancer, H.Zinn, Q.Kolko və b.) Ruzvelt adminstrasiyasının faşist təhlükəsi qarşısında sovet hökuməti ilə yaxınlaşması məcburiyyətinə haqq qazandırılıarsa, təftişçi cərəyanın nümayəndələri (Ç.Bird, Q.Barns, Ç.Şeldon, R.Hobbs və s.) əksinə, ABŞ-ın SSRİ ilə müharibə illərində yaxınlaşmasını kobud səhv hesab edirlər.

Tarixşünaslıq məsələlərinə müvafiq fəsillərdə müəyyən məsələlərə münasibət bildirərkən bir daha toxunacağıq.

## I fəsil. 1939-1941-ci illərdə
## SSRİ-ABŞ münasibətlər

1 sentyabr 1939-cu ildə Hitlerin əmri ilə 62 alman diviziyası Polşa üzərinə güclü hücuma keçdi. Polşa ilə qarşılıqlı yardım müqavilələrinə malik olan İngiltərə və Fransa 3 sentyabrda Almaniyaya müharibə e'lan etdilər. Beləliklə II dünya müharibəsi başladı.

Hitlerin təcavüzünün şərqə doğru inkişaf edəcəyini gözləyən ingilis-fransız koalisiyası həmin dövrdə Qərb cəbhəsində yetərincə üstünlüyə malik olmalarına baxmayaraq, heç bir tədbir görmədilər[1]. Nəticədə bu cür müharibə tarixə «qəribə müharibə» adı ilə düşdü və müharibənin bu dövrü 1940-cı ilin yazınadək davam etdi. Bu vəziyyətdən istifadə edən Almaniya 1939-cu il oktyabrın 5-dək 23 avqustda sovet rəhbərliyi ilə bağladığı pakta əsasən özünə düşən bütün polşa ərazisini zəbt etdi.

SSRİvə ABŞ müharibə ərəfəsində özlərinin bitərəf olduqlarını e'lan etsələr də, bu əslində, heç də tam olaraq belə deyildi.

10 mart 1939-cu ildə ÜKP-nin XVIII qurultayında hesabat mə'ruzəsi ilə çıxış edən İ.V.Stalin demişdi: «SSRİ-nin xarici siyasəti aydındır və anlaşılandır:

1.Biz sülh və bütün ölkələrlə işgüzar münasibətləri möhkəmləndirmək tərəfdarıyıq...

2.Biz SSRİ ilə ümumi sərhədi olan bütün qonşu ölkələrlə dinc, yaxın və mehriban qoşuluq münasibətləri tərəfdarıyıq...

3.Biz təcavüz qurbanı olmuş və öz vətənlərinin azadlığı uğrunda vuruşan xalqları dəstəkləməyin tərəfdarıyıq.

4. Biz təcavüzkarların hədələrindən qorxmuruq və sovet sərhədlərinin bütövlüyünü pozmağa çalışan müharibə qızışdırıcılarının zərbəsinə ikiqat zərbə ilə cavab verməyə hazırıq[2]».

---

[1] Вторая мировая война: итоги и уроки М.1985. с. 30-33

[2] Восемнадцатый съезд Всесоюзной коммунистической партии (б.) 10-21 марта 1939 г. Стенографический отчет. М. 1939. с. 15

Əslində isə, bu qana susamış sovet diktatoru ikibaşlı oyun oynayır və 2 variant üzərində düşünürdü: ya İngiltərə və fransa ilə razılığa gəlib Almaniyanı darmadağın etmək, bu yolla sovet ordularını Polşa, Rumıniya və s. kimi ölkələrə yeridib orada möhkəmlənmək, ya da ki, bu mümkün olmadıqda, almaniya ilə razılığa gəlib Avropanı nüfuz dairələrinə bölmək. Nəticə e'tibarilə I variant mümkün olmadığından sovet rəhbərliyi II variantı seçdi və 1939-cu il 23 avqustda Almaniya ilə pakt bağladı və əslində, müharibənin ilkin mərhələsində Almaniyanın müttəfiqi kimi çıxış etdi və öz qəsbkarlıq niyyətlərini həyata keçirdi.

ABŞ isə, qeyd edildiyi kimi bitərəflik siyasətini qanunlaşdırmışdı və dünyadakı münaqişələrə qarışmamaq kursu götürmüşdü. ABŞ-ın o zamankı dövlətin katibi K.Hell yazırdı ki, «1 sentyabr 1939-cu ildən əvvəlki dövr ərzində Birləşmiş Ştatlar öz qanunlarının və milli hisslərinin hüdudları daxilində dünya işlərində iştirak edirdi və bütün mümkün yollarla davamedici sülhün təmin olunması və dünyanın iqtisadi vəziyyətinin yaxşılaşması üçün öz tə'sirini göstərirdi»[1]. Düzdür, prezident F.D.Ruzveltin müharibə ərəfəsindəki təcavüzü pisləyən çıxışları olsa da, əslində ABŞ hökumətinin bu bəyanatları yetərsiz idi. Lakin buna baxmayaraq ki, ABŞ II dünya müharibəsi ərəfəsində yaranmış qruplaşmaların heç birinə daxil deyildi, siyasi və iqtisadi maraqlar və əlaqələr onu ingilis-fransız qruplaşmasına yaxınlaşırdı[2].

Ruzvelt hakimiyyətə gələndən sonra, ABŞ rəsmən SSRİ ilə münasibətlər qurmuş, 16 noyabr 1933-cü ildə sovet-amerikan diplomatik münasibətləri yaradılmış, 1935 və 1937-ci ildə ticarət müqavilələri imzalanmışdı. Lakin ümumilkdə götürdükdə, müharibə ərəfəsində SSRİ-ABŞ münasibətləri bir o qədər də yüksək səviyyədə deyildi. Bunun səbəbəlri isə, tərəflərin iqtisadi və siyasi quruluşlarındakı ziddiyyətlər, xarici siyasətdəki maraq və prinsipləri arasındakı fərqlər idi.

---

[1] Hull.The Memoirs of Cordell Hull vol. 1.p 667
[2] История второй Мировой войны. Т.2. М. 1974 с. 339

Müharibə başladıqdan sonra SSRİ və ABŞ öz bitərəfliklərini e'lan etsələr də, əslində SSRİ faktiki olaraq Almaniyanın, ABŞ isə, İngiltərə və Fransanın müttəfiqi idi. Məhz bu amil müharibənin ilkin mərhələsində SSRİ-ABŞ münasibətlərini kəskinləşdirən əsas faktor idi.

3 sentyabr 1939-cu ildə prezident ABŞ hökumətinin müharibəyə ilk rəsmi münasibətini açıqlayaraq, bildirdi ki, ABŞ bitrəflik siyasəti yeridəcək, eyni zamanda xəbərdarlıq etdi ki, «nə vaxt ki, sülh haradasa pozulubsa, bütün qalan ölkələr də təhlükə altında olurlar.» Həm də bildirir ki, ABŞ-ın bitərəf mövqe tutmasına baxmayaraq , hadisələrin inkişafına laqeyid qalmayacaq.

Sovet hökuməti isə, 17 sentyabr 1939-cu ildə diplomatik münasibətlər saxladığı bütün ölkələrin səfirliklərinə notalar göndərərək özünün bitərəf mövqedə olduğunu bildirdi[1]. Lakin elə həmin gün 23 avqust gizli protokoluna əsasən, sovet ordusu şərqdən Polşaya daxil oldu və əslində Almaniya ilə birgə əməliyyatlar keçirib Polşa dövlətini dünya xəritəsindən silinməsinə nail oldu. Doğrudur, SSRİ-nin tutduğu ərazilərdə əsasən ukraynalı və belaruslar yaşayırdılar, lakin bu heç də SSRİ-nin faşist Almaniyası ilə birgə Polşaya hücum etməsinə haqq qazandırmırdı.

28 sentyabr 1939-cu ildə Moskvada SSRİ ilə Almaniya arasında «sərhəd və dostluq haqqında» müqavilə imzalandı. Nəticədə, 13 milyon insanın yaşadığı (onların 6 milyonu ukraynalı, 3 milyonu belarus idi) 190 min $km^2$ ərazi SSRİ-nin tərkibinə daxil edildi[2].

Sovet-alman paktının bağlanması, habelə Polşanın bölüşdürülməsi Qərbdə, o cümlədən də, ABŞ-da hiddətlə qarşılandı. O dövrkü ABŞ mətbuatı iki totalitar rejimin mə'nəvi qohumluğundan, onların məkirliliyindən, habelə qərb demokratiyasına qarşı sovet-alman təhlükəsindən yazırdı[3].

---

[1] Внешняя политика СССР сб.док. М.1946 т. 4.с. 448-449
[2] Волков Ф.Д.За кулисами второй мировой войны М.1985.с.25-26
[3] Борисов А.Ю. СССР и США: союзники в годы войны, 1941-1945. М.1983. с. 29; Кузнец Ю.Л. Вступление США во вторую мировую войну. М.1962. с.93.

SSRİ-nin Polşanın işğalında iştirakı faktına ABŞ gözləmə mövqeyi tutaraq, səbrlə yanaşdı. Sadəcə olaraq, ABŞ hadisələrin inkişafının nə ilə nəticələnəcəyini, Almaniyanın şərqə hücumu davam etdirib-etdirməyəcəyini, SSRİ-nin gələcək addımlarını gözləyirdi. 23 sentyabr 1939-cu ildə SSRİ-nin ABŞ-dakı səfirliyindən Xalq xarici işlər komissarlığına (XXİK) mə'lumat verilirdi ki, ABŞ dövlət katibi K.Hell mətbuat konfransında Polşa barədə bildirib ki, «bu məsələ barədə deməyə bir sözü yoxdur, belə ki, ABŞ hökuməti hələ yaranmış vəziyyəti bütün detallarınadək öyrənməyib. Hər halda, Hell anlatdı ki, ABŞ bu məsələ barədə nəsə deməyə tələsməyi düşünmür, xüsusən birbaşa maraqlı dövlətlər hələ öz mövqelərini müəyyənləşdirmədikləri dövrdə»[1].

Digər tərəfdən, ABŞ–da bitərəflik haqqında qanun ingiltərə və Fransanın xeyrinə dəyişikliyə mə'ruz qaldı. 27 oktyabrda senatda (63 lehinə, 30 əleyhinə) və 2 noyabrda nümayəndələr palatasında (243 lehinə, 181 əleyhinə) qəbul edilən yeni qanua əsasən «cash and carry» (nağd al və özün daşı) prinsipi əsasında döyüşən dövlətlərə silah və hərbi materiallar satılmasına icazə verildi[2].

1939-cu ilin payızında SSRİ-ABŞ münasibətlərinin pisləşməsinə sovet-fin münaqişəsi xüsusi təkan verdi. SSRİ hələ 1938-ci ilin aprelindən başlayaraq Finlandiyaya qarşı ərazi iddiaları ilə çıxış edirdi. Sovet-alman paktına əsasən, SSRİ-yə Finlandiya barəsində fəaliyyət sərbəstliyi verildiyindən, sovet hökuməti Polşanın bölüşdürülməsindən sonra bu məsələyə daha fəal müdaxilə etdi və 14 oktyabrda sovet tərəfi Finlandiyadan tələb etdi ki, Hanko yarımadasını SSRİ-yə 30 illiyə icarəyə versin, bundan əlavə, Qotland, Sesker, Levanseri, Tiurinsari, Byerke yarımadaları, Kareliya bərxəzinin bir hissəsi, Rıbaçi və Sredni yarımadaları SSRİ-nin tərkibinə qatılsın (cəmisi 2761 $km^2$). Əvəzində isə, Finlandiyaya Rebola və Poros gölü

[1] Севостянов П.П.Перед великим испытанием М.1981 с. 169-170
[2] The United States in World War II // Encycloredia of American History ( Ed. By B.Morris) N.Y. 1953 p. 362

bölgəsində 5523 km$^2$ ərazi təklif edilirdi[1]. Əslində isə, SSRİ sənaye cəhətdən Finilandiyanın inkişaf etmiş, strateji baaxımdan da mühüm olan ərazilərini tələb etməklə, ona sovet Kareliyasının yararsız ərazilərini təklif edirdi.

ABŞ-ın daxili işlər naziri H.İkes yazırdı ki, Finlandiya münaqişəsi ABŞ-da geniş antisovet kampaniyabaşlanmasına səbəb olmuşdu, hansı ki, təkcə mətbuat orqanlarını deyil, həm də hakimiyyət dairələrini əhatə edirdi[2] Moskvanın ərazi iddiaları ilə üz-üzə qalan Finlandiyada hökumət nümayəndələri, Erkko və Tanner başda olmaqla ümid edirdilər ki, ABŞ bu münaqişəyə qarışacaq və Finlandiyaya qarşı rus təcavüzünün qarşısını ala biləcək. 5 oktyabrda ABŞ-dakı fin səfiri H.Prokope ABŞ dövlət katibi K.Helldən xahiş etmişdi ki, ABŞ hökuməti «Rusiyanın Finlandiyaya olan tələbələri ilə bağlı Sovet hökumətinə nəsə desin». Cavabında isə, Hell bildirmişdi ki, «baxmayaraq ki, biz Finlandiya xalqının həmişə yaxşılığında maraqlıyıq, bu bizim hökumətimizin funksiyasına daxil deyil[3]».

Fin hökumətinin israrlı xahişlərini nəzərə alan ABŞ hökuməti məsələyə qarışmağı qərara aldı. ABŞ prezidentinin SSRİ Ali Soveti Rəyasət Hey'ətinin sədri M.İ.Kalininə 13 oktyabr tarixli məktubunda qeyd edilirdi ki, «Birləşmiş Ştatlar hökuməti SSRİ hökumətinə ümid ifadə edir ki, SSRİ ilə Finlandiya arasındakı dinc münasibətləri poza biləcək heç nə baş verməyəcək.»

Finlandiya hökumətinin SSRİ-nin ərazi iddialarına qəti şəkildə rədd cavabı verməsi ilə 30 noyabrda təcavüzkar sovet orduları Finlandiya üzərinə hücuma keçdilər. Müharibənin qarşısını almaq üçün ABŞ hökuməti son dəfə 30 noyabrda sovet hökumətinə SSRİ və Finlandiya arasında sülh vasitəçiliyi etməyi təklif etdi. Lakin Moskva bu təklifi rədd etdi.

Rus-fin savaşının başlaması ABŞ-da Finlandiyaya yardım və sovet hökumətinə nifrət kompaniyası başlamasına səbəb oldu. Müharibənin səhəri

---

[1] История внешней политики СССР 5-е. изд.т.1.М. 1986 с. 394
[2] Ickes H.L. The Secret Diary . vol 3.p.134-135
[3] Hull C. The Memoirs. Vol.1.N.Y.1948.p.702

günü Ruzvelt bu məsələ ilə bağlı bəyənat verərək dedi: «Bütün sülhsevər millətlərin insanları, hansılar ki, hələ də ümid edirlər ki, bütün dünyada münasibətlər qanun və qayda əsasında davam edəcək, yekdilliklə bu yeni zorakılıq hadisəsini bir beynəlxalq ixtilaf özbaşınalığı kimi ittiham edəcəklər»[1].

İsveçrədəki ABŞ nümayəndəsi Harrison MC-nin katibiAvenola yazırdı ki, «ABŞ hökuməti hərbi əməliyyatların lap əvvəlindən Finlandiya xalqına və Finlandiya hökumətinə açıq simpatiya ifadə edir, amerika Qırmızı Xaçı və xüsusi təşkilatlar isə artıq finlərə tibbi və s. yardım göstərirlər[2]»

1939-cu ilin sonunda ABŞ-a silah almaqla bağlı danışıqlar aparmaq üçün fin hərbi missiyası gəlmişdi və nəticədə 1940-cı ilin yanvarında ABŞ Finlandiyaya 250 top və s. silahlar vermişdi[3]. ABŞ Finlandiyaya köməyə əsasən qeyri-hökumət kanalları vasitəsi ilə edirdi. K.Hell yazır ki, «prezident və mən əvvəldən qərara aldıq ki, bitərəflik qanununu rus-fin münaqişəsinə tətbiq etməyək. Bir hökumət kimi biz Finlandiyaya silah sata bilməzdik; lakin biz özəl ixracatçılara, əgər özləri istəyirdilərsə, silah satmağa mane olmaq istəmirdik[4]».

Bunlarla yanaşı, ABŞ-da həm də istər ictimaiyyət, istərsə də, hakimiyyət səviyyəsində geniş antisovet kampaniyası başlamışdı. Artıq, SSRİ ilə diplomatik münasibətlərin kəsilməsi fikri ortaya çıxmışdı. Hələ 1939-cu ilin noyabrında Amerika əmək Federasiyasının vitse-prezidenti M.Uoll F.Ruzveltə məktub göndərərək, Sovet Rusiyası ilə diplomatik münasibətləri kəsməyə çağırırdı. Uollun fikrini Quver və senator Vanderberq dəstəklədilər. Dekabrın 2-də isə, Antiamerika fəaliyyətinin araşdırılması üzrə komissiyanın lideri M.Days bildirdi ki, konqrensin yaxın sessiyasına SSRİ ilə münasibətlərin kəsilməsi qətnaməsinin layihəsini çıxaracaq.

---

[1] Hull C. op.cit.vol.1.p.706
[2] Кузнец Ю.Л.Указ. соч.с.95
[3] Яковлев Н.Н. Франклин Рузвельт. Человек и политик: новое прогтение. М.1981 с. 263
[4] Hull C. op.cit.vol.1.p.707

ABŞ-SSRİ münasibətlərinin kəsilməsini respublikaçılar partiyasının milli komitəsi də tələb edirdi. 40-dək təşkilatı birləşdirən Amerika koalisiyası da, özünün Vaşinqtondakı illik konqresində «ABŞ-dan sovet diplomatik və konsul nümayəndələrinin dərhal çıxarılmasını» tələb edirdi[1].

Prezident F.D.Ruzvelt 2 dekabr 1939-cu ildə, o vaxtadək artıq Yaponiyaya qarşı tətbiq edilən «mə'nəvi embarqonu» SSRİ-yə qarşı da tətbiq etdi. Bu qərara uyğun olaraq, ABŞ-dan SSRİ-yə təyyarələr və onlar üçün ehtiyat hissələri, hər cür aviasiya avadanlığı, yüksək oktanlı benzin istehsalı üçün avadanlıq və s. ixracı qadağan edildi. 4 dekabrda Ruzvelt maliyyə naziri Morgentauya bildirdi ki, SSRİ-yə molibden və aliminium satılmasını dayandırmaq lazımdır[2]. Dekabrın 15-də dövlət departamenti prezidentin xahişi üzrə, mənəvi embarqoya alüminum və molibden ixracını da aid etdi[3]. Bunun nəticəsində, 1940-cı ilin II rübündə ABŞ-ın SSRİ-yə ixracı əvvəlki rübə nisbətən təxminən 2 dəfə azaldı. 1940-cı ilin may ayında ABŞ-ın SSRİ-yə ixracı rekord dərəcədə aşağı enib yarım milyon dollardan da az təşkil etdi.

1940-cı ilin əvvəllrində SSRİ-nin ABŞ-dakı səfirliyinin müşaviri A.A.Qromıko XXİK-na yazırdı: "Sovet-fin danışıqlarının gedişi, Finlandiyada hadisələrin sonrakı gedişi... ona gətirib çıxarıb ki, SSRİ ilə diplomatik münasibətlərin kəsilməsi zərurəti barədə ayrı-ayrı səslər eşidilməyə başlayıb[4]". Hələ 1939-cu ilin dekabrında ABŞ konqresində qətnamə irəli sürülmüşdü ki, SSRİ ilə münasibətlərin sovet tərəfindən pozulduğu adı altında SSRİ ilə münasibətlər kəsilsin. Lakin, 18 yanvar 1940-cı ildə K.Hell bu cür pozulmanın olmadığını bildirdi. Fevralın əvvəllərində isə, bu məsələ yenidən konqresdə qaldırıldı. 8 fevralda K.Hell senata məktubunda sovet hökümətinin ABŞ hökuməti ilə bağladığı 16 noyabr 1933-cü il müqaviləsinə

[1] Кузнец Ю.Л. указ.соч. с.98
[2] Яковлев Н.Н. указ.соч. с.263
[3] Hull C. Op.cit. p.707
[4] Севостянов П.П. указ.соч.с.171

əsasən götürdüyü heç bir öhdəliyi pozmadığını bildirdi.. hümayəndələr palatası 1940-cı ilin fevralında gərgin debatlardan sonra keçirilən səsvermədə SSRİ ilə diplomatik münasibətlərin kəsilməsinin əleyhinə çıxdı.

Bunun səbəbləri müəyyən qədər K.Hellin memuarlarında və A.A.Qromıkonun XXİK-na məktubunda şərh olunub. K.Hell yazırdı: "Biz hiss edirik ki, kommunist Rusiyası ilə natsist Almaniyası arasındakı ziddiyyətlərin kökü o qədər dərindir ki, Hitlerin ambitsiyaları o qədər hüdudsuzdur ki, son nəticədə Rusiya müttəfiqlərin (antifaşist ölkələri nəzərdə tutulur- N.M.) cərgəsinə qoşulacaq. Biz diqqətimizi toplamışdıq ki, o, digər səmtə yön almasın"[1]. Buradan o nəticə hasil olur ki, ABŞ gec-tez SSRİ-nin alman hücumuna mə'ruz qalaraq antifaşist ölkələri cərgəsinə keçəcəyini, deməli ABŞ-ın mütəffiqinə çevriləcəyini bilir və ona görə də onunla münasibətləri tam kəsmək istəmirdi. Həm də, ABŞ hökuməti qorxurdu ki, SSRİ-nin həddən artıq sıxışdırılması onun Almaniya ilə daha da yaxınlaşmasına və son nəticəyə faşist blokuna qoşulacağına gətirib çıxara bilərdi.

Digər 3 səbəbi isə, Qromıko xüsusi olaraq bu məsələ barədə XXİK -na yazdığı məktubda sadalayır. O ilk səbəb kimi göstərir ki, Uzaq Şərqdə yapon-amerikan ziddiyyətləri olduğundan, ABŞ həmin bölgədə Yaponiyada qarşı duran dövlət kimi SSRİ ilə münasibətləri kəsmək istəmir. Digər səbəblər kimi isə, o aşağıdakıları qeyd edir: "SSRİ ilə münasibətlərin kəsilməsinə gedərək, Ruzvelt özünün bu münasibətləri yaradan prezident pestijini sarsıdardı. Bu isə, heç şübhəsiz, Ruzveltin 1940-cı ildə yenidən prezident seçilməsi şansını azaldardı, çünki respublikaçılar seçkiqabağı siyasi oyunda əllərinə daha bir artıq kozır götürmüş olardılar...

Ticarət maraqlarının da məlum əhəmiyyəti var. Burjuaziyanın bəzi qrupları SSRİ-ni öz mallarının yaxşı satış bazarı kimi görürlər. Diplomatik münasibətlərin kəsilməsi iki ölkə arasında ticarət münasibətlərinə də qasılmaz surətdə təsir edərdi»[1].

---

[1] Hull C. op. Cit.p.707

[1] Севостянов П.П. указ.соч.с. 172-174.

Beləliklə, ABŞ SSRİ ilə münasibətləri tam kəsməsə də hər halda ona qarşı sərt siyasət yeritməkdə idi. Finlandiya müharibəsi ilə əlaqədar Sovet Amerikan münasibətləri həm siyasi-diplomatik, həm də ticarət-iqtisadi baxımdan dondurulmuş vəziyyətdə idi.

9 fevral 1940-cı ildə Ruzvelt ABŞ-ın SSRİ-yə qarşı müharibədə Finlandiyaya yardımı davam etdirəcəyi barədə bəyanat verdi. 11 fevralda etdiyi çıxışa əsasən SSRİ-nin tənqidi üzərində quran prezident etiraf etdi ki, əvvəllər «rus xalqına böyük simpatiyası olub» və «kommunizmin ilk günlərində» elə başa düşüb ki, bu Rusiyaya daha yaxşı gələcək bəxş edəcək». Ruzvelt əlavə etdi ki, «lakin indi sovet ittifaqında diktatura hökm sürür»[1].

SSRİ-nin qəsbkarlıq fəaliyyəti təkcə ABŞ-da deyil, Finlandiya ilə yaxın münasibətlərdə olan İngiltərə və Fransanı da qəzəbləndirirdi. Ümumiyyətlə qərbdə SSRİ-yə Almaniyanın müttəfiqi kimi baxırdılar. Çünki SSRİ-nin Almaniya ilə bağladığı 19 avqust 1939-cu il ticarət-kredit müqaviləsinə və 11 fevral 1940-cı ildə bağladığı təsərrüfat müqaviləsinə görə SSRİ Almaniyaya xammal, Almaniya isə, SSRİ-yə sənaye məhsulları ixrac edəcəkdi[2]. Bu şərtlər əsasında həqiqətən də SSRİ Almaniyanın neft təchizatına xeyli yardım göstərirdi.

Eyni zamanda sovet-fin cəbhəsində gərgin döyüşlər gedirdi. Fin qoşunları özlərindən qat-qat güclü olan düşmənə qarşı qəhrəmancasına müqavimət göstərirdilər. Yalnız cəbhəyə əlavə qoşunlar ötürdükdən sonra, 11 fevral 1940-cı ildə fin ordusunun «Mannerheym müdafiə xətti» yarıldı və sovet qoşunları Koreliya bərxəzində xeyli irəliləyə bildilər. Bu hücum sovet-fin müharibəsinin sonunu yaxınlaşdırdı. Finlandiya sülh istədi. Eyni zamanda, cəbhədə fantastik itkilər verən sovet rəhbərliyi də müharibəni davam etdirmək həvəsində olmadığından, danışıqlar başladı və 12 mart

[1] История США. Т.3. М.1985.с.321.
[2] Ржешевский О.А. Война и история. 2-у изд. М.1984 с.92-93

1940-cı ildə Moskvada sovet-fin sülh müqaviləsi bağlandı. Müqaviləyə görə Koreliya bərxəzi, Vıborq şəhəri və Vıborq körfəzindəki adalarla birgə, Ladoqa gölünün qərb və şimal sahili Fin körfəzindəki bir neçə ada, Koreliyanın şimalındakı Kuolayarvi şəhəri ilə birgə Merkyavidən şərqdəki ərazilər Şimal Buzlu okeanın sahilindəki Rıbaçi və Sredni yarımadalarının bir hissəsi SSRİ-yə verildi, SSRİ hərbi-dəniz bazası yaratmaq üçün Hanko yarmadasını 30 illiyə icarəyə götürdü. Beləliklə, nə ABŞ, nə də ki, İngiltərə və Fransa Finlandiyaya qarşı yönəlmiş rus təcavüzünün qarşısını ala bilmədilər. Finlandiya da, Polşa kimi, öz qərb müttəfiqlərindən əhəmiyyətli bir yardım ala bilmədi.Lakin, öz növbəsində Moskva da Finlandiyanı öz nüfuz dairəsinə sala bilmədi.

9 fevralda prezident Ruzvelt bildirdi ki, dövlət katibinin müavini S.Uelles vuruşan dövlətlərin müharibədəki məqsədləri və ədalətli və davamlı sülhün mümkünlüyü barədə informasiya toplamaq məqsədilə Avropaya yola düşür[1]. Uelles fevral-mart ərzində Parisdə və Londonda danışıqlar apardı, lakin tərəflər arasında sülh əldə etmək mümkün olmadı.

Sovet tərəfi isə, bu məsələyə özgə cür yanaşırdı. Rus diplomatları hesab edirdilər ki, ABŞ üçün Avropada müharibənin bitməsi o zaman sərf edər ki, Almaniya təcavüzü şərqə-Rusiyaya yönəlmiş olsun. Bununla bağlı SSRİ-nin ABŞ-dakı səfiri K.A.Umanski 3 mart 1940-cı ildə qeyd edirdi: «Müharibənin vaxtından tez qurtarması açıq şəkildə Ruzveltin hesablarına daxil deyil və əgər Uelles bizimlə almanlar arasında paz vurmaq imkanlarını yoxlasa, o zaman aktual ola bilərdi». Səfirin fikrincə, Uellesin məqsədi «almanların Sovet İttifaqına qarşı istifadə üçün nə qədər uyuşmalarını yoxlamaq və eyni zamanda, seçkilər öncəsində Ruzveltə sülh yaradan imici qazandırmaq imkanı verməkdir»[2]. Fikrimcə, ABŞ-a və ümumilikdə Qərbə, Almaniya ilə dostluq edən SSRİ yox, Almaniyaya qarşı duran SSRİ lazım idi.

---

[1] The United States in World War II p.369.
[2] Севостянов П.П. указ. соч. с. 172.

SSRİ xarici işlər komissarı V.V.Molotov 29 mart 1940-cı ildə SSRİ ALİ Sovetinin 6-cı sessiyasında çıxış edərək bildirmişdi ки, bizim Birləşmiş Ştatlarla münasibətlərimiz son vaxtlar nə yaxşılaşıb, nə də ki, pisləşib, əgər ki, SSRİ-yə qarşı mə'nəvi embarqonu nəzərə almasaq, hansının ki, xüsusən də SSRİ və Finlandiya arasında sülh bağlandığından sonra heç bir anlamı qalmayıb.

1940-cı ilin yazında İkinci dünya müharibəsində hadisələr sür'ətlə cərəyan etməyə başladı, «qəribə müharibəyə» son qoyuldu. 9 apreldə Danimarkanı müqavimətsiz tutan alman qoşunları, donanma və aviasiyanın köməyi ilə Norveç üzərinə hücuma keçdilər və onun bir sıra mühüm məntəqələrini ələ keçirdilər. Norveçə kömək üçün oraya ingilis və fransız qoşunları göndərildi. Eyni zamanda, alman komandanlığı 136 diviziyanın köməyi ilə Qərb cəbhəsində fəal əməliyyatlar başlayan gün, yə'ni 10 mayda İngiltərə uzun müddət Almaniya güzəşt siyasəti yürütmüş baş nazir Çemberlen iste'faya göndərildi, onun yerinə hərbi-dəniz naziri, mühafizəkar U.Çörçill başda olmaqla koalision hökümət yaradıldı. Müttəfiq qoşunları sayca alman ordusundan az olmasalarda, ağır məğlubiyyətə uğradılar, Niderland, Belçika və Lüksemburq ərazilərini tutan almanlarFransanın şimalına soxuldular və Dünkerdə müttəfiq qoşunlarını mühasirəyə aldılar. 28 may-4iyunda ingilis donanması çətinliklə Dünkern limanından 338 min ingilis və fransız əsgərini İngiltərəyə evakuasiya edə bildi.Bundan sonra strateji üstünlüyə tamamilə yiyələnən almanlar Fransanın içərilərinə doğru irəliləməyə başladılar.10 iyunda faşist İtaliyası da müharibəyə daxil oldu. 14 iyunda almanlar «Açıq şəhər» elan olunmuş Parisə daxil oldular.22 iyun 1940-cı ildə isə, Fransa hökuməti Kompyen meşəsində təslim aktı imzaladı. Fransanın cənubunda paytaxtı kurort şəhəri Vişi olan və marşal Patenin başçılıq etdiyi marionet hökuməti yaradıldı. Fransanın şimal, mərkəzi və habelə Atlantik sahili əraziləri Almaniya reyxinin tərkibinə daxil edildi. 1940-cı ilin iyununda İngiltərədə general Şarl de Qoll başda olmaqla, vətənpərvər

fransız hərbiçiləri «Azad Fransa» təşkilatını yaratdılar.11 iyunda Norveç də tam olaraq almanların əlinə keçdi.

Avropa kontinentində Qərb cəbhəsinin yoxa çıxması, Fransanın süqutu təkcə İngiltərəni deyil, ABŞ və SSRİ-ni də çətin vəziyyətə saldı.İngiltərə özünün döyüşən müttəfiqi olan Fransanı itirdi, Britaniya adası alman işcalı təhlükəsi ilə üz-üzə qaldı.16 iyulda Hitler Britaniya adasının işğalı üçün «Dəniz aslanı» adlı əməliyyat planını təsdiq etdi. Avqust ayından başlayaraq İngiltərə səmasında gərgin hava döyüşləri başladı

ABŞ-da da Fransanın süqutu narahatlıqla qarşılandı. Beləki, birbaşa olaraq Qərb yarımkürəsi üçün təhlükə yaranmış oldu. 20 iyunda hərbi nazir tə'yin olunmuş H.L.Stimson bə'yan etmişdi ki, «Hal-hazırda ABŞ öz tarixindəki ən böyük böhranla üz-üzədir»[1].

1940-cı ilin yazında dünyanın siyasi xəritəsində baş verən dəyişikliklərin tə'siri altında Amerika bitərəfliyi ciddi dəyişikliyə uğradı, ABŞ-ın Böyük Britaniyanın, «vuruşmayan müttəfiqinə» çevrilməsi yönündə daha ciddi addımlar atıldı.

1940-cı ilin iyun-sentyabrında konqress tələskənliklə bir neçə maliyyə qanunu qəbul etdi, hərbi büdcə 10,5 milyard dollara çatdırıldı, yə'ni 5 dəfə artırıldı[2]. 16 sentyabr 1940-cı ildə qəbul edilmiş ümumi hərbi mükəlləfiyyət haqqında qanuna əsasən, 1 il ərzində 1,2 milyonluq ordu və 800 min nəfərlik ehtiyatçı hazırlanmalı idi[3]. ABŞ öz müdafiəsini gücləndirməklə yanaşı, antifaşist ölkələrə, ilk növbədə İngiltərəyə də yardım göstərirdi. ABŞ-dan İngiltərəyə silah satışı Dünkerk hadisəsindən sonra xüsusilə artmışdı[4]. 2 sentyabr 1940-cı ildə ABŞ-la İngiltərə arasında imzalanmış müqaviləyə görə ABŞ İngiltərəyə 1917-1918-ci illərdə istehsal edilmiş 50 esminents gəmisi vermiş, əvəzində isə, ondan Britaniyanın Qərb yarımkürəsindəki bazalarını (Nyufaundlend, Labrador,

[1] Боратынский С. Дипломатия в период второй мировой войны. М. 1959.с.61.
[2] История США. Т.3.с
[3] The United States in World War II... p 364.
[4] Langer W., Gleason S. The Challange to Isolation N. Y. 1952 p. 714

Yamayka, Trinidad, Vermud, Vaham, Vritaniya, Qvianasi) 99 illiyə icarəyə götürdü. Qərb cəbhəsinin aradan qalxması Moskvanı da narahat etməyə bilməzdi. U.Çörçill yazırdı: «Sovet rəhbərləri Fransanın süqutundan və iki cəbhənin ləğvindən sarsılmışdılar. Onlar Fransanın bu cür tezliklə süqutunu gözləmirdilər və Qərb cəbhəsində rəqiblərin bir–birini zəiflətməsinə çox ümid edirdilər»[1]. Lakin sovet rəhbərliyinin bu ümidi boşa çıxdı və bundan sonra onun qarşısında iki yol qalırdı: ya Almaniya ilə daha da yaxınlaşmaq və onunla rəsmən hərbi – siyasi bloka daxil olmaq, ya da ki, əgər bu mümkün olmayacaqdısa, Almaniya tərəfindən baş verə biləcək hücuma hazır olmaq. Moskva da siyasətini məhz bu istiqamətdə qurmuşdu. SSRİ Almaniya ilə sıx əməkdaşlıq və hətta müttəfiqlik edirdi. Lakin buna baxmayaraq, SSRİ gələcəkdə Almaniya ilə müharibə baş verəcəyi ehtimalını da unutmur, öz hərbi sənyesini və ordusunu güclən dirirdi. 1940- cı ilin yayında, azadlıqsevər bəşəriyyət üzərində qara buludlar dolanan zaman, Moskva Hitlerlə bağladığı gizli protokolaəsasən daha bir neçə ərazini ishaq etdi. 17 iyunda sovet qoşunları Litva, Latviya və Estoniyanı işğal etdilər. 26 iyunda isə, SSRİ Ruminiyaya Bessarabiya və Şimali Bukovinanı SSRİ-yə vermək barədə ultimatum verdi və 28-30 iyunda sovet ordusu həmin əraziləri zəbt etdi.

SSRİ-nin işğalçılıq fəaliyyəti ilə əlaqədar olaraq ABŞ hökuməti 15 iyul 1940-cı ildə 3 Baltikyanı respublikanın və onların vətəndaşlarının ABŞ-da olan fondlarını dondurdu. 23 iyulda isə, ABŞ dövlət departamenti Baltikyanı məsələsinə dair kəskin bəyanat verdi. Bir qədər əvvəl isə, SSRİ Dövlət bankının Litva, Latviya və Estoniya banklarından satın aldıqı qızıl saxlanmışdı[2].

---

[1] Черчилль У. Вторая миравая война. Ростов на-Дану, 1997. с. 192

[2] История внешней политики СССР.т.1.М.1986.с.416.

1 avqust 1940-cı ildə SSRİ Ali Slvetinin VII sessiyasında sovet hökumətinin mə'ruzəsində deyilirdi ki, sovet-amerikan münasibətləri barədə «yaxşı heç nə demək olmaz»[1].

Digər tərəfdən, ABŞ-da ümid edirdilər ki, Fransanın süqutundan sonra kontinental Avropada Almaniyaya qarşı dura biləcək yeganə güc Rusiya ola bilər. Həm də, bu iki dövlət arasında toqquşma prespektivi olduğu üçün, ABŞ SSRİ ilə münasibətlərində müəyyən yaxınlaşma jestləri edirdi. Həmin dövürdə SSRİ-də ABŞ-a analoji səbəbdən yaxınlaşmaq arzusunda idi. Beləliklə, Fransanın süqutundan sonra SSRİ-ABŞ münasibətlərində müəyyən istiləşmə meyyləri hiss olunmaqda idi.

2 iyun 1940-cı ildə ABŞ daxili işlər naziri H.İkes öz gündəliyində yazırdı; «Aydındır ki, Çörçill İngiltərədə hakimiyyətə gəldiyi vaxtdan, Rusiya ilə yaxınlaşmağa nail olmaq istəyir. Mən prezidntlə görüşə gəldiyim vaxt, mənim müzakirə üçün ona təqdim etmək istədiyim problemlər arasında o da var idi ki biz bu yaxınlaşmaya diplomatik kanallarla yardım edə bilərik[2]»

Hələ 1940-cı ilin aprelindən Vaşinqtonda SSRİ ilə ABŞ arasanda ticarət-iqtisadi məsələlər üzrə danışıqlar başlamışdı, hansında ki, SSRİ-ni səfir Umanski təmsil edirdi. ABŞ dövlət katibi K.Hell 1 iyul 1940-cı il notasında bildirdi ki, ABŞ hökuməti SSRİ ilə əməkdaşlıq etməyə və «SSRİ ilə ABŞ arasında normal ticarət əlaqələrinin saxlanmasına, hansılar ki, indiki beynəlxalq vəziyyətdə mümkündür»- hazırdır[3].

27 iyul 1940-cı ildə ABŞ dövlət katibinin müavini S.Uelles K.Umanski ilə söhbətində demişdi: «Artıq vaxtdır ki, bizim hər iki dövlətimiz təkcə indiki münasibətlər barədə də düşünsünlər, hansılar ki, ola bilsin, hər iki dövlət üçün yeni təhlükələrlə dolu olacaq. Məgər bütün dünyada onsuz da yetərincə olan sapma mənbələrini kənarlaşdırmaq və ölkələrimiz arasında olan münasibətlərdə kəskinliyi ləğv etmək vaxtı deyilmi?» Bunun cavabında

[1] Седьмая сессия Верховного Совета СССР. 1 август –7 август 1940 г. с.30
[2] Ickes H.L.The secret Diary .vol 3 № Y. 1954 p. 192
[3] Foreign Relations of United States. Diplomatic papers. 1940. Vol. 3 Washington, 1958. P. 323-324

Umanski bildirmişdi ki, sovet-amerikan münasibətlərindəki kəskinliyi aradan qaldırmaq üçün 2 yol var:

«I–si, Amerika hökumət orqanları tərəfindən SSRİ-yə qarşı diskriminasiya və SSRİ-nin hüquq və maraqlarının pozulması aktlarından münasibətlərin tənzimlənməsi və II-si ABŞ-la SSRİ arasındakı münasibətlərə iki böyük, siyasi baxımdan sərbəst və iqtisadi müstəqil dövlətlər arasındakı münasibətlərə iki böyük, siyasi baxımdan sərbəst və iqtisadi müstəqil dövlətlər arasındakı münasibətlər kimi yanaşılmalıdır[1]» Lakin, ümumilikdə, Hitlerin Fransanı zəbt etməsi, Vaşinqtonu özünün Moskvaya olan münasibətini dəyişməyə məcbur etdi[2].

6 avqust 1940-cı ildə SSRİ Xalq Xarici Ticarət komissarlığı ilə ABŞ-ın Moskvadakı müvəqqəti işlər vəkili V Torston arasında məktub mübadiləsi vasitəsi ilə SSRİ-ABŞ ticarət müqaviləsi (1937) daha bir, yə'ni 6 avqust 1941-ci ilədək uzadıldı. SSRİ-nin ABŞ-dakı səfiri K.A.Umanskinin və o zamanlar hələ SSRİ XXİK-nın Amerika ölkələri şö'bəsinin müdiri A.A.Qromıkonun 9 avqust 1939-cu ildə XXİK-na yazdıqları məktubda göstərirdilər ki, 1937-1938-ci illərdə SSRİ ABŞ-dan 65698 min dollar dəyərində, 1938-1939-cu illərdə (11 ay ərzində) 58737 min dollar dəyərində mal idxal etmiş, ABŞ-a SSRİ-dən ixrac isə, müvafiq surətdə 19909 min və 15938 min dollar dəyərində olmuşdur[3]. Lakin, Rusiyanın finlandiyaya təcavüzü ilə əlaqədar ortaya çıxmış mə'nəvi embarqo SSRİ-ABŞ ticarətinə öz tə'sirini göstərirdi. SSRİ-nin ABŞ-dakı səfirliyinin müşaviri A.A.Qromıko 1940-cı ildə ABŞ-ın iqtisadi vəziyyəti barədə hesabatında sovet-amerikan ticarətinin vəziyyətini xarakterizə edərək yazırdı ki, SSRİ-nin avadanlıq, o cümlədən aviasiya avadanlığı alması azalmışdır. Xüsusən də, sovet idxalında bir sıra mühüm amerikan dəzcahları yox olmuşdur. SSRİ-nin ABŞ-dan idaxlı artsa da, onun SSRİ üçün dəyərliliyi mühüm dərəcədə azalmışdı,

---

[1] Севостянов П.П. указ. соч. с. 177

[2] Maddux T. Years of Estrangement American Relations With Soviet Uniton, 1933-1941 Tallahasse, 1980 p. 127-128

[3] Документы вынешней политики т. 22. С. 1. М.1992 с. 590

çünki SSRİ-yə sovet tərəfəinin birinci növbədə maraqlandıran maşın və avadanlıq növləri göndərilmişdi. Ümumiyyətlə isə, ABŞ-ın SSRİ-yə 1940-cı ildə ixracı 1939-cu ilə nisbətən 54% artmışdı. ABŞ-ın SSRİ-də idxalı isə, həmn dövürdə 17 % azalmışdı. ABŞ-ın ixracında SSRİ-nin payı 1939-cu ildə 1,8 %, 1940-cı ildə 2,2 % ABŞ-ın idxalında SSRİ-nin payı 1939-cu ildə 1,1 %, 1940-cı ildə isə 0,8% təşkil etmişdir. ABŞ-ın xeyrinə saldo 1940-cı ildə 66,2 milyon dollara qalxmışdı, hal bu ki, 1939-cu ildə 31,6 milyon məbləğində olmuşdur[1].

Eyni zamanda, ticarət müqaviləsinin vaxtı uzadıldıqdan sonra, Vaşinqtonda sovet-amerikan iqtisadi münasibtləri məsələlərinin müzakirəsi başladı. Dövlət departamentində S. Uellesin K.Umanski və A.Qroliçko ilə sistematik görüşləri keçirilirdi. Bu danışıqların əvvəlində U.Elles demişdir: «əvvəlki onilliklərdə və əsrlərdə olduğu kimi, SSRİ və ABŞ arasında, ideoloji ziddiyyət istisna olmaqla, heç bir ziddiyyət yoxdur. İdeoloji ziddiyyət isə, Amerika hökümətinin fikrincə, iki ölkə arasındakı münasibətlərin normallaşması və yaxşılaşmasına mane olmamalıdır»[2].

1940-cı ilin II yarısına ABŞ diplomatiyası təbii ki, SSRİ-nin antifaşist ölkələri cərgəsində görmək isteyir və bunun üçün səy göstərirdi. Sovet rəhbərliyi isə, Almaniya ilə münasibətləri pozmağı ağlına belə gətirmirdi. ABŞ-ın Moskvadakı səfiri L. Şteynqardt İngiltərə səfiri S. Krippsin Stalinlə 21 sentyabr 1940-cı il söhbətinin mətnini Vaşinqtona mə'lumat verərək yazırdı: «Stalin çox açıq, realist idi... O, açıqca bildirdi ki, onun indiki siyasətinin məqsədi Sovet ittifaqının müharibəyə cəlb olunmasından qaçmaq və xüsusən də, alman ordusu ilə münaqişədən qaçmaqdır. Stalin e'tiraf etdi ki. Almaniya Sovet ittifaqı üçün yeganə həqiqi təhlükədir və alman problemi Sovet ittifaqını çətin vəziyyətə sala bilər, lakin o, hesab edir ki, indiki vaxtda

---

[1] Совестянов П.П. указ. соч. с.179-180
[2] Там же, с.178

Sovet siyasətini dəyişmək yolu ilə SSRİ-yə alman hücumunu təhrik etmək yolu tutmaq olmaz»[1].

28 sentyabr 1940-cı ildə Ruzveltin «daxili kabinetinin» üzvlərinin iclasından sonra H.İkes öz gündəliyində yazırdı ki, prezident dairələrində Sovet İttifaqının Avropada müharibəyə cəlb olunmasından daha tez-tez danışırlar. «Lakin hamı o şərti nezərə alır ki, Sovet hökuməti Hitler Almaniyası ilə son nəticədə toqquşmanın qaçılmazlığını başa düşərək, bunun baş verməsini uzatmaq üçün mümkün olan hər şeyi edir.» Sonra isə, rus-amerikan münasibətlərinə toxunan İkes qeyd edirdi: «Mənim üçün aydın deyil ki, nə üçün biz Rusiya ilə mümkün qədər ən dost münasibətində olmayaq... Əgər belə davam etsə, İngiltərə də məğlub olacaq, Birləşmiş Ştatların dünyada bir dostu da qalmayacaq»[2].

Digər tərəfdən isə, həqiqətən də, vəziyyət SSRİ və ABŞ üçün arzuolunmaz şəkildə inkişaf edirdi. 27 sentyabr 1940-cı ildə Berlində Almaniya, İtaliya və Yaponiya arasında Üçlər paktı adlanan 10 illik hərbi və iqtisadi alyans bağlandı[3]. Bu dövlətlər öhdəlik götürdülər ki, onlardan biri «hal-hazırda Avropa müharibəsində və yapon-çin münaqişəsində iştirak etməyən hansısa bir dövlətin» hücumuna mə'ruz qalsa, digərləri ona hərbi vasitələr də daxil olmaqla, kömək edəcəklər. K.Hell yazırdı ki, bu pakt birbaşa olaraq, Amerika maraqlarını təhdid edirdi[4]. Hitrel Üçlər taktının məqsədini onda görürdü ki, «mümkün qədər tez Yaponiyanın Uzaq Şərqdə aktiv fəaliyyətə təhrif etmək», beləliklə «iri ingilis qüvvələri, ABŞ-ın əsas diqqəti Sakit okeana cəlb olunacaq[5]»

Bu zaman artıq Almaniya rəhbərliyi SSR-yə qarşı hücum planı hazırlamağa başlamışdı. 2 iyul 1940-cı ildə alman silahlı qüvvələri Ali baş komandanlığı quru və dəniz qüvvələri qərargahlarına SSRİ-yə hücum

[1] Foreign Relations ... 1940. Vol.I. Washington, 1959. p.611
[2] Ickes H.L. op.cit.vol.3.p.340-341
[3] The United States in World War.II ...p.364
[4] Hull C. Op. cit. vol.I p. 925-926
[5] История США. Т.3. с.332

planlaşdırmaq əmri verdi. Onu da qeyd edək ki, alman generalları SSRİ-yə hücum planını Britaniya adasına qarşı keçirilməsi gözlənilən «Dəniz aslanı » adlı əməliyyata hazırlıqla yanaşı işləyirdilər. 21 iyulda Hitler qəti olaraq dedi: «Rus problemi hücumla həll ediləcək». 31 iyulda Hitler öz generalları ilə gizli müşavirədə bildirdi ki, «Əgər Rusiya darmadağın edilsə, İngiltərə son ümüdini də itirəcək. Onda Almaniya Avropa və Balkanlarda ağalıq edəcək». Buna görə də o, 1941-ci ilin yazında «Rusiyanı ləğv etməyi» təklif etdi. Eyni zamanda İngiltərəyə hücum planı bir neçə dəfə təxirə salındı. 1940-cı il avqustun sonunda «Barbarossa» adlı SSRİ-yə hücum planını ilkin versiyası hazır oldu. 12 oktyabr 1940-cı ildə «Dəniz aslanı» əməliyyatı 1941-ci ilin yazınadək tə'xirə salındı. Bu, SSRİ-yə hücum hazırlanmasını gizlətmək məqsədi güdürdü[1].

12-13 noyabr 1940-cı ildə Molotovun Berlinə səfəri zamanı SSRİ-yə təklif edildi ki, Üçlər paktına qoşulsun və dünyanın bölüşdürülməsində iştirak etsin. Molotov bunu prinsipcə qəbul etsə də, Stalinlə məsləhətləşməq lazım olduğunu bildirdi və dünyanın bölüşdürülməsi üzrə sovet təklifləri noyabrın sonunda alman tərəfinə verildi[2]. Lakin SSRİ-nini tələbləri həddən çox oldutu üçün Hitler bunları qəbul etmədi və qəti olaraq, SSRİ-yə qarşı hücüm yolu tutdu. O, 18 dekabr 1940-cı ildə «21 № -li direktiv» adı altında «Barbarossa» planı təsdiq etdi.

Vəziyyət ABŞ üçün də gərgin xarakter almışdır. Üçlər paktı açıq-aşkar ABŞ-a meydan oxumaq demək idi. Məhz belə bir atmosferdə ABŞ-da prezident seçkiləri keçirilirdi. Lakin Seçki öncəsi respublikaçılar Ruzveltin yenidən seçiləcəyi təqdirdə ABŞ-ın müharibəyə sürükləyəcəyi barədə geniş təbliğat aparırdılar. Onlar «Amerika analarına müraciət» qəbul etmişdilər: «Əgər sizin oğlunuz Avropadakı hər hansı bir döyüş meydanında öləcəkdirsə...Franklin Ruzvelti öğlunuzu müharibəyə göndərdiyinə görə

[1] Волков Ф.Д.указ.соч.с.59
[2] Канун и начало войны... с.20-21

qınamayın, özünüzü qınayın ki, F.Ruzvelti Ağ evə siz qaytardınız[1]». Lakin, Ruzvelt qrupunun ABŞ-ı faşizmə qarşı mübarizə cəbhəsinə yaxınlaşdırması, nəinki onun məğlubiyyətinə gətirib çıxarmadı, əksinə, onun populyarlığını gücləndirdi və qələbəsini təmin etdi[2]. Nəticədə 5 noyabr 1940-cı ildə xalq səsverməsində Ruzvelt 27.305.160 səs, respublikaçı U.Uilki 22.305.198 səs qazandı. Elektorial baxımdan isə Ruzvelt 449, Uilki 82 səs qazandı[3].

Faşist-millitarist bloku tərəfdən təhlükə isə artmaqda idi. Yaponiya Cənub-Şərqi Aiyada təcavüzkar fəaliyyətini genişləndirir, amerikan-yapon, amerikan-alman münasibətləri daha da gərginləşirdi.

Rizvelt 29 dekabrda öz radio çıxışında «ox» dövlətlərinə (faşist millitarist bloku) qarışıq «öz azadlıqları və bizim təhlükəsizliyimiz uğrunda» vuruşan ölkələrə kömək göstərmək üçün ABŞ-ı "demokratiya arsenalına" çevirməyə çığırdı[4]. 6 yanvar 1941-ci ildən Ruzvelt konqensə məktubunda 4 əsas azadlığa əsaslanan («söz və yaşamaq azadlığı», «etiqad azadlığı», «ehtiyacdan azadlıq», «qorxudan azadlıq») «azad dünyanın müdafiəsi və saxlanılmasının» vacibliyini qeyd etdi[5].

1941-ci ilin əvvəllərində Vaşinqtonda mə'lumat almağa başladılar ki, Hitler Rusiyaya hücuma hazırlaşır. Bu haqda, Berlindəki, ABŞ səfirliyinin ticarət attaşesi, əslində isə, yüksək səviyyəli kəşfiyyatçı olan S. Vudson xəbər verirdi. Vudsondan həm də «21 №-li direktivin» surəti alınmışdı. FTB-nin rəhbəri E.Quver sənədin həqiqiliyini təsdiq etmişdi[6]. Yanvar ayında ABŞ hökuməti sovet tərəfinə bu barədə xəbərdarlıq etsə də, sovet rəhbərliyi bir sıra digər siqnallar kimi buna da, əhəmiyyət vermədi.

Berlindən alınmış konfidensial informasiya göstərdi ki, Hitler Sovet İttifaqına tezliklə, ola bilsin ki, yazda hücum edəcək və Ruzveltdən maksimal

---

[1] Шервуд Р. Рузвельт и Гопкинс глазами очевидца. т.1.М.1958 с.347-348
[2] Боратинский С. указ.сог.с.66-67.
[3] The United States in Word War II… p.365
[4] Documents of American History (Ed. By H. Commadger ) N. 1968. p.
[5] The United States in World war II…p.365
[6] Hull C. Op cit. Vol. 2.p…966-968.

çeviklik tələb olunurdu ki, hadisələrin inkişafına hazırlıqlı qarşılasın[1]. 4 yanvar 1941-ci ildə Umanski, Uelleslə 5 aylıq danışıqlara yekun vuraraq, onun müsbət tərəfləri barədə yazırdı: «Qızıl aparılması barədə notalar mübadiləsi layihəsinin razılaşdırılması; bizə Amerika tonnajının, xüsusilə də, neft daşıyan gəmilərin verilməsi; bizim komissiyanın Rayt aviamator zavodundakı rejiminin yaxşılaşdırılması; Amerika hökumətinin montajçı və b. Amerika mütəxəssislərinin getməsinə icazə verməyə hazır olması; son aylar Amerika hökumətinin bizim təşkilatlarla öcəşməsinin və bizim vətəndaşlarla insidentlərin demək olar ki, faktiki qurtarması; Sakit okean vasitəsilə poçt əlaqəsi qurulması, hansıki almanlara rədd cavabı verilir; Uellesin danışıqların gedişi barədə bir sıra açıqlamaları və s.» Lakin, səfir qeyd edirdi ki, digər daha mühüm məsələlərdə danışıqlar ya lazımi nəticəni verməmiş (avdanlıq məsələsi), ya uzadılır (mənəvi embarqo), ya da «Amerika hökumətinin dəyişməz düşmənçiliyini sübut edir», xüsusən o zaman ki, söhbət SSRİ-nin qərb sərhədini tanımaqdan gedir. Mə'lumatda deyilirdi ki, «Amerika hökumətinin bu danışıqlardakı taktikasının məqsədi sovet-yapon münasibətlərinin yaxşılaşmasının qarşısını almaq, habelə SSRİ ilə Almaniya arasında münasibətlərin pisləşməsi imkanlarını yoxlamaq və ticarət məsələlərindən sovet xarici siyasətinə tə'sir üçün istifadə etməkdir[2]».

22 yanvar 1941-ci ildən dövlət departamenti SSRİ-yə qarşı mə'nəvi embarqonu ləğv etdi.

Ruzvelt hökumətinin SSRİ-yə doğru daha bir addım atması isə 1941-ci il lend-liz qanunu ilə əlaqədar oldu. Belə ki, 1940-cı ilin dekabrında U.Çörçill Ruzveltə məktubunda bildirdi ki, İngiltərənin nəğd pul ehtiyatları tükəndiyindən, ABŞ-dan silah alınması üçün hər hansı başqa bir yol tapılsın. Qeyd edilirdi ki, «faşist tiraniyasının məğlubiyyəti, daha çox ABŞ xalqı və bütün Qərb yarımkürəsi üçün vacibdir[3]».

[1] Maddux T. Op. Cit. P. 138
[2] Севостьянов П.П. указ. соч. с. 178-179
[3] Roossevelt and Churchill. Their secret Wartime Correspondence. N.Y 1975. p.125

Bu səbəbdən 10 yanvar 1941-ci ildə lend-liz (borc-icarə) qanununun layihəsi, hansı ki, rəsmən «Birləşmiş Ştatların gələcək təhlükəsizliyini tə'min etmək və digər məqsədlər üçün akt» adlanırdı, konqresə təqdim edildi. Qanun layihəsi prezidentə hüquq verirdi ki, o, «müdafiəsini ABŞ üçün həyati dərəcədə əhəmiyyətli hesab etdiyi istənilən ölkəyə istənilən silah predmetini satsın, dəyişdirsin, borca, icarəyə versin və ya hansısa bir şəkildə versin». Qanun layihəsinin ilkin variantında yardımı ala biləcək ölkələr sırasında SSRİ-nin adı çəkilmirdi. Lakin, Ruzvelt ümumiyyətlə yardım alacaq konkret ölkələrin adlarını sənəddən çıxarmağı üstün tutdu və bu şəkildə layihə konqrensə verildi. Lakin, burada onu yeni çətinliklər gözləyirdi. ABŞ konqrensində SSRİ-yə qarşı sərt mövqe tutan qruplaşmanın böyük nüfuzu vardı. SSRİ-yə yardımın mümkünlüyü onlar üçün ümumiyyətlə layihənin qəbul edilməzliyinə əsas sübut idi. Konqresmen K.Mundt (Cənubi Dakota ştatı) və senator H. Conson (Kaliforniya ştatı) mə'nəvi enbarqonun adminstrasiyası tərəfindən ləğvinin onun «sovetyönlü» oriyentasiyasına nümunə kimi göstərərək, SSRİ-nin mümkün yardım alıcıları sırasından istisna etməyi və «Stalinlə sövdələşməyə» yol verməməyi tələb edirdilər.

Adminstrasiya tərəfində də nüfuzlu konqresmenlər çıxış edirdilər. Onlardan biri, nümayəndələr palatasının Texas ştatından olan üzvü L.Conson həledici səsvermə öncəsi demişdi: «Rusiya indiki məqamda bizi təhdid edən ox dövlətlərinə mənsub olmadığı halda, onu kənara itələmək ağıllılığa və dövəltçiliyə uyğun olacaqmı?»[1]. Nəticədə 11 mart 1941-ci ildə lend-liz qanunu nümayəndələr palatasında 260 lehinə, 161 əleyhinə, senatda isə, 60 lehinə, 31 əleyhinə olmaqla qəbul edildi. Elə həmin gün prezident qanunu İngilterəyə və Yunanstana aid edildi.H.Hopkins lend-liz proqramının rəhbəri tə'yin edildi.

Göründüyü kimi, 1940-cı ilin II yarısında, Fransanın süqutu ilə əlaqədar SSRİ-ABŞ münasibətlərində meydana gələn müəyyən yaxınlaşma meyiləri

---

[1] Борисов А.Ю. СССР и США: союзники в годы войны. М. 1983. С. 40

1941-ci ilin əvvəllərindən, Almaniyanın yaxın vaxtlarda SSRİ-yə hücum edəcəyi ABŞ rəhbərliyinə bəlli olduqdan sonra daha da artdı. Bu istər iqtisadi məsələlərə dair danışıqlarda, istər mə'nəvi embarqonun ləğvində, istərsədə lend-liz ala biləcək potensial ölkələr sırasında SSRİ-nin ehtimal olunmasında özünü göstərirdi.Lakin bununla yanaşı, Sovet-Ameikan münasibətlərində gərginlik qalmaqda idi. Bunua hər iki tərəfin hərəktləri səbəb olurdu.

20 mart 1941-ci ildə dövlət departamentində növbəti görüş zamanı S.Uelles sovet səfirinə bildirdi ki, yaxşı olardı ki, Moskva və Vaşinqton öz niyyətləri barədə «Yaponiyanı tam qeyri-müəyyənlik vəziyyətinə buraxsınlar». Bu zaman Uelles ona əsaslanırdı ki, «Sovet-İttifaqı və Birləşmiş Ştatlar, Sakit okeanda sülhün saxlanmasında eyni dərəcədə maraqlıdırlar». Lakin, sovt rəhbərliyi ABŞ-ın bu çağırışına məhəl qoymadı və 13 aprel 1943-cü ildə Yaponiya ilə bitərəflik haqqda müqavilə imzaladı.

Öz növbəsində ABŞ hökuməti də SSRİ–yə qarşı müvafiq addımlar atırdı. 1941-ci ilin 1 yanvarından may ayınadək SSRİ üçün 29 milyon dəyərində yükə lisenziya verilməmişdi və yüklər saxlanmışdı. Sovet təşkilatlarının 49,9 milyon dollar dəyəri olan mallara rədd cavabı verilmiş, artıq təsdiq edilənləri isə çox vaxt qəbul edilməz şərtlərlə təşkil edilmişdilər. 7 may 1941-ci ildə SSRİ-nin Argentina və Uruqvaydan aldığı yun və dəri yükünü dövlət departamenti San-Fransiskoda saxlatdırmışdı. Bununla bağlı sovet səfirliyi ABŞ hökümətinə etirazını bildirmişdi[1].

7 iyunda SSRİ ərazisindəki xarici dövlətlərin nümayəndələrinin hərəkətlərinin məhdudulaşdırılması barədə sovet hökümətinin qərarına cavab olaraq, ABŞ-da sovet nümayəndələrinin hərəkət sərbəstliyinə məhdudiyyət qoyuldu. 10 iyunda dövlət departamenti ABŞ-dakı sovet səfirliyinin hərbi-hava attaşesinin iki köməkçisini «persona non-qrata» elan etdi.

[1] Внешняя политика СССР. сб. док.т.4.с.553

12 iyunda ABŞ kömrük orqanları sovet gəmisi «Yakut»-da axtarış apardılar, hansı ki, San-Fransiskoda təmirə dayanmışdı. İyun ayında ABŞ hökuməti əvvəllər Estoniyaya və Litvaya məxsus olmuş sovet gəmiləri «Maret», «Xarcurand» və «Denni»ni rekvizisiya etdi.

14 iyun 1941-ci ilə Almaniya, İtaliya və onlarala ticarət edən bir sıra ölkələrin, o cümlədən SSRİ-nin ABŞ-dakı, hesabları donduruldu.

Ümumiyyətlə 1939-cu ilin avqustundan 1941-ci ilin iyununadək SSRİ ABŞ münasibətlərindəki gərginlik yaradan şərtlər bunlar idi:

I-si, hər iki dövlətin öz bitərəfliyni elan etməsinə baxmayaraq, onların hərəsinin Avropadakı müharibəyə öz münasibəti, bu məsələ barədə öz mövqeyi vardı. SSRİ Almaniya ilə yaxın əlaqələrdə olduğu, ona iqtisadi yardım göstərdiyi və faktiki müttəfiklik etdiyi halda, ABŞ Almaniyaya qarşı vuruşan ölkələrə yaxın idi və onları dəstəkləyir, onlara yardım edirdi.

II-si, Moskva Berlinlə sövdələşməyə gedərək, Avropada nüfuz dairələrinin bölünməsində iştirak edir və bir sıra ölkələrə (Finlandiya, Estoniya, Latviya, Litva, Polşa, Rumıniya) qarşı təcavüzkarlıq və işğalçılıq planları həyata keçirirdi.

III-sü, ABŞ və SSRİ müxtəlif iqtisadi və siyasi sistemlərə malik idilər. Əgər ABŞ-da demokratik cəmiyyət və liberal iqtisadiyyat hökm sürürdüsə, SSRİ-də nəhəng repressiv aparata malik totalitar diktatura rejimi mövcud idi. Bu faktor da, dövlətlərarası münasibətlərə öz mənfi təsirini göstərirdi və ABŞ hakim dairələrindəki bir sıra qrupların SSRİ əleyhinə sərt mövqe tutmasına səbəb olurdu.

Ümumiyyətlə, bu hər üç səbəbin ortaq məzmunu o idi ki, SSRİ və ABŞ arasında onların rəhbər tutduqları maraq və prinsiplər nəzərə çarpacaq dərəcədə fərqlənirdi.

SSRİ–ABŞ münasibətlərinin daha da kəskinləşməsinin qarşısını alan və müəyyən dərəcədə yaxınlaşma meyilləri yaradan faktorlar isə, onunla bağlı idi ki, ABŞ hökuməti SSRİ-yə Avropa kontinentində Almanyaya,

Asiyada isə, Yaponyay qarşı dura biləcək potensial qüvvəb kimi baxırdılar. Həm də ABŞ hökuməti başa düşürdü ki, SSRİ ilə münasibətlərin kəsilməsi sonuncunun faşist blokuna qoşulmasına rəvac verə bilərdi. Bundan əlavə, hər iki tərəfin qarşılıqlı iqtisadi və ticarət maraqları da vardır.

Öz növbəsində sovet rəhbərliyi də dərk edirdi ki, əgər gələcəkdə Almanya ilə toqquşma baş verərsə, ABŞ SSRİ-yə dəstək verə bilər. Buna görə də münasibətlərin normallaşmasına SSRİ də maraqlı idi.

Qeyd edək ki, SSRİ-yə münasibətdə, Alman hücumu ərəfisində ABŞ-ın d.vlət departamenti və diplomatik nümayəndəliklərinin mövqeyi ilə prezident və onun yaxın çevrəsinin mövqeyi fərqlənirdi. ABŞ-ın Moskvadakı səfiri Şteynqardt 17 iyul 1941-ci ildə dövlət katibinə yazırdı: «Mən dövlət departamentinin Sovet İttifaqına münasibətdə tutmağı qərara aldığı xəttlə tam razıyam. Sərt siyasət, necə ki, o, müəyyənləşib, hər şeydən yaxşı olaraq, bizim Moskvadakı prestijimizin saxlanmasına hesablanıb[1]».

Almaniyanın SSRİ-yə hücumundan bir gün əvvəl, artıq bu hücumun başlayacağına demək olar ki, şübhə qalmadığı bir vaxtda, 21 iyun 1941-ci ildə ABŞ dövlət departamentinin memoranduiunda deyilirdi: «Şərqi Avropada vəziyyətə dair daxil olan mə'lumatlar açıqca anladır ki, biz yaxın gələcəkdə Almaniya ilə Sovet İttifaqı arasında müharibə baş verməsi mümkünlüyünü istisna etməməliyik. Əgər müharibə olarsa, biz hesab edirik ki, bizim, Sovet İttifaqına münasibətdə siyasətimiz heç olmasa münaqişənin ilk dövründə aşağıdakı kimi olacaqdır:

1) Əgər Sovet İttifaqı bizə müraciət etməsə, biz Sovet İttifaqına təklif və məsləhət verməməliyik...

3)Əgər sovet hökuməti yardım xahişi ilə bizə birbaşa müraciət etsə, onda biz mümkün qədər, Böyük Britaniyaya və təcavüz qurbanlarına yardım etməyimizə xələl gətirmədən və bizim öz hazırlığımızın tə'min edilməsi üzrə sə'ylərimizə ciddi zərər vurmayaraq, Sovett İttifaqına ixracın

[1] Foreign Relations... 1941 vol. 1. Washington, 1958.p.764-765

məhdudlaşdırılmasını zəifılətməli, ona hətta kəskin zərurət hiss etdiyi və bizim paylaşmaq imkanımız olan hərbi ləvazimatları verəməliyik..

5) Biz bu xəttdə durmalıyq ki, Sovet İttifaqının Almaniya ilə vuruşması faktı heç də, o demək deyil ki, o, beynəlxalq münasibətlərdə bizim dəstəklədiyimiz prinsipləri qoruyur, onun uğrunda vuruşur və ya o prinsiplərdə durur.

6) Biz alman-sovet münaqişəsi olacağı təqdirdə edə biləcəyimiz yardım barədə əvvəlcədən Sovet İttifaqına və'dlər verməməliyik və biz Sovet İttifaqı və ya Rusiyaya münasibətdə gələcək siyasətimiz barədə öhdəliklər götürməməliyik. Xüsusən də, əgər biz sonradan, Sovet İttifaqının məğlub edildiyi və sovet hökumətinin ölkəni tərk etməli olduğu halda, mühacirətdəki sovet hökumətini tanımaqdan imtina etsək və ya Vaşinqtondakı sovet səfirini Rusiyanın diplomatik nümayəndəsi kimi tanımasaq, elə təəssürat yaratmamlıyıq ki, biz mehriban iradə ruhunda hərəkət etmirdik[1].

Lakin Ruzveltin mövqeyi fərqli idi. 15 iyunda Çörçil Ruzveltə məktubunda yazmışdı ki, «ən yaxın zamanda almanlar, görünür ki, Rusiyaya çox güclü hücüm edəcəklər» və «İngiltərə ruslara hərtərəfli dəstək və yardım verəcək, o prinisipdən çıxış edəcək ki, darmadağın olunması lazım olan düşmən-Hitlerdir[2]». Cavab məktbunda Ruzvelt bildirirdi ki, o, dərhal və açıqca «baş nazirin» Rusiyanı müttəfiq kimi qarşılayacağı istənilən istənilən bəyanatını» dəstəkləyəcək. Ruzvelt Rusiyanı gələcək müttəfiq hesab edirdi.

Digər tərəfdən, II dünya müharibəsi cəbhələrində döyüşlər davam etməkdə idi. 1940-cı ilin sentyabrında yaponlar Şimiali Hind-Çinə daxil oldular. 1940-cı ilin yayında İtaliya qoşunları Şərqi Afrikada əməliyyata başlayıb Britaniya Somalisini tutdular, Keniya və Sudana daxil oldular. Sentyabrda isə, italyanlar Şimali Afrikada hücuma keçdilər: Qrasianinin Liviyadakı ordusu Aralıq dənizi sahili boyunca Misirə hücum etdi, Sidi-Berranini tutdu. Lakin, əlavə kömək alan ingilis ordusu 9 dekabr 1940-cı itldə

---

[1] Foreign Relations… 1941. Vol. 1. 766-768.
[2] Черчилль У. Указ. соч. с. 227.

əks-hücuma keçib, italyanları Misirdən qovub Liviyaya daxil oldular və bütün Kirenaikanı tutdular. 1941-ci il yanvarda ingilislərin Şərqi Afrikada təşkil etdikləri hücum onunla nəticələndi ki, italyan qoşunları Keniya və Sudandan qovuldular, Eritreya, Somali və Efiopiya italyanlardan alındı. Nəticədə Şərqi Afrika həmişəlik olaraq İtalyanın əlindən çıxdı.

Lakin, Şimali Afrikada vəziyyət başqa cür inkişaf edirdi. Hitlerin əmri ilə Rommelin başçılıq etdiyi 1 alman korpusu Liviyaya göndərildi və əks-hücuma keçən italyan-alman qoşunları 1941-ci ilin aprelində Kirenankanı alıb Misir sərhədinə çıxdılar və Tobruk şəhərindəki ingilis qoşunlarını mühasirəyə aldılar.

1940-cı ilin noyabrında Macarıstan, Rumıniya və Slovakiya Berlin paktına qoşuldular. 1 mart 1941-ci ildə Bolqarıstanda oraya daxil oldu. 6 apreldə Almaniya, İtaliya və Macarıstan Yuqoslaviyaya hücum edərək, oranı zəbt etdilər. Nəticədə, Çernoqoriya İtaliyaya, Makedoniya Bolqarıstana, Voyevodina Macarıstana verildi, Sloveniya isə, Almaniya və İtaliya arasında bölündü, Serbiya və Xorvatiyada marionet hökumətlər yaradıldı.

1940-cı ilin oktyabrında İtaliya ordusu Albaniyadan Yunanıstana hücum etdi, lakin heç bir uğur qazana bilmədi. Yalnız Almaniya işə qarışandan sonra, 1941-ci ilin aprelin sonu üçün Yunanıstan zəbt olundu.

Beləliklə, SSRİ-yə hücum ərəfəsində faşist bloku kontinetal Avropanın əhəmiyyətli bir hissəsinə sahib oldu.

## II fəsil. 1941-1943-cü illərdə SSRİ-ABŞ münasibətləri

22 iyun 1941-ci il, səhər saat 04.00-da Almaniya və onun müttəfiqləri İtaliya, Rumıniya, Macarıstan və Finlandiya da, SSRİ-yə qarşı müharibəyə başladılar. 3 həftə ərzində Baltikdən Qara dənizədək olan cəbhədə 350-600 km. İrəliləyə bildilər, Latviya, Litva əraziləri, Estoniyanın cənubu, Moldaviyanın, Belorusiyanın, Sağsahil Ukraynasının torpaqları zəbt edildi. Sovet ordusunun cəbhədəki 170 diviziyasının 28-i tamamilə sıradan çıxdı, 70-i isə, öz şəxsi hey'ətinin və döyüş texnikasının yarıya qədərini itirdi.

Almaniyanın SSRİ-yə hücumu nəticəsində beynəlxalq hərbi-siyasi vəziyyətdə dəyişiklikləçr yarandı. I-si, ona görə ki, totalitar sistemli dövlətlərin azad dünyaya qarşı birləşmək təhlükəsi tamamilə sovuşdu; II-si, ona görə ki, antifaşist ölkələri blokuna daha bir nəhəng dövlət qoşulmuş oldu və Hitler Almaniyası və onun müttəfiqlərinin xeyli qüvvəsini özünə cəlb etdi. III-sü isə, Qərb dövlətləri ilə SSRİ arasında dünyanı hədələyən faşist bloku qarşısında birləşməsinin təməli qoyuldu. Polşa tədqiqatçısı S.Bratinskinin tə'bircə desək «Almaniyanın SSRİ-yə hücumu ilə, koalisiya məsələsi xüsusi aktuallıq qazandı».[1]

Amerika tarixçisi M.Metloff yazır: «Müharibə zamanı və müharibə üçün yaranmış böyük koalisiya 1941-1942-ci illərdə meydana gəlmişdi. Bu, «hesablı nikahı» xatırladan hərbi ittifaq idi. Ümumi təhlükə 1941-ci ildə Birləşmiş Ştatları, İngiltərəni və Sovet İttifaqını birləşdirmişdi, lakin ən'ənələrdə, siyasətdə, maraqlarda, coğrafi vəziyyətdə və resurslardakı fərqlərə görə koalisiyanın iştirakçısı olan hər bir ölkə Avropadakı müharibəyə öz nəzər nöqtəsindən baxırdı».[2] Rus tədqiqatçısı İ.F.İvaşin də yazır ki, «antifaşist koalisiyası daxilində ciddi ziddiyyətlər vardı; ilk növbədə, oraya daxil olan böyük dövlətlərin müharibədə fərqli məqsədləri və müharibədən

[1] Боратынский С.Дипломатия в период второй мировой войны. М.1959.с.67
[2] Мэтлофф М. От Касбланки до «Оверлорда». М.1964.с.22

sonra dünyanın qurulmasına danir fərqliproqramları vardı[1]». Elə buradaca qeyd edək ki, istə ABŞ və B.Britaniya, istərsə də SSRİ, müharibə ilə bağlı verdikləri bəyənatlarda, heç bir pis niyyət güdmədiklərini, yalnız yüksək ideallar uğrunda vuruşduqlarını bəyan etsələr də, təəssüf ki, əslində bu heç də bütün hallarda belə olmurdu. İngiltərə hakim dairələri faşist dövlətlərini məğlub etməklə özlərinin dünya bazarındakı mühüm rəqibləri olan Almaniya və Yaponiyadan can qurtarmağa çalışır, habelə, İngiltərə Avropada söz sahibi olmağa, öz müstəmləkə imperiyasını saxlamağa, ABŞ hakimiyyəti Almaniya və Yaproniyanın darmadağın edilməsi, İngiltərə və Rusiyanın zəifləməsi nəticəsində, dünya hökmranlığına yiyələnməyə, Rusiyanın stalinçi rəhbərliyi isə, müharibə nəticəsində öz ordularını Avropa və Asiyanın əsarətə alınmış xalqlarının «azad edilməsi» pərdəsi altında xarici ölkələrə yeritməyi, bacardıqca daha çox ölkədə kommunist diktaturası qururaq, onları özünə tabe etmək, müəyyən əraziləri isə, ilhaq etmək ümidində idi. Sadəcə olaraq, faşist-millitarist bloku dövlətlərinin yeritdiyi, bütün millətlərin öz müstəqillik və azadlıqlarındvan məhrum edilməsinə, onların alçaldılmasına hesablanmış təcavüzkar və yırtıcı siyasət fonunda, antifaşist üçlüyünün müəyyən maraqlar güdməsi bəşəriyyət üçün bir o qədər də dəhşətli deyildi. Antifaşist bloku içində isə, totalitar düşüncəli Rusiya rəhbərliyinin yeritdiyi siyasət müəyyən hallarda heç də faşist Almaniyasının siyasətindən geri qalmırdı. Lakin, burada həm də onu qeyd etmək lazımdır ki, antifaşist üçlüyü rəhbərliyinin hansı maraqlardan çıxış etməsindən asılı olmayaraq, bu, həmin ölkələrin xalqlarının faşist təhlükəsinə qarşı apardıqları azadlıq müharibəsinin üzərinə kölgə sala bilməz. Kimin hansı məqsədlə vuruşmasından asılı olmayaraq, əgər bu fəaliyyət son nəticədə bəşəriyyəti faşist təhlükəsindən xilas etmişsə, təqdirəlayiqdir.

Sovet-alman müharibəsinin başlaması nəticəsində Moskvanın xarici siyasətinin əsas vəzifəsi antifaşist ölkələri ilə müttəfiqlik münasibətlərinin

---

[1] Ивашин И.Ф. Международные отношения и внешняя политика СССР в период второй мировой войны. М.1954.с.40

yaradılması və SSRİ-yə münasibətdə bitərəflik saxlamış dövlətlər (ilk növbədə Yaponiya) tərəfindən hücuma mə'ruz qalmağa yol verməmək idi[1].

Hitler güman edirdi ki, Qərbin demokratik dövlətləri kommunist diktaturasının hökm sürdüyü Rusiyaya kömək etməyəcəklər. Lakin Hitlerin gümanları boşa çıxdı. ABŞ və İngiltərə rəsmi dairələri faşizmi əsas təhlükə hesab edərək, Moskva ilə əməkdaşlıq etməyi qərara aldılar. Bu barədə Almaniyanın SSRİ-yə hücumundan 1 həftə öncə Çörçillə Ruzvelt öz aralarında məktub mübadiləsi ilə razılaşmışdılar.

22 iyun axşamı radio ilə çıxış edən U.Çörçil qəti şəkildə bildirdi ki, komunistlə mənfi münasibətinə baxmayaraq, ingilis höküməti Almaniyaya qarşı müharibədə Rusiyanın dəstəkləyən, natsizmlə mübarizədə Rusiyaya və rus xalqına bacardığı köməyi göstərəcək. «Rusiyanı hədələyən təhlükə, bizi və Birləşmiş ştatları hədələyən təhlükədir"-deyə Çörçil bildirmişdi[2]. Bu mövqeyi hərbi kabinet və nümayəndələr palatası da bəyənmişdi.

ABŞ–da SSRİ-yə münasibət bir qədər fərqli idi[3]. Müharibə başlayandan 2 gün sonra, Hellap institunun keçirdiyi rə'y sorğusu göstərmişdi ki, respondentlərin 72%-i SSRİ-nin qələbəsini, 4%-i Almaniyanın qələbəsini istəyir, 17%-i heç bir fərq görmür, qalanları isə, fikir bildirməmişlər[4]. Lakin, respondentlərin cəmi 1/3-i SSRİ-yə hərbi materiallar satılmasına tərəfdar idi[5].

Təcridçilər və bə'zi başqa qruplar isə, SSRİ ilə hər hansı bir yaxınlaşma addımları atmasının əleyhinə idilər. Onlar öz fikirlərini SSRİ-nin də faşist Almaniyası kimi, son zamanlaradək təcavüzkarlıq siyasəti yeritdiyi və SSRİ-də də faşist Almaniyasındakı kimi totalitar diktatura olması ilə əsaslandırırlar. Bu mövqedən general R.Vudun başçılıq etdiyi "Öncə Amerika" (America First) komitəsi, ABŞ -ın SSRİ və Fransadakı keçmiş səfiri

---

[1] История внешней политики СССР. Т.1.М.1986.с.432
[2] Черчилль У. Вторая мировая война. Ростов на- Дону, 1997. С.229-232.
[3] Советско-американские отношения во время Великой Отечественной войны, 1941-1945: Документы материалы. Т.1.М.1984.с.42-43.
[4] Яковлев Н.Н. Франклин Рузвельт: человек и политик. М.1981.с.307
[5] История США т.3.М.1985.с.338

U.Bullit, senatorlardan A.Vanderberq, B.Klark, B.Uiller, H.Trumen (gələcək prezident), R.Taft, Nay, nümayəndələr palatasından təcridçi müxalifətin lideri H.Fiş, M.Days, Hofman, Dey, ABŞ təcridçiliyinin görkəmli nümayəndələrindən keçmiş prezident H.Quver, polkovnik Ç.Linderberq, "Komunizmə qarşı beynəlxalq mübarizə komitəsinin" Amerika şöbəsi, "Milli müdafiə şurasının" sədri Koul, "Neyşnl ripablikin" redaktoru Stil, Amerika hərbi kəşfiyyatının keçmiş agenti Stivenson[1], habelə təcridçilərlƏ heç bir əlaqəsi olmayan "Amerikanın müdafiəsi komitəsi", "Amerika əmək federasiyasının" bir sıra liderləri və b. Aktiv çıxış edirdilər.

Onu qeyd edim ki, ABŞ siyasi xadimlərinin Rusiyanın təcavüzkarlıq niyyətlərinə və sovet sisteminin xarakteri barədə dediklərinə tam şərikəm. Lakin bir məsələni unutmaq lazım deyil ki, 1941-ci ildə bəşəriyyət üçün əsas təhlükə məhz faşizm idi. ABŞ hökuməti də bu prinsipi əsas götürmühdü. Ruzvelt və onun ətrafı başa düşürdü ki, ümumi düşmən olan hitlerizmlə mübarizədə SSRİ ilə fəaliyyət birliyinin təşkili ABŞ-ın köklü maraqlarına uyğundur. Lakin, qeyd etmək gərəkdir ki, SSRİ-yə yardımın əleyhinə çıxan güclü qruplaşma Ruzvelt adminstrasiyasında, habelə dövlət departamentində də var idi[2].

22 iyun 1941-ci ildə, SSRİ-yə hücum xəbəri alındıqdan sonra Ağ evdə ABŞ hökumətinin toplantısı oldu və SSRİ-ni dəstəkləmək qərara alındı.[3] 23 iyunda dövlət katibi K. Hellin xəstəliyi üzündən , onun səlahiyyətini icra edən müavini S. Ulles ABŞ hökumətinin sovet-alman savaşına ilk rəsmi münasibətini akçıqladı. Bəyanatda əvvəlcə kommunist diktaturasının ABŞ üçün yad olduğu bildirilir, qeyd edilirdi ki, "natsizm və kommunizm ABŞ üçün eyni dərəcədə qəbuledimezdir" və rəsmi ABŞ-ın fikrincə, "natsist diktaturası ilə proletariat diktaturası arasında fərq yoxdur". Daha sonra əlavə edilirdi ki, "lakin, Amerika xalqı qarşısında duran əsas məsələ odur ki, dünyanı işğal

[1] Сейерс М., Кан А. Тайная война против Советской Росии. М.1947. с. 399-400.
[2] Шервуд Р. Рузвельт и Гопкинс М. 1958 т. 1 с. 496
[3] Тавровская Г.М. К вопросу о создании антигитлеровской коалиции // Вопросы истории 1957. № 12.с. 79

etmək bütün xalqların amansız və kobudcasına əsarətə salınması planına..., hansını ki, indi Hitler ciddi-cəhdlə həyata keçirməyə çalışır, ona qarşı durmaq və onu ləğv etməyi uğurla həyata keçirmək olarmı? Amerikanın qarşısında hal-hazır da duran gerçək məsələ budur... Hökumətimizin fikrincə, hitlerizmə qarşı duran qüvvələrin bu cür birləşməsi, onların mənşəyindən asılı olmayaraq, indiki alman liderlərinin qəti olaraq devrilməsini yaxınlaşdıracaq və eyni zamanda, bizim öz müdafiə və təhlükəsizliyimizə xidmət edəcək... Hitler orduları bu gün Amerika kontinenti üçün əsas təhlükədirlər»[1].

24 iyunda prezident F.D.Ruzvelt çıxış edərək "Rusiyaya bütün mümkün köməyi" göstərməyə hazır olduğunu bildirdi.

Sovet-alman savaşının ilk günlərində ABŞ-ın SSRİ-yə münasibətində diqqəti çəkən məqamlardan biri də, sovet ordusunun almanlara nə qədər müqavimət göstərə biləcəyi ilə balı fikirlər idi. Bu fikirlər Rusiyaya hərbi yardım edilməsi məsələsinə öz təsirini göstərirdi. Vaşinqtonda bir çoxları əmin idilər ki, SSRİ-ni Fransanın taleyi gözləyir və ona görə də, prezidenti inandırmağa çalışırdılar ki, SSRİ-yə silah göndərərsə, həmin silahlar almanların əlinə keçəcək.

ABŞ hərbi naziri H.L.Stimson 23 iyunda qərargah rəisləri komitəsinin rəyi əsasında, Ruzvelt üçün yazılı məruzə hazırlamışdı. Orada: "Almaniya əsaslı şəkildə Rusiyanın darmadağın edilməsi ilə ən azı 1 ay və ən çoxu, ola bilsin, 3 ay məşğul olacaq»[2] . Həmin gün hərbi-dəniz naziri F.Noks Ruzveltə yazırdı: " Rusiyanın işini bitirmək üçün Hitlerə 6 həftədən 2 aya qədər vaxt lazım olacaq[3]" ABŞ-ın SSRİ-dəki səfiri L.Şteynqardt 26 iyunda Vaşinqtona teleqram vururdu ki, "mən öncədən görürəm ki, sovet hökuməti tezliklə Moskvanı tərk edəcək". Bir neçə gün sonra isə, səfir qeyd edirdi ki, alman ordusu Moskvaya "bir neçə ay sonra, ola bilsin ki, bir qədər də tez" daxil

[1] Foreign Relations of United States. Doplomatic Papers. 1941 vol .1.p 767-768
[2] Батлер Дж. Гуайер Дж. Большая стратегия . Июнь 1941-август 1942. М. 1967. С. 82
[3] Langer W., Gleason S. The Undeclared War, 1940-1941 N J. 1953 p. 538

olacaq[1]. İngiltərənin SSRİ-dəki səfiri Kripps, Şteynqardtla söhbətində Moskvanın 60 günə süqut edəcəyini dedikdə, Şteynqardt bunun daha tez ola biləcəyini söyləmişdi[2].

Rus tarixçiləri belə bir fikir irəli sürürlər ki, ABŞ SSRİ-nin müqavimət gücünə inanmadığındın, müharibənin ilk aylarında ona yardım etmədi. Öz tərəfimizdən əlavə edək ki, SSRİ-nin ardıcıl məğlubiyyətləri fonunda bu inamsızlıq təbii idi.

Lakin, ABŞ hakim dairələri Almaniyanın şərqdə, yə'ni Rusiyada daha uzun müddətə ilişib qalması prespektivinin ABŞ üçün əlverişli olduğunu anlaırdı. Noks bildirmişdi ki, «Almaniya ilə Rusiya arasında uzunmüddətli müharibə ABŞ-ın xeyrinə işləyir[3]» Ruzvelt özü isə, admiral Leqiyə 26 iyunda yazırdı: "Budur, rus yayındırması gəlib çatdı. Əgər o böyük olsa, onda bu Avropanın natsist hökmüranlığından azad olması demək olacaqdır.[4]"

Beləliklə, hər halda sovet-alman savaşının ilk günlərində SSRİ-ABŞ yaxnlaşması hiss olunmadıqda idi və bu yaxınlaşmanın gələcəkdə koalisya və müttəfiqlik münasibətlərinə çevrilməsi perspektivi vardı.

24 iyun 1941-ci ildə ABŞ hökuməti dondurulmuş sovet fondları üzərindən qadağanı götürdü.[5] Eyni zamanda, bitərəflik haqqında anun SSRİ-yə aid edilməsinə son qoyuldu ki, bu da SSRİ-yə ABŞ silahları almağa imkan verirdi.

Molotovun 26 iyunda vurduğu teleqramda, səfirdən ABŞ hökumətinin sovet-alman savaşına rəsmi münasibətini öyrənməsini istəməsi səbəbindən, Umanski ABŞ dövlət katibi müavini S. Uellsin qəbulunda olmuş, Uelles qeyd etmişdi ki,"Amerika hökuməti SSRİ-nin səbəbi olmayan, heç nəyi ilə səakslandırılmayan təcavüzün qurbanı hesab edir. "Uelles bildirmişdi ki, Amerika hökuməti SSRİ-yə "ABŞ-ın istehsal imkanları ilə müəyyənləşən və

[1] Foreign Relations… 1941 vol 1 . p. 886
[2] Сиполс В. Я. Напути к великой победе. Советская дипломатия 1941-1945 г. м.1985. с.49
[3] Кузнец Ю.Л. указ. соч. с. 227
[4] Борисов А.Ю. ССРИ и США: союзники в годы войны М. 1983 с. 49
[5] Ивашин И. Ф. Указ. соч. с. 32

onun daha təxirəsalınmaz ehtiyatları daxilində bütün gücü yetən köməyi göstərməyə hazırdır." Uelles SSRİ-yə nə lazım olduğunu mə'lumat verməyi istəmişdi.[1] Bu səbəbdən 29 iyunda Molotov Umanskiyə teleqram vuraraq, SSRİ-yə aşağıdakı predmetlərin lazım olduğunu bildirmişdi: "1) bir mühərrikli qırıcı təyyarələr-3 min; 2) bombardımançılar-3 min; 3) aviazavodlar üçün dəzgahlar, məngənələr və gürzlər-30 min dollarlıq; 4) 25mm-dən 47 mm-dək kalibirli zenit topları - 20 min ədəd ; döyüş komplektləri ilə birgə; 5) krekinq və yüksək oktanlı aviasiya yanacağı istehsalı üçün qurğular və aviamassa istehsalı üçün qurğular; 6) toluola-50 min (ton); 7) toluola istehsalı üçün zavodlara aid avadanlıq; 8) şin zavodu üçün avadanlıq; 9) yüngül splavlar prokatı üçün zavoda aid avadanlıq. Arzuediləndir ki, bu mallar üçün 5 illik kredit verilsin. "Umanski bu siyahını 30 iyunda Uellesə çatdırdı. Söhbət zamanı Uelles sovet hökumətindən Moskvadakı ABŞ hərbi atteliesi İtonun ya cəbhəyə buraxılmasını, ya da onun üçün əməliyyatların gedişi və ordu ilə yaxından tanış olması üçün Moskvada şərait yaradılmasını istəmişdi. Umanski öz növbəsində, ABŞ-dakı Baltikyanı ölkələrin nümayəndələrinin "şübhəli fəaliyyətini" yoxlamağı məsləhət görmüş, Uelles cavabında bildirmişdi ki, "Amerika hökuməti Baltikyanı məsələsi üzrə mövqeyinin müzakirəsini az bir müddət sonraya saxlayır[2]".

SSRİ-nin 1939-1940-cı illərdəki siyasətinin "bəhrəsi" olaraq zəbt edilmiş Baltikyanı respublikaları, Finlandiyanın bəzi əraziləri, Polşanın şərq bölgələri, Ruminiyanın, Bessarabiya və Şimali Bukovina vilayətləri məsələsində ABŞ-la SSRİ arasında ciddi fikir ayrılığı vardı. ABŞ hökuməti SSRİ-nin işğalçılıq siyasəti nəticəsində yaranmış yeni qərb sərhəddini tanımaq istəmirdi. Onu da qeyd edək ki, müharibənin ilk günlərində düşdüyü çətin vəziyyət zamanı sovet hökuməti Baltiniyanı respublikalar məsələsində qəti mövqe tutsa da, Polşa məsələsində nisbətən yumşaq mövqe tutmuşdu. 3 iyunda XXİK-dan SSRİ-nin Londondakı səfirliyinə göndərilmiş teleqramda

[1] Советско- амерканские.. т. 1.с. 45-46
[2] Там же, с. 49-52

deyilirdi: "Biz müstəqil Polşa dövlətinin bir qədər öncə SSRİ-yə keçmiş bəzi şəhər və vilayətlər də daxil olmaqla, Polşanın milli sərhədlərində yaranmasına tərəfdarıq, bu zaman Polşanın dövlət rejiminin xarakterini sovet hökuməti polyakların öz daxili işi hesab edir[1]". Bundan bir ay sonra, sovet hökuməti Finlandiyanın müharibədən çıxacağı təqdirdə, ona işğal etdiyi ərazilərini qaytaracağını və'd etmişdi. Lakin, sonradan müharibədəki vəziyyəti yaxşılaşdıqca, sovet hökuməti özünün və'dlərindən imtina etdi.

3 iyul 1941-ci ildə SSRİ Dövlət Müdafiə Komitəsinin, XKS -nin sədri Stalin radio ilə çıxışında güya SSRİ-nin həm də əsarətə almış Avropa xalqlarına azadlıq bəxş etmək istəyi vurğulanır. Lakin, əslində isə, söhbət həmin xalqların Moskvanın əsarətinə salınmasından gedirdi, necə ki, sovet hökuməti bunu ikinci dünya müharibəsinin sonunda həyata keçirdi.

3 iyulda Uellesin tə'cili çağırışı ilə onun yanına gedən Umanskiyə Uelles bildirmişdi ki, «Amerika hökumətində olan dürüst informasiyaya görə, Yaponiya hökuməti SSRİ ilə bitərəflilik taktikasını ləğv etmək və SSRİ-yə hücum etmək niyyətindədir» və əgər belə olarsa, ABŞ «SSRİ-yə yardım etməklə yanaşı, dərhal Yaponiya ilə iqtisadi münasibətləri kəsəcək». Qeyd edək ki, bu söhbətdən bir gün əvvəl 2 iyulda Yapon hçərbi rəhbərinin imperatorun iştirakı ilə keçən müşavirəsində qərara alınmışdı ki, «əgər alman-sovet müharibəsi Yaponiyanın xeyrinə cərəyan etsə», onda Yaponiya SSRİ-yə qarşı müharibəyə girəcək[2]. O zaman bir sıra ABŞ hərbi və siyasi xadimləri bu fikirdə idilər ki, Yaponiya SSRİ-yə hücum edəcək, lakin bə'ziləri Yaponiyanın ABŞ-a hücum edə biləcəyini istisna etmirdilər.

Söhbət zamanı, Uelles yenə də hərbi attaşe İtonun cəbhəyə buraxılması məsələsini qaldırmış, Umanski Moskvaya mə'lumat verdiyini bildirmişdi. Uelles ABŞ hökümətinin Sovet sifarişləri siyahısına cavabını açıqladı:

---
[1] История внешней политики ССР т. 1. с. 432
[2] Ивашин И.Ф. указ.соч.с.45

«a) avadanlığa aid hər şeyi biz prinsipcə artıq müsbət həll edilmiş hesab edə bilərik və yalnız müddət, hesab, nəqliyyat barədə danışmaq lazım gələcək.

b) 6-cı bənddə qeyd edilmiş predmet (toluola) barədə sonrakı danışıq haqda məsələ də müsbət həll edilib, lakin indi bunun belə böyük miqdarda göndərilməsi imkanları aydınlaşdırılır.

c) o ki qaldı, I bəndə (qırıcılar), onunla bağlı iş daha gərgindir, II-yə (bombardmançılar) aid nisbətən imkanlar var[1]».

Umanski 10 iyulda Uellesin iştirakı ilə Ruzveltin qəbulunda oldu. Söhbətə hərbi vəziyyətə şərh verməklə başlayan Ruzvelt dedi ki, «SSRİ üçün əsas odur ki, indiki müqavimət gücünü yaxın 2 ay yarımda, təxminən 1 oktyabradək saxlasın. Əgər bu mümkün olsa, müharibəni biz udmuşuq, hitlerizm darmadağın ediləcək[2]» Buradan çıxış edən rus tarixçisi A.Y.Borisov qeyd edir ki, Ruzvelt SSRİ-yə ABŞ yardımı almaq üçün «sınaq müddəti» qoyurdu[3]. Yardım barədə məsələyə münasibət bildirən Ruzvelt təklif etdi ki, «Amerika təchizatının bölüşdürülməsini razılaşdırmaq üçün» ABŞ, B.Britaniya və SSRİ nümayəndələrinin daxil olduğu «Üçlər komitəsi» yaradılsın.

Umanskinin Yaponiya ilə bağlı sorğusuna cavab verən Uelles və Ruzvelt dedilər ki, SSRİ-yə qarşı «Yapon təcavüzü olarsa, Amerika hökuməti Yaponiya ilə iqtisadi və maliyyə əlaqələrini kəsəcək». Lakin, Ruzvelt Yaponiyaya xəbərdarlıq etmək məsələsinə cavab verməkdən yayındı.

11 iyulda Ruzveltin tapşırığı ilə Umanskini qəbul edən H.Hopkins bildirdi ki, prezidentin SSRİ-yə «bütün real mümkün köməyi» göstərmək qərarı ciddidir. O, həm də əlavə etdi ki, dövlət aparatında elə adamlar var ki, onların SSRİ-yə münasibəti çox pisdir.

12 iyulda, Ruzveltin tapşırığı ilə ticarət naziri C.Cons manskini qəbul edərək, kredit ayrılması məsələsini müzakirə etdi.

[1] Советско-американские… т.1.с.52-54
[2] Там же, с.58
[3] Борисов А.Ю.указ.соч.с.50

14 iyulda F.Noks Umanski ilə sovet ordusunun güclü müqavimətindən danışdı, bildirdi ki, baxmayaraq ki, almanlar sovet ərazisinin içərilərinə yenə də irəliləyəcəklər, son nəticədə sovet tərəfi qalib gələcək. Noks dedi ki, «dünya, uzun çoxillik müharibə zolağına daxil olub ki, burada da həm Yaponiyanın, həm ABŞ-ın iştirakı qabaqcadan müəyyənləşib. Bu iki koalisiyanın müharibəsi olacaq: Almaniya, İtaliya, Yaponiya-SSRİ, B.Britaniya, ABŞ-a qarşı». 26 iyun 1941-ci ildə Ruzvelt ABŞ-dakı Yapon fondlarını dondurdu və həmin vaxtdan başlayaraq, Yaponiya ABŞ-dan neft almadı[1].

Cəbhədə isə, vəziyyət ağır idi. 10 iyulda hücuma keçən almanlar mərkəz istiqamətində, Smolensk uğrunda döyüşə başladılar və 29 iyulda şəhəri tutdular. Buna baxmayaraq, Smolensk döyüşü oktyabrın 10-dək davam etdi. Şimal istiqamətində hücumu davam etdirən almanlar 8 sentyabrda Leninqradı mühasirəyə aldılar. Cənub istiqamətində isə, Odessa və Kiyev alındı. Sovet tərəfi yüz minlərlə əskər, minlərlə tank, artilleriya qurğusu və təyyarə itirdi.

ABŞ-dan kredit və yardım alınması məsələsinin gecikdiyini görən sovet rəhbərliyi bu işlərlə məşğul olmaq üçün ABŞ-a general F.İ.Qolikov başda olmaqla 6-7 nəfərlik xüsusi missiya göndərməyi qərara aldı. 17 iyulda ABŞ-a səfər öncəsi Qolikovu Stalin şəxsən tə'limatlandırdı və habelə qeyd etdi ki, missiya ABŞ hökumətini Qırmızı Ordunun sonadək vuruşmaq qətiyyətinə inandırmalıdır.[2] Qlikovun hey'əti yolüstü İngiltərədə dayandı və ABŞ-a 25 iyulda gedib çatdı .

17 iyulda XXİK-na teleqramda Umanski yardım alınması məsələsini belə şərh edirdi: «Bizim sifarişlərimizin gedişi vəziyyəti o qədər də yaxşı deyil, xüsusən də, onun silahlar hissəsində». Sonra qeyd olunurdu ki, Hopkins Rusiyaya göndərişlər üzrə işlərin əksərini dövlət departamentindən alıb, mühüm məsələləri (silah, dəzgah, zavodlar, toluol) general Bernsə

[1] История США.т.3.с.339
[2] Борисов А.Ю. указ.соч.с.51

tapşırıb. Bernsin təklifi ilə SSRİ-dəki keçmiş hərbi attaşe polkovnik F.Feymonvill, hansı ki, sovetpərəst mövqedə dururdu, Lend-lizin idarə olunması üzrə xüsusi rus şö'bəsinə rəhbər tə'yin olunub.Umanski ilə görüşən Feymonvill demişdi ki, «ABŞ hərbi nazirliyi rəhbərliyində aşağıdakı arqumentasiya var: bombardmançılar SSRİ-dən çox ingilislərə gərəkdir... SSRİ-yə qırıcılar göndərilməsi bir qədər realdır, baxmayaraq ki,onların sayı azdır və necə çatdırılması bəlli deyil, zenitlərə sifariş fantastikdir, onlar 10 minlərlə deyil, sadəcə olaraq,10-larla istehsal edilir..., onların sayı ABŞ ordusunda 600-ə qədərdir».Feymonvill qeyd etmişdi ki, Hopkins ingilislərlə danışıq üçün Londona uçub[1].

23 iyulda dövlət departamenti sovet vətəndaşlarının ABŞ ərazisində səyahətinə qoyulmuş qadağanı götürdü.

25 iyulda Qolikovun hey'əti ABŞ-a gəldi.Lakin onun işi ləng gedirdi. 29 iyulda Umanski öz təşəbbüsü ilə hərbi nazir Stimsonla görüşdü. Söhbət hərbi attaşenin cəbhəyə buraxılmadığından şikayətləndi[2].

31 iyunda Umanski və Qolikov yardım məsələsi barədə Stalinə teleqram vuraraq qeyd edirdilər ki, «məsələlər, müharibənin tempi və gedişi nəzərə alınmadan, olduqca ləng həll edilir».

İngiltərədə danışıqlar aparan Ruzveltin xüsusi köməkçisi H.Hopkins 22 iyunda Londondakı sovet səfiri İ.M. Mayskini qəbul etmiş, Mayski ona təklif etmişdi ki, Moskvaya getsin və məsələləri yerindəcə öyrənsin[3].

Ruzvelt "Rusiyada əslidə nə baş verdiyini" aydınlaşdırmaq üçün ələ düşmüş imkanı həyata keçirməyi qərara aldı və Hopkinsin Moskvaya səfər etməsinini istədi. Y.L. Kuznets yazır ki, "bu səfər ABŞ hakim dairələrinin sovet cəbhəsinin və arxa cəbhəsinin davamlılığını aydınlaşdırmaq üçün etdikləri dərin diplomatik kəşfiyyat idi"[4]. Ruzvelt Hopkinsə Stalinə çatdırmaq üçün məktubda göndərmişdi: "Mən sizdən(yə'ni Stalindən-N.M.) xahiş

[1] Советско-американские...т.1.с.72-74.
[2] Там же, с.77-79.
[3] Майский И.М. Воспоминания советского полсла. Война, 1939-1943.М. 1965. С.160-162
[4] Кузнец Ю.Л. указ.соч. с.241

edirəm ki, cənab Hopkinsə eyni ilə əgər mənimlə danışsaydınız, mənə göstərəcəyiniz etimadla yanaşasınız[1]"

Moskvaya gələn Hopkins, 30-31 iyulda Kremildə lanışıqlar apardı. 30 iyulda Stalin və Molotovla görüşən Hopkins Ruzveltin vəziyyətlə bağlı fikirlərini çatdırdı: Stalin, ABŞ-a verilmiş sovet siyahısından fərqli olaraq, SSRİ-yə ilk növbədə aşağıdakı predmetlərin lazım olduğunu bildirdi:' '20 mm-dən 37 mm-dək dəqiqədə 120-dən 180-dək atəş açan zenitlər; 12,7mm. kalibrli iriçaplı pulemyotlar; 7,62mm kalibrli tüfənglər və alüminum."Stalin yüklərin gətirilməsi üçün Arxangelsk yolunu Vladivostok və İran variantından üstün tutduğunu dedi.

31 iyulda Molotovla yenidən görüşən Hopkins,Yaponiyanın Rusiyaya hücumu ehtimalı ilə bağlı məsələyə toxunaraq qeyd etdi ki, ABŞ hökumətində olan mə'lumata görə, «Yaponlar Almaniya ilə sıx əlaqədədirlər və onlar Sovet İttifaqı ilə Almaniya arasındakı müharibənin nəticəsini gözləyərək, Sibirə hücum etməyəcəklər»

Həmin gün Stalin II dəfə Hopkinslə görüşdü, Hopkinsin xahişi ilə, hərbi vəziyyəti geniş şərh etdi. Bir daha SSRİ-yə ilk növbədə lazım olan predmetləri sadalayan Stalin, habelə qeyd etdik ki, «polad və tanklarla təchizat barədə də yardım zəruridir». Hopkins SSRİ-yə yardım üzrə ABŞ, B.Britaniya və Rusiya nümayəndələrinin 3 tərəfli görüşünün keçirilməsini təklif etdi, və Stalin dərhal razılaşdı. Həmin görüş 2 ay sonra Moskvada keçirildi.

1avqustda Hopkins, Ruzveltlə Çörçillin Nyu-faundlenddə keçirəcəkləri görüşə özünü çatdırmaq üçün Moskvanı tərk etdi.Həmin gün o,Ruzveltə və Hellə vurduğu teleqramda yazırdı: «Mənim Stalinlə iki davamlı və yaxşı söhbətim oldu və mən sizə şəxsən mənim vasitəmlə çatdıracaqlarını məlumat verəcəyəm. Lakin artıq indi mən sizə demək istərdim ki,mən bu

[1] Шервуд Р. указ. соч. т.1.М. 1958 с.518

cəbhə barədə çox arxayınam. Əhalinin əhval-ruhiyyəsi xeyli yüksəkdir. Burada qəti olaraq qalib gəlmək əzmi mövcuddur»[1].

R.Şervuz Hopkinsin səfərini Böyük Britaniya və ABŞ-ın müharibə dövründə Sovet İttifaqı ilə münasibətlərində dönüş nöqtəsi»[2] hesab edirdi. 1 avqust 1941-ci ildə Ruzvelt hökumət üzvlərinə bəyan etdi ki, dövlətdepartamenti və hərbi nazirlik Rusiyanın sehrlənmiş dairəyə salıblar. Prezident dedi. Rusiyaya silah göndərmək barədə vəd vermişik, onun ehtiyatları barədə siyahı artıq 5 həftədir ki, bizdədir, lakin, heç nə hətta başlamayıb. Ruzvelt tələb etdi ki, Rusiyaya heç olmasa, simvolik yardımlar edilsin. Bu çətin dövrdə sovet-amerikan yaxınlaşması işində ABŞ Ruzvelt böyük rol oynayırdı[3].

2 avqustda Vaşinqtonda, Umanski ilə Uelles arasında notalar mübadiləsi nəticəsində, 1937-ci il sovet-amerikan ticarət müqaviləsinin müddəti 6 avqust 1942-ci ilədək daha 1 il uzadıldı. Həmin gün tərəflər həm də, yardım məsələləri barədə notalar mübadiləsi apardılar.

4 avqust Stalin, Ruzveltə yazdığı məktubda xahiş edirdi ki, ABŞ hökuməti Finladiyanın Almaniyanın ayrılıb müharibədən çıxmasına yardımçı olsunlar. Bu halda Sovet hökuməti Finlandiyaya bəzi ərazi güzəştlərinə gedə bilər ki, sonuncunu barışdırsın və onunla yeni sülh müqaviləsi bağlasın[4]. Bu əlbəttə ki, SSRİ-yə qarşı 1941-ci ilin,iyununda müharibəyə daxil olmasına, bu müharibə Finlandiyadiya tərəfindən azadlıq müharibəsi idi. Almaniya ilə bir blokda savaşmasına baxmayaraq, fin xalqı öz torpaqlarını azad etmək uğrunda vuruşurdu. Onu da, bəri başdan qeyd edək ki, ABŞ müharibə ərzində Finlandiyanın müharibədən çıxıb SSRİ ilə sülh bağlaması üçün sə'ylər göstəririrdi.

---

[1] Foreign Relations...1941. vol 1.p.814.
[2] Шервуд Р .указ. соч.т.1.с.546
[3] Кузнетц Ю Л указ.соч .с.231
[4] Переписка преседателя Совета министров СССР с президентами США и примьер-министрами Великобританием во время Великой отечественной войны, 1941-1945 гг. 2-е изд. М. 1976.с.5

8 avqustda Umanski və Qolikov 2 aylıq fasilədən sonra öz iş yerinə qayıdan dövlət katibi Hellin qəbulunda olmuş, ona yardım işəlrinin ləng getməsindən şikayətlənmişdir. Hell isə onlara kömək edəcəyini bildirmişdir. Umanski Yaponiyanın SSRİ-yə hücum etməməsi üçün ona xəbərdarlıq edilməsi məsələsini qaldırdıqda, Hell şəxsən bu taktikaya tərəfdar olduğunu, hökümət içində bunu dəstəkləyəcəyini dedi[1].

9-12 avqust 1941-ci ildə Ruzveltlə Çörçill Kanadanın Nyufaundlend adasında görüşüb Atlantika xartiyası adlı sənəd qəbul etdilər. 14 avqustda açıqlanmış həmin sənəd ABŞ və Britaniyanın II dünya müharibəsindəki məqsədlərini şərh edirdi. 8 paraqrafdan ibarət olan bəyannamə, preambulada deyildiyi kimi, B.Britaniya və ABŞ-ın «milli siyasətlərinin bə'zi ümumi prinsiplərini» əks etdirirdi: B.Britaniya və ABŞ «ərazi və başqa nəsə əldə etməyə çalışmırlar»; «əlaqədar xalqların azad şəkildə ifadə olunmuş arzusu ilə razılaşdırılmadan, heç bir ərazi dəyişikliklərinə razı olmayacaqlar»; «bütün xalqların hüququna hörmət edirlər» ki, hər xalq, öz istədiyi idarəçilik formasını seçə bilər və «o xalqların suveren hüquqlarının və özünün idarəsinin bərpasına çalışırlar, hansılar ki, bundan zor yolu ilə məhrum edilmişlər»; bütün ölkələrin dünya ticərətinə və xammal mənbələrinə bərabər dərəcədə çıxışının təmin olunmasına çalışırlar; bütün ölkələr arasında tam iqtisadi əməkdaşlıq əldə olunmasına çalışırlar; müharibədən sonra beynəlxalq münasibətlərdə əbədi sülh yaradılmasına ümüd edirlər; xarici siyasətdə güc prinsipinin tətbiqindən imtinanı zəruri sayırlar; gəmiçilik və dənizçilik azadlıqlarının təmin olunması tərəfində çıxış edirlər[2]. Qeyd edək ki, sonradan bir sıra hökumətlər, o cümlədən sovet hökuməti də bu xartiyaya qoşulduğunu bildirmişdi. Xartiyanın irəli sürdüyü tezislər xoş niyyətli olsalar da, onları bə'zən elə onu qəbul edən dövlətlər də pozurdular.

Atlantika konfransı zamanı həm də Hopkins Moskvaya səfəri barədə hesabat verdi. Hopkinsin çıxışı müttəfiqlərin SSRİ-nin müqavimətinə olan

[1] Советско-американские отношения ...т.1.с.100-101
[2] Dosuments of American History. Ed. By H. Commader № Y 1968 p. 449-451

inamını artırdı. Ruzvelt və Çörçill Stalinə məktub hazırlayıb göndərdilər. 15 avqustda onların səfirləri məktubu Stalinə çatdırdılar. Məktubda təklif edilirdi ki, «ümumi resurslarımızın bölüşdürülməsi məsələsinə dair... Moskvada toplantı hazırlansın, oraya biz yüksək nümayəndələrimizi göndərə bilək ki, onlar da birbaşa Sizinlə müzakirə apara bilsinlər[1]» Stalin səfirlərə dərhal razılığını bildirdi.

15 avqust 1941-ci ildə SSRİ ABŞ-a qızıl verəcəyi öhdəliyi altında ABŞ-dan 10 milyon dollar kredit aldı. Onun əvəzində isə, 16 oktyabr və 5 noyabr 1941-ci ildə ABŞ-a sovet qızılı çatdırıldı. 1941-ci il sentyabrın 12-də ABŞ SSRİ-yə daha 50 milyon dollar borc verdi, o da SSRİ-nin gələcək göndərişlərinin (müharibədən sonra da ola bilərdi) tə'minatı altında. Avqustun sonunda ABŞ-da SSRİ-yə ilk hərbi yüklər göndərildi. Ümumiyyətlə, ABŞ sentyabrın sonunadək SSRİ-yə 59 köhnə tipli qırıcı təyyarə və 500 yük maşını göndərdi. Artıq qeyd edildiyi kimi sovet hökuməti ABŞ hökümətindən Yaponiyaya SSRİ-yə qarşı müharibəyə girməmək Finlandiyaya isə, SSRİ-yə qarşı müharibədən çıxması barədə tə'sir göstərməsini istəmişdi. I məsələyə dair, Ruzvelt Vaşinqtona qayıdan gün-17 avqustda Yapon səfiri admiral Nomuronu yanına çağırmış və xəbərdarlıq etmişdi ki, «əgər Yaponiya Sakit okean bölgəsində yeni təcavüzə əl atarsa, onda ABŞ buna biganə qala bilməz, dərhal cavab tədbirlərinə əl atır» II məsələyə dair, Uelles Ruzveltin tapşırığı ilə, 19 avqustda fin elçisi Prokope ilə söhbət etmiş və ona demişdi ki, «Finlandiyanın Almaniya tərəfindən SSRİ-yə qarşı savaşı davam etdirməsi Finlandiyanın maraqlarına və onun müstəqilliyinə uyğun deyil və gələcək Amerika – Fin münasibətlərinə pis təsir göstərəcək ... Sovet hökuməti ərazi korrektivləri ilə yeni sülh müqaviləsi imzalamağa hazırdır». Bu danışıqlar barədə Uelles 19 avqustda Umanskiyə mə'lumat verdi[2].

---

[1] Советско-американские ... т. 1. С. 102
[2] Там же, т.1. с.104-106

SSRİ-nin 1939-1940-cı illərdə qonşularına təcavüz yolu ilə formalaşdırdığı «qərb sərhədi» məsələsi müharibə illərində SSRİ-ABŞ münasibətlərində öz kəskinliyi ilə durmaqda idi. Lakin, buna baxmayaraq, ABŞ hökuməti SSRİ-nin Almaniyaya qarşı müharibədə yükünü yüngülləşdirmək üçün Finlandiyanın öz ərazilərini alıb SSRİ-yə qarşı müharibədən çıxması üçün sə'y göstərirdi. 8 sentyabr 1941-ci ildə K.Hell də, Prokope ilə bu barədə söhbət etmişdi. 1940-cı ildə Rusiyanın işğal etdiyi əraziləri geri aldıqları münasibəti ilə fin səfirini təbrik edən Hell, fin rəhbərliyini «müdriklik» göstərməyə və Hitlerə birtərəfli ariyentasiyadan əl çəkməyə çağırmışdı.[1] Lakin, alman qoşunları Finlandiya ərazisində olduğundan, fin hökumətinin müharibədən çıxması çox müşkül bir iş idi.

Avqustun sonunda, İrandakı alman təhlükəsini aradan qaldırmaq üçün sovet qoşunları Cənubi Azərbaycan və Xorasana, ingilis qoşunları isə, Cənubi İrana daxil oldular.

11 sentyabrda Ruzvelt ABŞ donanmasına əmr verdi ki, Atlantikada Amerika gəmilərinin batırılmasına cavab olaraq, alman gəmilərinə xəbərdarlıq edilmədən atəş açılsın.

24 sentyabrda Londonda SSRİ, B.Britaniya, Belçika, Çexoslovakiya, Yunanıstan, Polşa, Hollandiya, Norveç, Yuqoslaviya, Lüksenburq dövlətlərinin və «Azad Fransa» təşkilatın iştirakı ilə müttəfiqlər arası konfransın keçirilən zaman, sovet səfiri Mayski sovet hökumətinin Atlantika xartiyasına qoşulmaqla bağlı bəyannaməsini oxudu. Bəyannamədə Hitler faşizminin nə qədər bəşəriyyət üçün təhlükəli olduğu qeyd edilir, bildirilirdi ki, ona qarşı vuruşan «bütün xalqlar və dövlətlərin vəzifəsi ondan ibarətdir ki, təcavüzkarların tezliklə və qəti surətdə darmadağın edilməsinə nail olsunlar, bu məsələnin daha tam həlli üçün özlərinin bütün qüvvələrini, bütün vasitələrini səfərbər verib versinlər, bu məqsədin həyata keçirilməsi üçün daha effektli üsullar və metodlar müəyyənləşdirsinlər». Daha sonra, SSRİ –

[1] Hull C. The Memoirs of Cordell Hull. vol.2. p.978

nin «xalqların suveren hüquqlarına hörmət», «millətlərin özünütəyin etməsi» kimi prinsipləri, «hər xalqın dövlət müsəteqilliyi və öz ölkəsinin ərazi toxunulmazlığı və özünün ... məqsədəuyğun və zəruri bildiyi ictimai qurluş və idarəetmə formasını seçmək hüquqlarını» əsas tutduğu riyakarcasına vurğulanırdı. Sonda qeyd edilirdi ki, bu prinsiplər əsasında sovet hökuməti Ruzvelt və Çörçillin bəyannaməsinin «hazırki beynəlxalq vəziyyətdə böyük əhəmiyyət daşıyan prinsipləri ilə» razıdır[1]. S.B.Krılovun fikrincə, müharibədən sonrakı sülhün təşkili üzrə işin başlanması, öz əsasını 1941-ci il Atlantika xartiyasından və yuxarıdakı Sovet bəyannaməsindən götürür[2].

27 sentyabrda Sovet hökuməti Ş.deQollun «Azad Fransa» təşkilatını tanıdı[3].

29 sentyabr-1 oktyabr 1941-ci ildə Moskvada İngiltərə, ABŞ və SSRİ nümayəndələrinin iştirakı ilə üç tərəfli müşavirədə SSRİ-yə Almaniyaya qarşı savaşda yardım edilməsi məsələləri müzakirə obyekti oldu. Konfransda İngiltərəni Biverbruk, ABŞ-ı Harriman təmsil edirdilər. Hələ 30 avqustda Ruzvelt hərbi nazir Stimsona yazırdı: «Mən, Amerikanın sakitliyi və təhlükəsizliyi üçün müstəsna vacib iş hesab edirəm ki, bütün ağıllı göndərişlər Rusiyaya nəinki indi, həm də o, «ox» dövlətləri ilə effektli mübarizə aparmaqda davıam edəcəyi müddətdə göndərilsin. Mən əminəm ki, bu xarakterli öhdəliklər Rusiyaya qarşıdakı konfransda təqdim edilməlidir».[4]

Siyahıya dair qəti qərarlar Biverburkla Harrimanın 29 və 30 sentyabrda Stalinlə görüşləri zamanı qəbul edilmişdi. Konfransın son günündə, oktyabrın 1-də «SSRİ, ABŞ və B.Britaniya nümayəndələrinin Moskva konfransının gizli protokolu» qəbul edildi. Orada 1941-ci ilin oktyabrın 1-dən – 1942-ci il 30 iyunadək nə qədr yardım ediləcəyi nəzərdə tutulurdu. Protokoldakı sovet sifarişlərinə cavab verərək, Qərb müttəfiqləri SSRİ-yə hər ay 100

---

[1] Внешняя политика Советского Союза... Сб.док.т.1. с.163-166.
[2] Крылов С.Б. Материалы к истории ООН. Вып.I. М., Л. 1949. С. 11-14.
[3] История СССР с древнейших времен до наших дней. Т. 10. М.1973. с. 133
[4] Foreign Relations... 1941 vol. 1. P.826.

bombardmançı təyyarə (hamısı ABŞ-dan), 300 qırıcı təyyarə (100-ü ABŞ-dan), yarısı kiçik və yarısı orta çəkili olan 500 tank (yarısı ABŞ-dan), 200 tanketka (B.Britaniyadan), 200-300 tank əleyhinə tüfəng, 4000 ton alüminium (yarısı ABŞ-dan), 1500 ton qalay (B.Britaniya), 300 ton molibden (ABŞ-dan), 10 ton kobalt (B.Britaniyadan), 3000 ton elektrolit mis (B.Britaniyadan), 1500 ton elektrolit sink (B.Britaniyadan), 1000 ton tanklar üçün zirehli lövhələr, 70 ton nixrom məftil, 4 ton tikanlı məftil, 1250 ton toluol, 20000 ton neft məhsulları, 100 ton fosfor, 400 ton qrafitləşdirilmiş elektrodlar (bütün bunların hamısı ABŞ-dan), 150 min dollarlıq almaz (B.Britaniyadan), 6000 ton kauçuk, 4000 ton cut, 300 ton şellak, 2000 ton yun, 1500 ton kakao-paxla (hamısı B.Britaniyadan), 200 min ton buğda (Kanadadan), 70 min ton qənd (Filippin və Holland Hindistanından), 300 min dollarlıq abrazivlər (ABŞ-dan), bundan əlavə 9 ay ərzində 152 zenit topu (hamısı ABŞ-dan), 1256 tank əleyhinə top (756-sı ABŞ-dan), 5000 kəşfiyyat avtomobili (ABŞ-dan), bunlardan əlavə mümkün olacaq miqdarda telefon aparatları, telefon kabeli, teleqraf kabeli, dəniz kabeli (ABŞ-dan), nikel, bürünc prokatı, maqnit splavları, bimetall, boru və digər mis mə'mulatı, ferrosilitsb, ferroxrom, möhkəm splavlar, kəsici alətlər, müxtəlif növlü poladlar, trinitrotoluol, nitroqliserinli barıt, fenol, etilenqlikol, bromlu natrium, dibutilfalat, dimetilanilin, difinialin, nitrolaklı kolloksilin, metalkəsən dəzgahlar, elektropeçlər, dəmirçi-pres avadanlığı, tikel (seylon) qrafiti, gön, əsgər çəkmələri və s., habelə HDD–na və tibbi təchizata dair predmetlər göndərəcəkdilər[1]. Bu konfrans üç tərəfli sovet-ingilis-amerikan münasibətlərinin inkişafı üçün mühüm bir mərhələ oldu.[2]

3 oktyabrda Stalin Ruzveltə məktubunda yazırdı ki, «mən şübhə etmirəm ki, Siz Moskva konfransının qərarlarının mümükün qədər tez və tam reallaşmasını təmin etmək üçün zəruri olan hər şeyi edəcəksiniz».[3]

---

[1] Советско-амеркаиские... т.1.с.121-126.
[2] История внешней политики СССР. т.1.с. 437.
[3] Переписка... т.2.с.7-8.

30 sentyabr 1941-ci ildə almanların «Mərkəz» ordu qrupu Moskva üzərinə hücuma başladı və 30 oktyabradək 250 km. İrəliləyə bildi. Vəziyyət SSRİ üçün çox gərgin xarakter aldı.

10 oktyabrda ABŞ nümayəndələr palatasında lend-liz qanunu üzrə əlavə 5 milyard dollar ayrılması 328 lehinə, 67 əleyhinə olmaqla qəbul edildi. Müzakirə ərəfəsində H.Fiş düzəliş irəli sürmüşdü ki, SSRİ lend-liz üzrə yardım alıcıları sırasından istisna edilsin. Lakin, ruzveltçi çoxluq buna qarşı çıxdı və düzəliş, 162 səsə qarşı 21 səs olmaqla rəd edildi.[1]

30 oktyabrda ABŞ hökuməti SSRİ-yə lend-liz xətti ilə verilən silahlar və xammal materiallarına ödəmək üçün 1milyard dollar faizsiz borc verdi[2]. Borcun ödənilməsi, müharibə bitəndən 5 il sonra başlayıb 10 il davam etməli idi.

2 noyabrda Ruzvelt Stalinə məktubunda Moskva protokolu üzrə göndərişlərə dərhal başlamağa göstəriş verdiyini, SSRİ-yə 1 milyardlıq borc verildiyini məlumat verir, yazırdı ki, ümid edir ki, «əgər şərait tələb etsə, cənab Stalin onunla birbaşa kontakta girməyi ləngitməyəcək»[3]. Stalin 4 noyabr tarixli cavab məktubunda borcun şərtləri, SSRİ-nin ABŞ-a xammal göndərməsi və şəxsi kontakt yaradılması ilə razılaşdığını bildirirdi.[4] ABŞ-dakı sovet səfiri Umanski geri çağırıldığından, onu əvəz edən müvəqqəti işlər vəkili A.A.Qromıkonu qəbul edən Ruzvelt 1 milyardlıq borc verməsini şərh edərək demişdi ki, «Sovet İttifaqına kömək etməyi özümüzün ən mühüm vəzifəsi hesab edirik»[5].

7 noyabr 1941-ci ildə prezident rəsmən lend-liz qanunun SSRİ-yə aid etdi.[6] Noyabrın əvvəlində SSRİ və ABŞ qırmızı xaç cəmiyyəti (QXC) arasında məktub mübadiləsi ilə, əməkdaşlığın əsası qoyuldu. SSRİ-də R.Skovell başdv olmaqla Amerika QXC-nin missiyası yerləşirdi.

[1] Борисов А.Ю. указ.соч.с.62-63.
[2] Roosevelt and Churchill. Their Secret Wartime Correspondence. N.Y.1975.p.158
[3] Переписка… т.2.с.8-9.
[4] Там же, с.9-10.
[5] Советско-американские…т.1.с.139.
[6] История США т.3. с.339

Eyni zamanda sovet mütəxəssisləri ABŞ hərbi müəssisələrində sərbəstcəsinə olmaq, hərbi texnikanın yeni tipləri, avadanlıq, istehsal texnologiyası ilə tanış olmaq imkanı əldə etmişdilər.[1]

ABŞ-dan SSRİ-yə hərbi yüklər ləng də olsa gəlməkdə isə, 22 noyabr 1941-ci ildə Vaşinqtondakı sovet səfirliyinin ABŞ dövlət departamentinin diqqətini «materiallar və digər yüklər göndərilməsi ilə bağlı vəziyyətin ciddiliyinə» yönəldirdi. 21 noyabrda oktyabr üzrə göndərişlər yük maşınların 37%, təyyarələrdə 30%, tanklarda 43%, «villis» avtomobillərinə dair 27% yerinə yetirilmişdir. Ümumiyyətlə, ABŞ 1941-ci il üzrə SSRİ-yə yardım öhdəliklərinin yalnız 1/4 –min ödəmişdi.[2] Bütünlüklə isə, I protokol (Moskva protokolu) üzrə, 1941-ci ilin oktyabrın 1-dən 1942-ci ilin iyunun 30-dək ABŞ SSRİ-yə 900 bombardmançı və 900 qırıcı təyyarə, 1125 orta və 1125 yüngül tank, 85 min yük maşını və s. göndərməli olduğu halda, faktiki olaraq, SSRİ həmin müddətdə ABŞ-dan almışdı: 267 bombardmançı (öhdəliyin 29,7%-i), 278 qırıcı (30,9%), 368 orta tank (32,3%), 420 yüngül tank (37,3%), 16502 yük maşını (19,4%) və s.[3] Əgər 1941-ci ildə göndərişlərin yetərsizliyi qismən ABŞ-ın istehsal imkanlarının məhdudluğu ilə bağlı idisə, 1942-ci ilin I II yarısından tonnaj və konvoy problemləri üzə çıxmışdı. Bundan savayı, ABŞ-da SSRİ-yə yardım edilməsini istəməyən qüvvələr vardı.

Sovet-alman cəbhəsində əməliyyatların gedişi əvvəlki kimi ABŞ rəhbərliyinin diqqətində idi. Səfir Şteynqard isə, sentyabrda 4 dəfə XXİK-na müraciət etmişdi ki, səfirlik daha təhlükəsiz yerə göçürülsün. Nəticədə ABŞ səfirliyi də, bir sıra sovet idarələri və səfirlikləri kimi, Kuybışevə köçürülmüşdü. Şteynqardt sovet rəhbərliyinin gözündən düşmüşdü. Bu barədə Harriman da, prezidentə məlumat vermişdi. Belə olan halda, noyabrda Şteynqardt geri çağırıldı.

[1] Борисов А.Ю.указ.соч.с.65
[2] Leighton R. Coakley R. Global Zogistics and Strategy, 1940-1943. Washington,1955. P.115
[3] История внешней политики СССР. Т.1.с.439

Alman ordusu 15-18 noyabr 1941-ci ildə Moskva üzərinə yeni hücuma keçdi və şimal və cənub istiqamətlərində şəhərə müəyyən qədər yaxınlaşa bildi. Lakin, əlavə qüvvələrin gəlməsi hesabına alman hücumu dayandırıldı və 5-6 dekabrda hücuma başlayan sovet orduları 1942-ci ilin yanvarın əvvəli üçün Moskva ətrafında 100-250 km. qərbə doğru irəlilədilər.[1] Moskva vuruşmasından böyük əhəmiyyəti vardı. Hitler Almaniyası ilk dəfə idi ki,belə böyük miqyasda məğlubiyyətə uğrayırdı.

1941-ci ilin dekabrı həm də Yaponiyanın Pyörl-Harbora hücumu və ABŞ-ın rəsmən II dünya müharibəsinə çıxması ilə əlamətdar oldu. Hələ 1941-ci ilin yazında Vaşinqtonda K. Hell yapon səfiri Nomura ilə danışıqlar aparırdı. Aylarla sürən danışıqlar heç bir nəticə vermədi. F.D.Vokov bunu «tərəflər arasındakı ziddiyətlərin çox barışmaz olması» ilə izah edir.[2]

Beləliklə, 7 dekabr 1941-ci ildə Yaponiya ABŞ-ın Havay adalarındakı Pyörl-Harbor hərbi-dəniz bazasının güclü zərbə endirdi. 8 dekabrda Ruzveltin çağırışı ilə konqres Yaponiyaya müharibə elan etdi. ABŞ-ın ardınca B.Britaniya və dominionları, Çin, Latın Amerikası ölkələri də Yaponiyaya müharibə elan etdilər. 11 dekabr 1941-ci ildə Almaniya və İtaliya ABŞ-a müharibə elan etdilər. Öz növbəsində ABŞ-da onlara müharibə elan etdi. ABŞ-ın II dünya müharibəsinə daxil olması nəticəsində strateji vəziyyət antafaşist qüvvələrinin xeyrinə dəyişdi. SSRİ və ABŞ arasında məqsədlərin və maraqların ümumiliyi artdı.[3] Sakit okeanda və Cənubi- Şərqi Asiyada geniş hücuma başlayan Yaponiya, ABŞ-a məxsus Ueyk və Quam adalarının tutdu, Fillipinə qoşun çıxardı, Tailandı zəbt etdi. 25 dekabrda Hakonqu, daha sonra Malayyanı tutan yaponlar 15 fevral 1942-ci ildə Sinqapuru ələ keçirdilər.

ABŞ hökuməti Yaponiyaya qarşı yğyrly müharibə aparmaq üçün SSRİ-nin də bu işdə müəyyən iştirakını vacib sayırdı. 8 dekabrda yeni təyin

---

[1] Вторая мировая война: краткая история. М.1984.с. 151-157.
[2] Волков Ф.Д. указ.соч. с.147.
[3] Борисов А.Ю. указ. соч. с. 70

olunmuş sovet səfiri M.Litvinov öz e'timadnaməsini Ruzveltə təqdim edərkən, prezident ABŞ bombardmançılarının Maniladan çıxıb Yaponiyanı bombaladıqdan sonra Vladivostokdan bomba ehtiyatı götürüb geri qayıtması məsələsinin müzakirəsini təklif etmişdi.[1] Hell də öz növbəsində, Litvinov qarşısında məsələ qaldırmışdı ki, sovet Uzaq Şərqində ABŞ HHQ-nə bazalar verilsin ki, onlar oradan Yaponiyanı bombalasınlar.[2] Bu məsələ barədə Moskvaya sorğu göndərən Litvinov, 11 dekabrda Moloğovdan teleqram aldı ki, sovet hökuməti Yaponiya ilə birtərəflik paktı bağladığından və Almaniya ilə ağır müharibə apardığından, indiki halda Yaponiyaya qarşı çıxa bilməz.[3] Həmin gün Litvinov bu məlumatı Ruzveltə və Hellə çatdırdı. Ruzvelt bu qərara görə təəsüflənsə də, dedi ki, sovet hökümətinin yerinə olsaydı, o da belə edərdi. Ruzvelt təklif etdi ki, sovet höküməti Yaponiyaya münasibətdə bitərəf qalacağı qərarını açıq şəkildə bəyan etməsin ki,SSRİ sərhədinə daha çox yapon qüvvəsi toplaşsın. O, hətta Litvinovdan xahiş etdi ki, Hell ilə birgə kommunike verərək bildirsin ki, sovet höküməti «istənilən vaxt Yaponiyaya dair istənilən qərar qəbul edə bilər». Lakin, Litvinov bu təklifi də rədd etdi[4]. Həmin gün Litvinovla görüşən Hell ona demişdi ki, «əgər Rusiya, biz ona Avropada kömək göstərdiyimiz zaman, bizimlə Uzaq Şərqdə əməkdaşlıqdan çəkinsə, onda tənqidlər artacaq ki, biz ona bizim hamımıza toxunan dünya hərakatına qarşı kömək edirik, amma Rusiya bizimlə Şərqdə əməkdaşlıq etmir»[5].

Ruzvelt Stalinə məktubunda 17 dekabrda Çuntsində Çin, B.Britaniya, Hollandiya və ABŞ nümayəndələrinin konfransına sovet tərəfini də də'vət etməsinə cavab olaraq, Stalin mənfi cavab vermişdi[6].

ABŞ və İngiltərə rəhbərliyi yeni yaranmış hərbi-siyasi vəziyyəti müzakirə etmək üçün 22 dekabr 1941-ci ildən 14 yanvar 1942-ci illədək

---

[1] Советско-американские...т.1.с.143
[2] Hull C. Op.cit.vol.2.p.1111-1112
[3] Советско-американские... т.1.с.144.
[4] там же, с.145.
[5] Hull C. op. cit. vol. 2.p.1113.
[6] Переписка... т.2.с.

Vaşinqtonda konfrans keçirdilər. Konfransın gedişi zamanı, 1 yanvar 1942-ci ildə Vaşinqtonda 26 dövlətin imza atdığı Birləşmiş Millətlər bəyannaməsi qəbul edildi. Sonradan beynəlxalq təşkilat adına çevrilmiş «Birləşmiş Millətlər» termini Ruzveltin təklifi idi[1].

Beləliklə, 1 yanvar 1942-ci ildə Bəyannamə imzalandı. Orada deyilirdi: «ABŞ, B.Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, SSRİ, Çin, Avstraliya, Belçika, Kanada, Kosta-Rika, Kuba, Çexoslovakiya, Dominikan respublikası, Salvodor, Yunanıstan, Qvatemola, Haiti, Honduras, Hindistan, Lüksenburq, Niderland, Yeni Zellandiya, Nikaraqua, Norveç, Panama, Polşa, CAİ və Yuqoslaviyanın ümumi bəyannaməsi.

Bu Bəyannaməni imzalayan hökümətlər... bildirdilər:

1.Hər bir hökümət öhdəliyinə götürür ki, öz bütün hərbi və iqtisadi resurslarını 3-lər paktının üzvlərinin və ona qoşulmuşların hansı ilə ki, həmin hökümət müharibə edir, ona qarşı tətbiq edəcək.

2.Hər bir hökümət, bu Bəyannaməni imzalamış hökümətlərlə əməkdaşlıq etməyi və düşmənlərlə seperat barışıq və ya sülh bağlamağı öhdəsinə götürür.

Yuxarıdakı Bəyannaməyə Hitlerizm üzərində qələbə naminə mübarizəyə maddi yardım edən və ya edə biləcək və təsir göstərən və göstərə biləcək millətlər də, qoşula bilərlər».[2]

ABŞ və Britaniya rəhbərlərinin Vaşinqton konfransında (22.XII.1941-14.I.1942) Avropada II cəbhə açılıb-açılmaması məsələsinə toxunuldu. Bu məsələni, 1941-ci il 12 iyulda sovet-ingilis müttəfiqlik sazişi başlandıqdan sonra hələ 1941-ci ilin 18 iyul və 3 sentyabrında Stalin Çörçillə göndərdiyi məktublarda qaldırmış, lakin Çörçill 21 iyul və 6 sentyabrda bunnu mümkün olmadığını bildirmişdi. Qeyd edək ki, həmin məktublarda Stalin II cəbhə açmaq dedikdə, bunu Şimali Fransada, Norveçdə və ya Balkanda etməyi

---

[1] Яколев Н.Н. указ.соч. с.340.

[2] Сборник действующих договоров, соглашений и конвенций, заключенных СССР с иностранными государствами. Вып. XI. М.1955.с.44-45

nəzərdə tuturdu.[1] Lakin, sovet rəhbərliyi sonradan, 1942-1943-cü illərdə «Avropada II cəbhə açmaq» dedikdə bunu yalnız Qərbi Avropada (Şimali Fransada, ola bilsin ki, Hollandiya və ya Belçikada) etməyi nəzərdə tuturdu.

ABŞ müharibəyə girdikdən sonra, bu məsələ xüsusilə aktuallaşdı. Çörçill və onun strateqləri Vaşinqton konfransında təklif etdilər ki, Almaniya ətrafında Arxangels-Qara dəniz, Aralıq dənizinin şimal sahili və Avropanın qərb sahili boyunca mühasirə yaradılsın. İngilislərə görə, bu nəhəng perimetrdə ən zəif halqa Şimali Afrika olduğundan orada 1942–ci ildən hücum əməliyyatı keçirmək təklif olunurdu.[2] Lakin, Amerika hərbi nümayəndələri-H.Stimson, C.Marşall, H.Arnold, D.Eyzenhauer, Britaniya adlarına qüvvələr toplayaraq, Qərbi Avropada II cəbhə açmağı təklif edirdilər. Ruzvelt özü isə, Amerika qoşunlarının «haradasa Atlantik okeanının o tayında aktiv hərbi əməliyyatlarda» iştirak etməsini istədiyini demişdi[3]. Sonda, ingilis planı qəbul edildi.

Konfransın qərarına əsasən, 1942-ci ildə yeganə hücum əməliyyatı kimi Amerikanın şimal sahələrinin ələ keçirilməsi nəzərdə tutulurdu. Qeyd olunurdu ki, «az ehtimallıdır ki, sovet-alman cəbhəsindən başqa, 1942-ci ildə haradasa Almaniyaya qarşı iri yerüstü hücum əməliyyatları keçirmək mümkün olsun» daha sonra bildirilirdi ki, «1943-cü ildə Aralıq dənizi vastəsilə, Türkiyədən Balkana daxil olmaq və ya qərbi Avropaya qoşun çıxarmaq yolu ilə kontinentə daxil olmaq üçün əlverişli şərait yaranacaq[4].»

Ümumiyyətlə, II cəbhə məsələsi 1942-1943-cü illərdə SSRİ-ABŞ-İngiltərə münasibətlərində ən böyük problemlərdən biri idi. Faktların gstrdiyicə, ABŞ siyasi və hərbi rəhbərliyi həmin illərdə tə'cili surətdə II cəbhə yaradılmasına tam razı idi. Lakin, həm Çörçill başda olmaqla ingilis rəhbərliyinin əvvəlcə Şimali Amerika ələ keçirib, sonra Avropaya cənubdan daxil olmaq planı səbəbindən, həm də Yaponiya təcavüzü nəticəsində

[1] Переписка… т.1.с.19-22
[2] Мэтлофф М., Снелл Э. Стратегическое планирования в коалиционной войне, 1941-1942. М.1955. с.118-119.
[3] Там же, с. 124.
[4] Батлер Дж. , Гуайер Дж. Большая стратегия. Июнь, 1941-август, 1942 М. 1967.с.506-509

müttəfiqlərin iri qüvvəlrinin Sakit okeana cəlb olunması səbəbindən, bu mümkün olmadı.

II cəbhə məsələsi, getdikcə, SSRİ-ABŞ münasibətlərinin aparıcı mövzusuna çevirməkdə idi. 28 fevral 1942-ci ildə ABŞ ordusu qərargah rəisinin müavini general D.Eyzenhauer bildirdi ki, «biz, gərək ingilislərlə birgə dərhal Avropanın şimal-qərbində hərbi əməliyyat keçirmək planı hazrlayaq[1]». Eyzenhauerin fikri, 6 martda Birləşmiş Strateji Planlaşdırma komissiyasında dəstəkləndi.

Ruzvelt 12 martda Litvinovu çağırıb bildirdi ki, o, inglislərə II cəbhənin açılması, əgər bu mümkün deyilsə, Almaniyanın bombalanmasını gücləndirmək üçün təzyiq edir. Prezident dedi ki, «gərəkdir ki, İngiltərəyə yenə amerikan qoşunları göndərilsin, lakin, əngəl tonkatadadır. İndiki tonkat vəziyyətində, ildə 300 mindən çox qoşun göndərilə bilməz, bu da ki, açıq-aşkar yetərsizdir». Litvinov XXİK-na vurduğu teleqramda qeyd edirdi ki, Ruzvelt hər söhbətdə olduğu kimi bu dəfə də, Stalinlə görüşmək istədiyini dedi[2].

25 martda Ruzvelt Avropaya qoşun çıxarmaq planı hazırlamaq barədə göstəriş verdi, ABŞ ordusu qərərgah rəisi general Ç. Marşall aprelin 1-də bu barədə Ruzveltə memorandum verdi və prezident onu təsdiq etdi. Plana əsasən, 1943-cü ilin yazında 30 amerikan və 18 ingilis dviziyasının, 3250 amerikan və 2550 ingilis təyyarəsinin iştirakı ilə Şimali Fransada, Havrla Bulon arasında II cəbhə açılmalı idi. («Raundan» əməliyyatı). Qeyd olunurdu ki, əgər rus cəbhəsində çox əlverişsiz şərait yaranarsa və Rusiyanın məğlubiyyəti təhlükəsi meydana çıxarsa və ya Almaniyanın Qərbi Avropadakı vəziyyəti keskin surətdə pisləşərsə, 1942-ci ilin sentyabr-oktyabrında Şimali Fransaya 6-8 diviziya çıxarmaqla II cəbhə açıla bilər ("Slechemmer" əməliyyatı)[3]

---

[1] Мэтлофф М., Снелл Э. Указ. соч. с.124.
[2] Советско-Американские …т.1 с. 156
[3] Батлер Дж., Гуайер Дж. указ. соч.с. 512-518; Мэтлофф М.,Спелл с. указ.соч.с.215-216

Ruzveltin və ümumiyyətlə ABŞ rəhbərliyinin II cəbhə məsələsinin qabartmasının bir neçə səbəbi vardır: I-si o idi ki, Vaşinqton strateqlərini belə bir məsələ düşündürürdü ki, Rusiya Hitlerlə separatçı sülh bağlayacaqmı? Kəşfiyyat mə'lumatlarından birində deyilirdi: «tərəflərdən heç birinin sür'ətli və tam qələbəyə əmin olmadığı vəziyyətdə, hər ehtimala qarşı, danışıqlar nəticəsində rus-alman sazişinə gətirib çıxaracaq».[1] Vaşinqtonda qorxurdular ki, Rusiya müharibədən çıxar və bununla da ümumi antifaşist cəbhəsinə böyük zərər dəyər. Həm də, bu ehtimal onunla güclənirdi ki, Qərb müttəfiqləri tokat və konvoy çətinlikləri üzündən, özlərinin SSRİ-yə yardım öhdəliklərini tam yerinə yetirə bilmirdilər. Gəmilər İslandiya və İngiltərəyə yığılaraq, Murmansk və Arxangelskə gəlmək üçün konvoy gözləyirdilər. 1942-ci ilin yanvar-fevralında İngiltərə və ABŞ-ın ümumi göndərişləri bir qədər artsa da, onlar müqavilə öhdəliklərinin 50%-ni ötmürdülər.[2] 1942-ci ilin fevralında Ruzvelt SSRİ-yə əvvəlki şərtlərlə daha bir milyard dollar borc versə də, bütünlükdə SSRİ-yə yardım işləri heç də yaxşı getmirdi. Digər tərəfdən isə, ABŞ höküməti Almaniyanın 1942-ci ilin yazında SSRİ-yə qarşı hücumu bərpa edəcəyinə dari mə'lumata malik idi. Beləliklə, Qərb müttəfiqlərinin yardımlarının yetərsizliyi və güclü Alman hücumu Rusiyanın müharibəni separatçı sülhlə tərk edəcəyi şübhələrini artırırdı. Ona görə də, Ruzveltin II cəbhə barədə təklifi, müharibənin gedişinin çətin məqamında Rusiyanı cəsarətləndirmək arzusundan irəli gəlirdi.[3]

İkincisi, ABŞ-da ikinci cəbhənin açılması lehinə ictimaiyyətin səsləri ucalmaqda idi.[4] Həm də nəzərə alaq ki, 1942-ci ilin noyabrında konqresə seçkilər gözlənilirdi. Bu baxımdan II cəbhə məsələsini gündəliyə gətirməklə, Ruzvelt öz partiyasının nüfuzunu qaldırmaq istəyirdi. Həm də, Amerika ictimaiyyəti artıq təcridçi mövqelərdən xeyli uzaqlaşmışdı. Əgər, müxalif respublikaçılar partiyası 1940-cı il seçkilərinə Ruzveltin ölkəni müharibəyə

---

[1] Шервуд Р.указ.соч.т.2.с.82-83
[2] Кузнец Ю.Л. указ.соч.с.244
[3] Divine R Roosevelt and World War II. Baltimore, 1972p.85
[4] Земсков И.Н. дипломатическая история второго фронта в Европе.М.1982.с.56-57

sürükləməkdə ittiham edərək gedirdisə, həmin partiya 1942-ci il seçkilərinə hökuməti enerjili şəkildə vuruşmağa görə ittiham edərək gedirdi. Elə təkcə bu fakt təcridçiliyin nə qədər iflasa uğradığını göstərir.

Rus tarixçisi A.Y.Borisov daha bir səbəb irəli sürür. Onun fikrincə, «Vaşinqtonda belə düşünürdülər ki, II cəbhə məsələsini sovet qərb sərhədini tanımaq məsələsi ilə əlaqələndirsinlər».[1] Söhbət ondan gedir ki, İngiltərə «qərb sərhədi» məsələsində ABŞ-a nisbətən yumşaq mövqe tuturdu. ABŞ isə, haqlı olaraq, SSRİ-nin «qərb sərhədini» tanımırdı və İngiltərəyə də bunu etməməyi məsləhət görürdü. 1941-ci ilin dekabrında, İngiltərə xarici işlər naziri A.İdenin Moskvaya səfəri öncəsində sovet hökuməti bu məsələni İngiltərə qarşısında qaldırdıqda, K.Hell A.İdenə məktub yazaraq, ərazi məsələsində «ruslara güzəştə getməməyə» çağırmışdı. Vaşinqton konfransında SSRİ-nin «qərb sərhədini» tanımaq barədə sovet hökumətinin tələbləirinin Atlantika xartiyasına zidd olduğu qeyd edilsə də artıq 1942-ci ilin fevralında ingilis hökuməti sovet «qərb sərhədini» tanımağa meylləndi.

Çörçill Ruzveltə 7 mart məktubunda xahiş edirdi ki, Amerika tərəfi sovet qərb sərhəddini tanımaq barədə müqavilə imzalanmasına razılıq versin[2]. Lakin, Ruzvelt mənfi cavab verdi.

17 martda Litvinovu qəbul edən Ruzvelt ona dedi ki, Baltikyanı, Bessarbiya və Bukovina məsələlərindən narahatdır (sovet hökuməti 1941-ci ilin iyulunda Polşadan tutduğu əraziləri qaytaracağına dair və'd etdiyindən, qərb sərhədi məsələsində hələlik Polşa probleminə toxunulmurdu). O, qeyd etdi ki, mahiyyətcə onun sovet tərəfi ilə heç bir fikir ayrılığı yoxdur, o, SSRİ-nin müharibədən sonra arzu etdiyi sərhədlərlə bağlı heç bir əngəllər görmür. Lakin, gizli müqavilə bağlanması onda be'zi əndişələr yaradır. Məsələ arzuolunmaz diskussiya yarada bilər və prezidentə Atlantika xartiyasını xatırlada bilərlər[3].

---

[1] Борисов А.Ю. указ.соч.с.91
[2] Roosevelt and Churchill. Theti Secret Wartime Corespandence p.186
[3] Советско-американские ... т.1.с. 155

A.Y.Borisov yazır ki, «prezidentin fikrincə ABŞ-ın II cəbhə açmaq və'di Sovet İttifaqının sərhəd məsələsinin həllinə marağını zəiflədəcəkdi[1]» .

Beləliklə, istər ABŞ, istərsə də, İngiltərə, Rusiyanı qarşıda çətin bir savaş dövrü gözlədiyini bildirdilər və onu müharibədə saxlamağa çalışırdılar. Bunun üçün edilən maddi yardımlar yetərli olmadığından, amerikanlar bu boşluğu II cəbhə açmaqla, ingilislər isə, «qərb sərhədini» tanımaqla kompensasiya etmək istəyirdilər. Lakin, iş elə gətirdi ki, əvvəlcə ingilislər ABŞ-ın tə'siri ilə «qərb sərhədini» tanımağı tə'xirə saldılar, sonra isə, amerikanlar İngiltərənin tə'siri və zəruri imkanlar olmadığından, II cəbhə açmağı tə'xirə saldılar.

Ruzvelt «qərb sərhədi», II cəbhə, yardım və s. məsələləri, ümumiyyətlə SSRİ-ABŞ münasibətlərini şəxsən Stalinlə birbaşa danışıqlarda müzakirə etmək istəyirdi. O, bu barədə dəfələrlə Litvinova mə'lumat vermişdi.Lakin, tərəflər yer barədə razılığa gəlmədiklərindən, görüş baş tutmadı. Belə olduqda, Ruzvelt 12 apreldə Stalinə çatdırılmış məktubunda ABŞ silahlı qüvələrinin sovet cəbhəsindəki «kritik vəziyyəti yüngülləşdirmək üçün istifadə olunması ilə əlaqədar çox mühüm hərbi təklifə»malik olduğunu yazaraq, xahiş etdi ki, danışıqlar üçün Molotov və bir inanılmış general Vaşinqtona göndərilsin[2].

Molotov 13 apreldə Litvinova teleqramında səfirin Ruzveltdən konkret hansı məsələnin müzakirə ediləcəyini soruşmasını istədi. Litvinov 14 apreldə Ruzveltlə görüşərək bu məsələni onun qarşısında qaldırdı. Ruzvelt cavabında dedi ki, sentyabr ayında Fransaya qoşun çıxarmaqla II cəbhənin açılması barədə məsələni nəzərdə tutur və ingilislərlə razılaşmaq üçün Hopkins və Marşallı londona göndərib, lakin, plan hələ İngiltərə tərəfindən dəstəklənməyib[3].

---

[1] Борисов А.Ю. указ. соч. с.92.
[2] Переписка… т.2.с. 17-18
[3] Советско-американские .. т. 1.с. 162-163

20 apreldə Stalin Ruzveltə göndərdiyi məktubda «II cəbhənin yaradılması barədə fikir mübadiləsinin keçirilməsi üçün» Molotovun ABŞ-a göndərrələcəyinə razılıq verdi, bildirdi ki, Molotov həm də, Londonda olacaq[1].

Digər tərəfdən, 1942-ci ilin aprelində Ruzvelt ingilis hökumətinin II cəbhə barədə razılığını almaq üçün Hopkinslə Marşalı Londona göndərmiş və onlar orada 8-14 apreldə danışıqlar aparmışdılar. Hələ 3 apreldə Ruzvlt Çörçilə yazırdı ki. «sizin xalqınız və mənim xalqım tələb edirlər ki, ruslara təzyiqi azaldacaq II cəbhə açılsın və bu xalqlar yetərincə müdridirlər başa düşsünlər ki, ruslar bu gün daha çox alman öldürürlər və daha çox sursat məhv edirlər, nəinki siz və mən birlikdə götürüldükdə[2]» lakin, London danışıqlarında 1943-cü ildə II cəbhə açılması barədə qərar qəbul edilsə də, 1942-ci ildə belə bir əməliyyat keçirilməsi barədə qəti qərara gəlmək mümkün olmadı.

21 apreldə Litvikovu qəbul edən Ruzvelt ona Marşall və Hopkinsin missiyasının uğursuz olduğunu bildirərək, demişdi ki, «ingilislər II cəbhə açılmasını 1943-cü ilə tə'xirə salmaq istəyirlər, amerikanlar isə, indi açılmasında israr edirlər». Buna görə də, prezident istəyirdi ki, Molotov qayıdarkın Londonda dayansın, həm də ABŞ adından danışıb İngiltərəyə ikiqat tə'sir etsin.

Prezident, səfirə habelə, şimal yolunda alman döyüş gəmilərinin olması səbəbdən konvoy məsələsinin çətinləşdiyini, İslandiyada 50 gəminin yığışdığını bildirmişdi[3].

Həqiqətən də, şimal yolu ilə yüklərin çatdırılması, konvoylaşdırma səbəbindən, xeyli çətinləşmişdi. 23 apreldə Litvinov XXİK-na teleqram vurdu: «Honkins Londondakı Harrimandan konvoylaşdırma barədə çox həyəcanlı xəbər alıb. İslandiyada yığılmış gəmilərin sayı tezliklə 100-ə çatacaq.. beləliklə, biz alternativ qarşısında dururuq: ya yüklənmə dayandırılacaq, ya

[1] Переписка... т.2.с. 18-19
[2] Roosevelt Churchill. Theit secret Wwartime... p.202
[3] Советско-американские .. т. 1.с. 164-165

da İran körfəzinə göndərişləri gücləndirmək[1]». 25 apreldə Molotov Litvikova teleqramında İran körfəzinə ayda 15-20 gəmi göndərilməsinə razı oduqlarını bildirdi. 30 apreldə Litvinov XXİK-na teleqramında mə"umat verirdi ki, ABŞ-da tıxacın ləğvindən, gəmilərin göndərilməsi dayandırılıb. Honkins səfirə İran körfəzinə yüklər göndəriləyəcəyini bildirib[2]. 3 mayda Litvikov mə'lumat verirdi ki, prezidentin sə'ylərinə baxmayaraq, ingilislər yolda olandan savayı, mayda yalnız 25-35 gəmiyə 2 konvoy verəcəklər, ilk növbədə təyyarələr, tanklar, döyüş ləvazimatı və ehtiyat hissələri göndəriləcək.

Qəribədir ki, Stalin mart ayında SSRİ-yə gəlmiş yeni ABŞ səfiri Stendlinin təyyarələri Alyaska-Sibir aviaxətti ilə göndərmək üçün təklifini rədd etmişdi. Görünür, sovet rəhbərliyi Yaponiya ilə münasibətləri korlamaqdan ehtiyat edirdi.

Həmin dövrdə Ruzvelt SSRİ-yə yardımların azaldılması üçün sə'ylər göstərirdi. O, 27 apreldə Çörçillə yazırdı: «Biz yüklərimizi göndərmək üçün böyük səylər göstərməliyik Fövqəladə hallar istisna olmaqla, onların qarşısının alınması mənə ciddi səhv kimi görünür... Mənə elə gəlir ki, Stalinə hal-hazırda hər hansı bir səbəbdən göndərişlərin dayandırılması barədə istənilən mə'lumat vermək ən əlverişsiz nəticəyə səbəb olacaq[3]»

Ruzvelt 4 mayda Ctalinə məktubunda bildirirdi: «Biz, şimal marşurutunda konvoyla bağlı ciddi çətinliklər çəkirik... Lakin, siz əmin ola bilərsiniz ki, bacardıqca daha çox gəmi göndərmək üçün bütün sə'ylər göstəriləcək[4]» lakin, şimal yolu ilə yüklərin göndərilməsi getdikcə daha çətin xarakter alırdı.

Belə şəraitdə, 20 may 1942-ci ildə Molotov general-mayor F.İ.İsayevlə birgə, II cəbhə məsələsini müzakirə etmək üçün Londona gəldi. Danışıqlar zamanı Çörçill rus ordularına kömək etməyin zəruriliyini qeyd etsə də, desant gəmilərinin çatışmazlığı və alman aviasiyasının qüvvəsini əsas

[1] Советско-американские .. т. 1.с. 165-166
[2] Там же, с. 172-173
[3] Roosevelt and Churhill . theii secret Warime…p.210
[4] Переписка…т.2.с.19

götürərək, bunun 1942-ci ildə edilməsinin qeyri mümkünlüyünü dilə gətirdi[1]. Hər iki tərəf razılaşdılar ki, Ruzveltlə danışıqlardan sonra sovet nümayəndə hey'əti Londona qayıdacaq ki, bu məsələni qəti surətdə müzakirə etsinlər[2].

Həmçinin, 21-26 may London danışıqlarında ingilis hökuməti ABŞ-ın tə'siri üzündən , sovet «qərb sərhədini» yenə də tanımadı. 26 may 1942-ci ildə SSRİ ilə B.Britaniya arasında 12 iyul 1941-ci il müqaviləsini əvəz edən «Hitler Almaniyası və onun Avropadakı tərəfdaşlarına qarşı müharibədə müttəfiqlik və müharibədən sonra əmkdaşlıq və qarşılıqlı yardım haqqında» müqavilə imzalandı.

29 mayda Molotov Vaşinqtona gəldi. Onun səfəri məxfilik şəraitində keçirdi. Sovet hökuməti lazım bilmişdi ki, Molotovun səfəri barədə mətbuatda öncədən xəbər verməsin. Təhlükəsizlik baxımdan, Molotov uydurma «cənab Braun» adı ilə hərəkət edirdi. Yalnız səfər bitdikdən sonra onun haqqında mə'lumat verildi[3].

29 mayda Molotov Ruzveltlə söhbətində SSRİ-nin «qərb sərhədi», müharibədən sonrakı vəziyyət və II cəbhə məsələləri müzakirə edildi. Nahardan əvvəlki söhbətdə Molotov Ruzveltə bildirdi ki, ingilis hökuməti Ruzveltin SSRİ-nin «qərb sərhədi» barəsindəki mövqeyinə istinad edərək, sovet-ingilis müqaviləsindən sərhəd barədə maddəni çıxarıb, lakin, sovet hökuməti «sərhəd məsələsində öz əvvəlki mövqeyində qalır». Ruzvelt cavab verdi ki, Amerika ictimai rə'yini nəzərə alaraq, o, həqiqətən də, müqavilədə sərhəd məsələsinin xatırladılmasını istəməyib. O, hesab edir ki, bu da hələ yetişməyib.

Sonra Ruzvelt, söhbəti əsasən müharibədən sonra sülhün tə'min olunması məsələsi üzərində qurdu. O, dedi ki, yaxın 25-30 il ərzində müharibə baş verməsinə mane olmaq üçün 3-4 dövlətdən ibarət beynəlxalq polis qüvvəsi yaratmaq lazımdır. «Polis qüvvəsi, tərkibində ABŞ, İngiltərə,

[1] Волков Ф.Д.указ. соч. 150
[2] Земсков И.Н. указ.соч. с.72
[3] Борисов А.Ю. указ. соч. 88

SSRi və Çin olmaqla təşkil edilməlidir... Bu plan barədə Stalinə çatdırın» Molotov soruşduqdan sonra, Ruzvet qeyd etdi ki, polis gücü tərkibinə gələcəkdə Fransanın da daxil edilməsi istisna edilmir. Molotov dedi ki, bu layihə «böyük və mühüm məsələdir. Bizim ölkədə layihəyə böyük diqqətlə qarşılanacaq»[1]. Göründüyü kimi, bu söhbətdə BMT-nin gələcək təhlükəsizlik şurasının konturları cızılırdı.

Həmin gün nahardan sonrakı söhbətdə II cəbhə məsələsi müzakirə obyekti oldu. Ruzvelt dediki; Bütün hazırlıqlar 1943-cü ildə başa çatdırıla bilər» Lakin, Ruzvelt həm də bildirdi ki, 1942-ci ildə Fransaya 6-10 diviziya çıxarmaq riskinə də getmək olar.

Molotov Ruzveltin 6-10 diviziya çıxarmaq təklifini yetərli hesab etmədi[2].Qeyd edək ki, Molotov həm Çörçillə, həm də Ruzveltə bildirdi ki, II cəbhə mütləq 40 alman diviziyasını sovet cəbhəsindən ayırmalıdır. Bu isə, mümkün olan məsələ deyildi. Çünki, əgər lap II cəbhə açılsaydı da, Hitlerin oraya göndərmək üçün Qərbi Avropada və Almaniyada yetərincə qüvvəsi var idi.

30 mayda Ruzvelt Marşallın və admiral Kinqin iştirakı ilə Molotovu yenidən qəbul etdi. Ruzvelt sovet-alman cəbhəsində vəziyyətin əlverişsiz olduğunu öz hərbçilərinə bildirərək, əlavə etdi: «məqsəd odur ki, sovet-alman cəbhəsindən 40 diviziyanı ayırmaq üçün əməliyyat keçirək və bunu 1942-ci ildə etməyə cəhd edək. Hətta əgər nəzərdə tutulmuş əməliyyatın perspektivləri şübhəli olsa belə, biz bunu keçirməliyik». Marşall cavabında dedi «Əgər bütün hazırlıq işləri bu il uğurla başa çatsa, onda, II cəbhənin 1942-ci ildə açılması mümkün olar.. II cəbhənin 1942-ci ildə açılması üçün mümkün olan hər şey edilir..» Amerikanın silahla təchiz edilmiş və yaxşı tə'lim keçmiş qoşunu var... Lakin, bu qoşunların İngiltərəyə və boğaz vasitəsilə Avropaya çatdırılmasında çətinliklə var».[3] Söhbətin Amerika

[1] Советско-амеркансkие...т.1.с. 175-178
[2] Там же...т.1.с. 178-179
[3] Там же, 1.с.181-185

yazısında qeyd edilir ki, «prezident general Marşalldan soruşdu ki, işlərin vəziyyəti yetərincə aydındırmı ki, biz cənab Stalinə ikinci cəbhə hazırladığımızı deyə bilək? General «bəli» deyə cavab verdi. Bundan sonra prezident cənab Molotova bildirdi ki, cənab Stalinə mə'lumat versin ki, biz ikinci cəbhənin bu il yaradılmasını gözləyirik».[1]

31 mayda Molotovka danışıqları barədə Çörçillə məktub yazan Ruzvelt qeyd edirdi ki, indi həmişəkindən daha çox 1942-ci ildə qoşun çıxarılmasına başlanmasını istəyir və onun xüsusi arzusu budur ki, Molotov «öz səfərindən hansısa real nəticələrlə qayıtsın və Stalinə uğurlu hesabat versin».[2]

1 iyunda Molotovka yenidən görüşən Ruzvelt bildirdi ki, inlandiyada SSRİ ilə sülh istəyən bir neçə qrup var, lakin SSRİ və ABŞ bu sahədə ilkin addım atmasalar, onlar heç nə edə bilməyəcəklər. Molotov Stalinə xəbər verəcəyinə söz verir. Daha sonra, Ruzvelt Moskva və Kuybışev ilə Vaşinqton arasında Bəsrə-Tehran vasitəsilə hava xətti yaradılması məsələsini qaldırır və Molotov sovet hökümətinin əvvəlcə 2 həftədə bir reys olmaqla Moskva-Tehran vasitəsilə hava xəttinə razı olduğunu bildirir. Ruzvelt həmçinin, poçt, sərnişin, kiçik yüklər, sonradan isə, hərbi təyyarələr göndərilməsi üçün Alyaskadakı Nomla Kamçatkadakı Petropavlovsk arasında hava xətti yaradılması məsələsini qaldırır. Molotov bildirir ki, bu məsələ öyrənilir, lakin nəticəsi ona bəlli deyil.

Sonra Molotova bildirir ki, Ruzveltin beynəlxalq polis qüvvəsi barədə fikrini sovet hökümətinə çatdırıb və sovet hökümətı, şəxsən Stalin bu fikrə tam şərik olur. Ruzvelt daha bir təklif irəli sürdü ki, müharibədən sonra, zəif dövlətlərdən bütün dünya üzrə sahib olduqları bir çox kiçik adalar alınsın və orada 3-4 böyük dövlətin qəyyumluğu qurulsun. Bu işi daha böyük ərazilərdə də (Hind-Çin, Malakka və s.) etmək olar. Həmin ərazilərin xalqları müstəqilliyə hazır olduqda isə, onlara azadlıq vermək olar. Qəyyumluğun

---

[1] Foreign Relations… 1942, vol.3.p.577
[2] Roosevelt and Churchill. Their secret wartime…p217-218

müddəti ayrı-ayrı ölkələr üçün müxtəlif ola bilər. Molotov qeyd etdi ki, «sovet hökuməti bu problemə... ən ciddi və diqqətli şəkildə yanaşacaq».

Söhbətin sonunda, yenidən əsas məsələ olan ikinci cəbhə probleminə toxunuldu. Ruzvelt ikinci cəbhənin açılması üçün tonnajın SSRİ-yə yüklər göndərilməsinin ixtisarı (bu ixtisar tanklara, döyüş sursatına, təyyarələrə, toplara aid deyildi) hesabına əldə edilə biləcəyinə Molotovun diqqətini çəkdi. O dedi: «Amrika hökuməti 1942-ci ildə ikinci cəbhənin açılmasına çalışır və ümid edir. Bu yöndə həm İngiltərədə, həm də ABŞ-da böyük hazırlıq işi gedir. İkinci cəbhə açılmasının tezləşdirilməsinin üsullarından biri ABŞ-dan SSRİ-yə göndərişlərin ixtisarı olardı».[1]

2 iyunda Stalin Molotova yazırdı ki, həm İngiltərə ilə, həm əd ABŞ-la danışıqlar barədə kommunikelərdə mütləq ikinci cəbhənin yaradılması barədə tam razılıq əldə olunduğunu və SSRİ-yə hərbi materiallar göndəriləcəyi qeyd olunsun.

3 iyunda Molotov Hell kommunike mətnini, Alyaska vasitəsilə hava xətti yaradılmasını və s. müzakirə etdilər.

4 iyunda Stalin Molotova teleqram vurdu ki, o, ikinci cəbhə açılması naminə tonnajın azad olması üçün SSRİ-yə yüklər göndərilməsinin ixtisarına, habelə bombardmançıların bir hissəsinin Kamçatka və Uzaq Şərq vasitəsilə uçuş yolu ilə çatdırılmasına razıdır.[2]

6 iyun 1942-ci ildə ABŞ Blqarıstana, Macarıstana və Rumıniyaya müharibə e'lan etdi.

9 iyunda Molotov ABŞ-dan yenidən Londona gəldi və Çörçillə yenə də danışıqlar apardı. Çörçill 1942-ci ildə ikinci cəbhə açılmasına e'tiraz etsə də, son nəticədə özünün qeyd etdiyi kimi «düşməni aldatmaq üçün», A.İdenin bildirdiyi kimi isə, «amerikan kommunikesi ilə fərq yaratmamaq üçün» kommunikedə ikinci cəbhə məsələsinin qeyd edilməsinə razılıq verdi.[3]

---

[1] Советско-Американские...т.1.с.187-192
[2] Там же, ...т.1.с.193-194
[3] Борисов А.Ю.указ.сог.с.90-91

12 iyunda Molotovun səfəri barədə kommunikelər dərc edildi. Sovet-amerikan kommunikesində deyilirdi: «...Danışıqlar zamanı 1942-ci ildə Avropada Iicəbhə yaradılmasının tə'xirə salınmaz vəzifələri barədə tam razılıq əldə olunmuşdur. Bundan başqa, Sovet İttifaqına ABŞ-dan təyyarələr, tanklar və digər silah növlərinin göndərilməsinin artırılması və sür'ətləndirilməsi üçün tədbirlər müzakirə edilmişdir. Sonra, Sovet İttifaqı və Birləşmiş Ştatların müharibədən sonra azadlıqsevər xalqlar üçün sülh və təhlükəsizliyin tə'min edilməsi işində əməkdaşlığın əsas problemləri müzakirə edilmişdir. Hər iki tərəf, bütün məsələlərdə fikir birliyini razılıqla təsdiq etmişlər».[1] Əslində sovet-amerikan kommunikesində ikinci cəbhə məsələsinin qeyd edilməsi yalnız Stalinin tə'kidindən sonra baş vermiş, İngiltərə də buna qoşulmağa məcbur olmuşdu. Danışıqlarda isə, ingilis hökuməti 1942-ci ildə ikinci cəbhə açılmasına razı olmamış, ABŞ isə, bu məsələni birmə'nalı şəkildə qeyd etməmişdi.

11 iyun 1942-ci ildə Litvinov və Helmin imzaları ilə, SSRİ və ABŞ arasında «Təcavüzkara qarşı müharibədə tətbiq olunan prinsiplər barədə» müqavilə bağlandı. 8 maddədən ibarət olan bu müqavilənin 1-ci maddəsində ABŞ-ın SSRİ-yə müdafiə materialları, 2-ci maddəsində isə, SSRİ-nin ABŞ-a materiallar, xidmət, güzəştlər və informasiya verəcəyi qeyd edilirdi[2].

20-25 iyulda Londonda Hopkins Və Marşall bir daha ingilis rəhbərliyi ilə ikinci cəbhə barədə danışıqlar apardılar. Lakin, Çörçill Şimal-Qərği Afrikada Vişi rejiminin əlində olan əraziyə qoşun çıxarıb Rommelə arxadan zərbə vurmağı təklif etdi. Başqa çıxış yolu olmadığından, Ruzvelt teleqram vurub buna razı oludğunu bildirdi.[3] Beləliklə, ikinci cəbhənin açılması tə'xirə salındı. ABŞ tarixçiləri R.Koukli və R.Leyton yazırlar ki, "Çörçill İngiltərənin aprel ayında verdiyi öhdəliklərin pozulmasında, 1942-ci ildə Şimali Fransada ikinci cəbhə açılmasının tə'xirə salınması siyasətinin həyata keçirilməsində

[1] Внешняя политика Советского Союза…сб.док.т.1.с.284-285
[2] Сборник действующих договоров … вып XI с. 24-27
[3] Шервуд Р. указ.соч.т.2.с.243

həqiqətən təşəbbüskar, Ruzvelt isə, piyada idi. Bunun nəticəsində qoşun çıxarılmasına hazırlıq tə'xirə salındı, Amerika qoşunları Britaniya adalarından digər sahələri köçürməyə başladılar. ABŞ-ın iqtisadi və digər resursları səpələndi, qarışıqlıq yarandı, vaxt və vəsaitlər itirildi[1]".

18 iyulda Çörçill Stalinə məktubunda ikinci cəbhənin 1943-cü ilə tə'xirə salındığını mə'lumat verdi[2]. 23 iyuldakı cavab məktubunda Stalin bildirdi ki, "Sovet hökuməti Avropada ikinci cəbhənin açılmasının 1943-cü ilə tə'xirə salınması ilə barışa bilməz".

Yardım məsələsi də xeyli çətinləşmişdi. 1942-ci ilin iyunun əvvəllərində İslandiyadan çıxıb Arxangelskə yollanan 34 nəqliyyat və 2 xilasedici gəmidən ibarət "RQ-17"konvoyu yolda alman HDQ və HHQ-nın hücumuna mə'ruz qalaraq, 24 nəqliyyat gəmisini itirdi[3]. Bu, şimal yolu ilə danışımaların dayandırılmasına səbəb oldu və SSRİ-yə yardım məsələlərinə rəhbərlik edən ingilis generalı Berns bu barədə sovet tərəfinə mə'lumat verdi[4]. SSRİ-nin buna münasibəti mənfi oldu. Qeyd edək ki, Şimal yolu ilə yüklərin 3/4-ü gətirilirdi.

22 iyulda Litvinovu qəbul edən Ruzvelt bildirdi ki, yüklərin 70%-i Arktikada məhv olduğundan, yardım göndərilməsi yalnız İran vasitəsi ilə olacaq. İkinci cəbhə barədə isə, prezident dedi ki, o, "həmişə Fransaya qoşun çıxarılmasına tərəfdar olmuş, lakin Çörçill buna qarşı çıxmışdır". Ruzvelt Şimali Afrikaya qoşun çıxarmaq planın mövcudluğunu qeyd etdi.[5]

İkinci cəbhənin təxirə salınması Şimali Afrika barədə məlumatları şəxsən Stalinə çatdırmaq üçün Çörçill və ABŞ prezidentinin xüsusi nümayəndəsi Harriman 12-15 avqust 1942-ci ildə Moskvada oldular. Çörçill Avropada ikinci cəbhənin 1943-ci ilin yazında açılacağını, 1942-ci ildə isə

---

[1] Coakley R., Leighton R. Global Logistics and strategy, 1943-1945. P. 272
[2] Переписка…т.1. с. 64-68
[3] Бережков В.М. Страницы дипломатической истории. М.1982 с. 138
[4] История внешней политики ССРИ т. 1. С. 440
[5] Советско-американские … т.1. с.219

Şimal-Qərbi Afrikaya qoşun çıxaracağını bildirdi. Stalin bunu narazılıqla qarşıladı.[1]

İkinci cəbhənin açılmaması və Şimal yolu ilə yardımın gətirilməsinin dayandırılması sovet ordularının cəbhənin cənub cinahındakı ağır məğlubiyyətləri fonunda baş verirdi. May ayında Kerç və Xarkov ətrafında sovet qoşunlarını darmadağın edən alman ordusu iyunun 28-də Volqaya və Şimali Qafqaza doğru hərəkətə başladı. Bir-birinin ardınca yeni ərazilər tutan hitlerçilər, Qafqaz dağlarına və Stalinqrada çatdalar. 1942-ci ilin 17 iyulundan 18 noyabradək sovet ordusu Stalinqrad uğrunda ağır müdfiə döyüşləri aparmalı oldu.

Öz növbəsində, yaponlpr da, 1942-ci ilin yazında Birmanın, İndoneziyanın, Yeni Qvineyanın bir hissəsini, Sakit okeandakı bir sıra adaları tutdular. Lakin, ABŞ silahlı qüvvələri Koral dənizindəki (7-8 may 1942-ci il) və Miduey bazası yanındakı (4-5 iyun 1942-ci il) döyüşlərə yapon donanmasını məğlubiyyətə uğratdılar.

Şimali Afrikada isə, davam edən gərgin döüşlərdə yenidən təşəbbüsə yiyələnən Rommel iyulun əvvəllərində Misirdəki Əl-Alameyn məntəqəsinədək irəlilədi.

23 sentyabr ABŞ prezidentinin şəxsi nümayəndəsi U.Uilkini qəbul edən Stalin ona şikayət etdi ki, ABŞ yardım barədə öhdəliklərini yerinə yetirmir, «bu proqram son 2 ayda cənubda İran körfezi vasitəsilə 40-50%, şimaldan isə 15-20% yerinə yetirilir».[2] 6 oktyabrda Vaşinqtonda ABŞ və B.Britaniyanın SSRİ-yə göndərişləri barədə II protokol imzalandı. 1942-ci ilin oktyabrında ABŞ generalı F.Bredlinin SSRİ-yə səfəri zamanı Alyaska-Sibir hava xətti ilə təyyarələr gətirilməsi məsələsi tam həll olundu.[3]

7 oktyabrda Stalin Ruzveltə məktubunda tonnaj çətinliklərinin aradan qaldırılması üçün bütün digər göndərişlərdən imtina etdiiyini, yalnız

[1] Земсков И.Н. указ.соч.с.122-127
[2] Советско-американские… т.1.с.233
[3] Борисов А.Ю. указ. соч. с.123.

aşağıdakıları göndərməyin zəruriliyini bildirdi: «hər ay -500 ədəd qırıcı, 8 vəya 10 min ədəd yük maşını, 5 min ton alüminium, 4-5 min ton partlayıcı maddə. Bundan əlavə, 12 ay ərzində 2 milyon ton taxıl (buğda), habelə mümkün miqdarda piy, tonsentrat, ət konservi».[1]

13 oktyabrda Litvinov XXİK-na yazırdı: «Təchizat barədə məndə təəssürat yaranıb ki, prezident bizim tələblərimizi maksimal ödənilməsini və bununla da, II cəbhənin olmaması üçün bizə kompensasiya vermək istəyir. Lakin, burada da, o, tamamilə öz generallarından və admirallarının əlindədir, hansılar ki, getdikcə daha çox öz ehtiyaclarını ödənməsini tələb edirlər»[2].

Beləliklə, müttəfiqlər Avropada II cəbhə açmaq əvəzinə Şimal-Qərbi Afrikanın qoşun çıxarmağa həyata keçirirdilər. Hələ 23 oktyabrda ingilislər Misirdə hücuma başladılar. 8 oktyabrda isə amerikan və ingilis qoşunları Əlcəzairdəki fransız komandanlığı ilə razılaşdırıldıqdan sonra Şimal-Qərbi Afrikaya çıxarıldılar və Tunisə daxil oldular. Bu əməliyyatlar Rommeli Tunisə çəkilib orada müdafiə olunmağa məcbur etdi[3]. Ruzvelt Afrikaya qoşun çıxarılmasını Rusiyaya kömək edən effektiv ikinci cəbhə olacağını qeyd edirdi.[4] Lakin, sovet rəhbərliyi ikinci cəbhənin yalnız Avropanın şimal-qərbində açılmasında israr edir və hətta müttəfiqlər 1943-cü ildə İtaliyaya qoşun çıxardıqda belə, Moskva bunu ikinci cəbhə hesab etmişdi.

19 noyabr 1942-ci ildə isə, Sovet qoşunları Stalinqrad ətrafında əks hücuma başlayıb. 22 alman diviziyasını mühasirəyə aldılar və onları 2 fevral 1943-cü ildə təsdiq olmağa vadar etdilər. Bu sovet-alman cəbhəsində qəti dönüş nöqtəsi oldu. 1943-cü ilin martın sonunadək sovet ordusu cəbhənin cənub cinahında 600-700 km. irəlilədi.

1 dekabrda Litvinov Hopkinslə razılaşdırdı ki, 15 dekabrdan fevraladək şimalda polyar gecə olma səbəbindən, şimal yolu ilə yüklər göndərilməsi bərpa ediləgək.

[1] Переписка... т.2. с.31-32
[2] Советско-американские... т.1.с.251-253
[3] Вторая мировая война: итоги и уроки. с.79
[4] Roosevelt F.D.The War Messages of Franklih D. Roosevelt. Wash.1943. p 5.

Ruzvelt, 1942-ci ilin dekabrında öz məktublarında Stalinə 1943-cü ilin ilk aylarında Şimali Afrikadakı məntəqəlirin birində görüşməyi bir neçə dəfə təklif etsə də, Stalin cəbhədəki vəziyyəti səbəb göstərib. SSRİ-ni tərk edə bilməyəcəyini qeyd etdi[1]. Belə olduqda, Ruzvelt Çörçillə ikilikdə görüşməyi qərara aldı.

Ruzvelt 7 yanvar 1943-cü ildə konqresə illik mə'ruzəsində 1942-ci ildə bütün cəbhələrdə vacib hadisələr baş verdiyini qeyd etdi, bir sıra döyüşlərin adını çəksə də, bildirdi ki, «1941-ci ildə bütün strateji mənzərədə ən böyük və ən çox əhəmiyyətli inkişaf Rusiyadakı uzun cəbhədə baş verən hadisələrdi: I-si Stalinqradın barışmaz müdafiəsi və II-si rus ordularının noyabrda başladıqları hücumdur».

14-24 yanvar 1943-cü ilədə Ruzvelt və Çörçillin Kasablanka konfransında Şimali Afrikadan sonra, 1943-cü ilin iyulunda Siciliyaya qoşun çıxarılması, eyni zamanda İngiltərəyə qoşunlar toplaşdırılsın. 24 yanvarda mətbuat konfransında Ruzvelt Almaniya, İtaliya və Yaponiyanın qeyd-şərtsiz təslim olması formulasını elan etdi.[2]

Qeyd edək ki, 1943-cü ildə Avropaya məhz haradan olmaq məsələsində Ruzveltlə Çörçill arasında yenə də fikir ayrılığı yaranmışdı. Ruzvelt və onun hərbiçiləri Şimali Fransaya qoşun çıxarmaq, Çörçill isə, əvvəlcə İtaliyaya, sonra isə, Balkan yarmadasına daxil olmaq strateqiyasını irəli sürürdü. Çörçilli belə hesab edirdi ki, Balkana qoşun yeritməklə, rus ordusunun qərbə doğru irəliləməsini dayandırmaq və Avropa kommunist təhlükəsindən qurtarmaq olardı. Çörçill habelə kommunizm qarşısında sədd çəkmək üçün gələcəkdə Mərkəzi avropada bəzi konfederasiya və birliklərin yaradılmasını nəzərdə tutur, «Avropa Birləşmiş Ştatları» fikrini irəli sürürdü. Lakin, Ruzvelt vəziyyəti daha düzgün qiymətləndirərək, qoşunların Balkanda ilişib qalacağından qorxur və zərbəni Qərbi Avropadan endirməklə Almaniyanın mühüm sənaye bölgələrinə çıxmağı planlaşdırırdı. Eyni

[1] Переписка... т.2. с. 38-41.
[2] История США. Т. 3. С.379-383

zamanda kanalın (yəni La-manşın) keçirilməsi əməliyyatına da müharibədən sonrakı Avropada rus-kommunist təhlükəsinin yayılmasının qarşısını almaq vasitəsi kimi baxırdılar[1]. U.Lipman ABŞ strategiyasını belə şərh edir: «bu Fransanı, Belçikanı, Niderlandı və Qərbi Almaniyanı qazanmaq üçün Balkan və Dunay vadisindən imtina demək idi»[2]. R.Şervud qeyd edir ki, əgər ingilis-amerikan qüvvələri Cənubi və Cənub-Şərqi Avropada (Balkan nəzərdə tutulur-N.M.) toplaşsaydılar, son nəticədə rusların Rur, Saar və hətta Normandiyaya soxulmasına heç nə mane ola bilməzdi[3]. M. Metlofun da fikri oxşardı: «Əgər müttəfiqlər Balkanda müharibəyə cəlb olunsaydılar, onda, ruslar La-Manşadək gedib çıxa bilər, bu zaman Rurun strateji sənayesini ələ keçirə bilərdilər»[4].

Beləliklə, ABŞ bu dəfə İngiltərəyə güzəştə getməyəcəkdi və Qərbi Avropaya qoşun çıxarılması ABŞ-ın xeyrinə həll ediləcəkdi. Lakin, bunun üçün bütün 1943-cü il boyu gərgin danışıqlar keçirilməli oldu.

27 yanvar 1943-cü ildə Ruzvelt və Çörçillin Stalinə çatdırılmış məktubunda Kasablanka qərarları ümumi şəkildə şərh olunur, lakin, konkret əməliyyat yerləri və vaxtı göstərilmirdi[5]. Stalin 30 yanvarda Ruzvelt və Çörçillə cavab məktubunda dəqiqlik istəməsindən sonra, Çörçill 9 fevralda öz adından və Ruzveltin adından yazaraq bildirdi ki, aprel ayında Tunis təmizlənəcək, iyulda Siciliya alınacaq və Aralıq dənizində əməliyyatlar keçiriləcək, avqust və ya sentyabrda isə, Kanalı keçməklə ikinci cəbhə açılacaq.[6] Lakin, əslində La-Manşı kömək barədə qərar qəbul olunmamışdı və Çörçill Stalini arxayın etmək məqsədilə bunu qeyd etmişdi. 16 martda Stalin Ruzveltə yazdığı məktubda bildirirdi ki, «bizim üçün xüsusən vacibdir

[1] Stober M. The politics of the second Front. Westport, 1977.p. 121.
[2] Кулиш В.М.. История второго фронта. М. 19…с.29.
[3] Шервуд Р.указ.сог. т. 2 с.218.
[4] Важнейшие решения (сб.статей) М. 1964.с. 231.
[5] Переписка… т.2. с.48-50.
[6] Там же, с.52-53.

ki, Qərbdən zərbə yenə də təxirə salınmasın, zərbə yazda və ya yayın əvvələrində endirilsin».[1]

1942-ci ilin II yarısı –1943-cü ilin əvvələrində baş vermiş döyüşlər, bir çoxlarında antifaşist ölkələri blokunun gec-tez qalib gələcəyinə əminlik yaratdı. 1942-ci ilin dekabrında fin hökümətinin müəyyən dairələri ABŞ hökümətinə Finlandiyanı SSRİ-yə qarşı müharibədən çıxarmaq istəmələri barədə bildirdilər. Bu istiqamətdə Moskavdakı ABŞ səfiri U.Stendli ilə Molotov arasında aparılan məsləhətləşmələr heç bir nəticə vermədi. 12 aprel 1943-cü ildə Molotov Stendliyə bildirdi ki, Finlandiya ilə danışıqlar «məqsədəuyğun deyil və səmərəsizdir».[2]

Antifaşist ölkələrinin hərbi qələbələri müharibədən sonrakı dünyanın təşkili məsələlərini də xeyli aktuallaşdırdı. 1943-cü ildən başlayaraq bu məsələnin müzakirəsi daha intensiv xarakter aldı. Bu müzəkirələrdə iştirak edən nəhəng dövlətlərin hər birinin öz maraqları vardı. Rusiya öz nüfuzunun Avropaya yaymağı, bir çox ölkələrdə marionet kommknist rejimləri quraraq, onları özünə tabe etməyi düşünürdü. ABŞ və İngiltərə bunu yaxşı dərk etsələr də, onların Avropanı rus təhlükəsindən xilas etmək yolları müxtəlif idi və bu yollar II cəbhəni haradan açmaq məsələsi ilə sıx bağlı idi. Digər tərəfdən, ABŞ və İngiltərə də, öz növbəsində müharibədən sonrakı dünyada söz sahibi olmağa can atırdılar. Çörçillin «Avropa Birləşmiş Ştatları» ideyası əgər bir tərəfdən rus təhlükəsinə qarşı yönəlmişdisə, digər tərəfdən həm də İngiltərənin Avropada nüfuzunu gücləndirməyi nəzərdə tuturdu. ABŞ da dünya hökmranlığına nail olmağa səy göstərirdi. Məsələn, prezident Ruzvelt 1943-cü ilin ortalarında öz oğlu polkovnik Elliota demişdi: «Birləşmiş Ştatlar, rəhbərliyi öz üzərinə götürməlidir. Biz, bu rolu oynaya bilərik, çünki biz böyük və güclüyük».[3]

---

[1] Переписка ...т.2. с .57-58
[2] Советско-американские... т.1.с. 310
[3] Рузвельт Э. Его глазами. М.1947.с. 137-138

Lakin, həm də qeyd etmək lazımdır ki, hər dövlətin öz maraqları olmasına baxmayaraq, onların birgə səyləri müharibədən sonrakı dünyada ən azından qlobal miqyasda davamlı sülh əldə olunmasına yönəlmişdi.

Ruzvelt müharibədən sonrakı problemləri sovet hökuməti ilə müzakirə etməzdən öncə ingilislərlə razılaşmağı zəruri bildi. Bu məsələnin müzakirəsi üçün İngiltərə xarici işlər naziri A. İden 12-30 mart 1943-cü ildə Vaşinqtonda danışıqlar apardı. Danışıqlardan öngə, sovet hökuməti müttəfiqlərin nəzərinə çatdırdı ki, 1941-ci il sovet qərb sərhədi qətidir. Vaşinqton danışıqlarında Ruzvelt idenə təklif etdi ki, Baltikyanı respublikaların SSRİ-nin tərkibinə daxil edilməsini tanımamaq davam etdirilsin. İden cavab verdi ki, «Stalin buna getməyəcək». Prezident özünün bunu başa düşdüyünü bildirdi, lakin, əlavə etdi ki, əgər ABŞ və İngiltərə SSRİ-nin tələbi ilə razılaşsalar da, onlar öz razılıqlarından «Rusiyanı güzəştə getməyə məcbur etmək üçün» istifadə etməlidirlər.

Danışıqlarda Almaniya məsələsinə də toxunuldu, tərəflər Almaniyanın bir neçə dövlətə bölünməsi zərurəti barədə yekdil oldular. Lakin, müstəmləkə məsələlərində razılıq əldə olunmadı. ABŞ hökuməti asılı ərazilər üzərində qəyyumluq prinsipini irəli sürürdü. İngiltərə bunu qəbul etmədi.

Ruzvelt, İdenlə danışıqlarda, bir sıra regional orqanlar yaratmaq barədə ingilis təklifinə qarşı, dünya təşkilatı yaratmaq ideyası irəli sürdü və ingilisləri inandıra bildi[1].

ABŞ-da müharibədən sonra Rusiya ilə münasibətlərin necə qurulacağı məsələsi ciddi müzakirə edilirdi. Dövlət departamentində Rusiyaya e'tibar etmirdilər və ona «müvəqqəti müttəfiq» kimi baxırdılar. Ruzveltin və onun ətrafının mövqeyi isə, fərqli idi.Harriman Ruzveltin mövqeyini belə şəhr edirdi: «O, ilk növbədə inanırdı ki, bizim aramızda müharibədə yaranmış yaxınlıq, müharibədən sonrakı əməkdaşlığın əsası ola bilərdi və olmalıydı». Rus tarixçisi A.Y.Borisov qeyd edirdi ki, «prezident düşünürdü ki, dünya

[1] Борисов А.Ю. указ. соч. с.116-118

yetərincə böyükdur və ABŞ-la SSRİ öz aralarında toqquşmayaraq , orada öz qüvvələrini yerləşdirməyə yer tapa bilərlər».[1] Lakin. Prezidentin narahatlıqları da vardı. İden qeyd edirdi ki, «Ruzveltin başından çıxmayan əsas məsələ o idi ki, Rusiya ilə indi və müharibədən sonra işləmək mümkündürmü? O, bilmək istəyirdi ki, mən,Stalinin məqsədlərinin kontinenti tutmaq və kommunizmə tabe etdirmək olması fikri barədə nə düşünürəm».

1943-cü ilin aprelində baş vermiş bir hadisə , 2 il ərzində SSRİ-ABŞ münasibətlərində ən gərgin mövzulardan birinə çevrildi. Beləki, Almaniya tərəfinin Katın adlanan yerdə, sovet hökuməti tərəfindən güllələnmiş minlərlə polyak zabitinin basdırılmış cəsədlərini aşkar etməsi və Londondakı Polşa mühacir hökumətinin Moskvaya e'tiraz bildirməsi, ona gətirid чыхарды ki, 23 aprel 1943-cü ildə sovet hökuməti Londondakı Polşa hökuməti ilə diplomatik münasibətləri yenidən kəsdi. ABŞ hökuməti bu məsələnin Polşanın gələcək sərhədləri və siyasi quruluşu problemlərinə mənfi tə'sir edəcəyini anlayıb vasitəçilik missiyasına dəfələrlə cəhd etdi. Ağ evdə və dövlət departamentində hazırlanmış sovet-polşa barışıq planı 11 avqust1943-ü ildə sovet hökumətinə verildə. Lakin, 27 sentyabr sovet hökuməti bunu rədd etdi.

1942-ci ilin sonlarından təşəbbüsə yiyələnmiş antifaşist bloku bütün cəbhələrdə düşmənə sarsıdıcı zərbələr vururdu. 1942-ci ilin avqustundan 1943-cü ilin fevralınadək davam etmiş Sakit okeandakı Quadalkanal döyüşündə ABŞ Yaponiyaya güclü zərbə vurdu.[2] 1943-cü ilin iyununda müttəfiqlər Yeni Qvineya adasına qoşun çıxardılar. 1943-cü ilin mayında Atlantik okeanında alman sualtı qayıqlarına həlledici zərbə endirildi. May ayının 13-də isə, Tunisdəki italyan-alman ordusu təslim oldu və Afrikada əməliyyatlar başa çatdı.

12-25 may 1943-cü ildə Ruzvelt və Çörçillin Vaşinqton konfransında Sicilyadan sonra Appenin yarımadası ərazisinə qoşun çıxarmaq Çörçillin təklifi ilə qəbul edildi, habelə, 1 may 1944-cü ilədək La Manşın

---

[1] Борисов А.Ю. указ. соч. с.121.
[2] Вторая мировая война: краткая история. с.347-348

keçilməsiəməliyyatı tə'xirə salındı. 4 iyunda Çörçill və Ruzvelt Stalinə məktubda bildirdilər ki, La Manşın keçməsi 1943-cü ildə baş verməyəcək[1]. Stalin bu qərarı sovet hökumətinin köklü maraqlarının nəzərə alınmaması kimi qiymətləndirdi.

11 iyunda başlayaraq, müttəfiqlər Aralıq dənizində İtaliyaya məxsus bir neçə kiçik adanı tutdular, 10 iyul 1943-cü ildə isə, Siciliyaya qoşun çıxardılar. 24 iyulda Mussolini devrildi və onu marşal P.Badalyo əvəz etdi[2]. 8 avqustda Stalin Ruzvelt və Çörçillə məktubunda təklif etdi ki, Almaniyadan ayrılan müxtəlif hökumətlərlə daqnışıq aparmaq üçün ABŞ, İngiltərə və SSRİ nümayəndələrindən ibarət hərbi-siyasi komissiya yaradılsın. 26 avqustda ABŞ və İngiltərədən İtaliyanın təslim olması şərtlərini alan sovet hökuməti onları qəbul etdi və öz adından bu şərtlərlə müqavilə imzalamaq səlahiyyətini general Eyzenhaure verdi. Beləliklə, 3 və 29 sentyabrda müvafiq surətdə, İtaliyanın təslim olmasının "qısa" və"tükədici" şərtləri imzalandı. Hərbi-siyasi komissiya yaradılması ilə bağlı məsələ müsbət həll olundu, hansının ki, iş yeri müvəqqəti olaraq Əlcəzairdə yerləşirdi və oraya sovet nümayəndəsi kimi A.Y.Vışinski tə'yin olundu.

3 sentyabrdan müttəfiqlər İtaliyanın kontinental hissəsinə qoşun çıxardılar. 8 sentyabrda Roma radiosu İtaliyanın müharibədən çıxdığını e'lan etdi. Buna cavab olaraq, alman ordusu Neapola qədər qədər İtaliya ərazisini zəbt etdi.

1943-cü ilin yayında sovet-alman cəbhəsində də mühüm dəyişikliklər baş verdi. 5 iyuldan 23 avqustadək davam edən Kursk vuruşmasında alman ordusu daha bir ağır məğlubiyyətə uğradı. Bundan sonra, üstünlük tamamilə sovet tərəfinə keçdi. Sentyabrın sonunda sovet qoşunları Dneprə çatdılar.

Sovet ordularının sür'ətlə irəliləməsi ikinci cəbhə məsələsini qətiləşdirirdi. 1943-cü ilin payızında Ruzvelt öz oğluna demişdi ki, «əgər

---

[1] Переписка…т.2.с.66-68

[2] Вторая мировая война: краткая история. с. 343

Rusiyanın işləri gələcəkdə də belə getsə, onda, ola bilsin ki, gələn yaz II cəbhə heç lazım olmasın[1]».

12-24 avqust 1943-cü ildə Ruzvelt Çörçillin arasında keçirilmiş Kveben konfransında 1 may 1944-cü iləd "Overlord" adı altında Şimali Fransaya qoşun çıxarılması əməliyyatı keçirilsin[2]. Hell və İden arasındakı danışıqlarda belə bir zərurət qəbul olundu ki, "Almaniya vahid dövlət kimi mövcud olmamalıdır"[3].

Müharibənin gələcək planlarının və müharibədən sonrakı məsələlərin razılaşdırılması üçün 3 iri dövlətin rəhbərlərinin görüşməsi getdikcə aktuallaşırdı. 5 may 1943-cü ildə Ruzveltin SSRİ-dəki keçmiş səfir C. Devislə göndərdiyi məktubda Stalinə ikili görüş keçirmək təklif olunurdu (yayda Berinq boğazı bölgəsində). Stalin prinsipal razılıq vermiş və görüşdə Çörçillin də iştirakını təklif etmişdi[4].16. iyulda Ruzvelt bu barədə Stalinə təkrar xatırlatdıqda, Stalin və'dini yerinə yetirə bilməyəcəyini 8 avqust 1943-cü il tarixli məkutbunda bildirilmişdi. Belə olduqda, 19 avqustda Ruzvelt və Çörçill Stalinə birgə məktubunda üçlükdə görüşmək təklifini təkrarladılar, lakin, qeyd etdilər ki, əgər bu baş tutmazsa, onda 3 dövlətin xarici işlər nazirlərinin görüşməsi fikirini qəbul etdi ki, onlar rəhbərlərin görüşündən "əvvəlcədən müzakirə olunacaq məsələlərin çərçivəsini və qəbul edilməli olan təkliflərin layihəsini şərtləndirsinlər".[5] Sonrakı yazışmalarda nazirlərin görüşünü 1943-cü ilin oktyabrında Moskvada keçirilməsi qərara alındı.

1943-cü ildə sovet-amerikan münasibətləri bir çox sahələri əhatə etməyə başladı. Tərəflər arasında təkcə hərbi siyasi və iqtisadi sahələrdə deyil, elm, mədəniyyət, tibb, informasiya mübadiləsi və s. sahələrdə də əməkdaşlıq genişləndi.

[1] Рузвельт Э. Указ. соч. с. 161
[2] Эрман Дж. , Большая стратегия август, 1943-ситябрь, 1944 М. 1958. с. 43-45
[3] Hull c. Op. Cit. Vol. 2. p.1233-1234
[4] Переписка…м. 2.с. 78-79
[5] Там же, т.1.с.171

Bütün ABŞ üzrə Rusiya üçün vəsait toplanması kompaniyası gedirdi. 26 iyul 1943-cü ildə Nyu-Yorkda «Rusiyaya müharibədə yardım komitəsi» direktorlarının toplantısı oldu. Toplantıda qeyd olundu ki, əgər bütün 1942-ci il ərzində 9,3 milyon dollarlıq yardım edilibsə, 1943-cü ilin yarısında bu rəqəm 6,3 milyon dollar olub. Komitənin bütün ölkə üzrə şəbəkəsi artmışdı. Ümumiyyətlə, 1943-cü ilin ortalarında ABŞ-da SSRİ-yə yardım üzrə 385 yerli komitə və 100 köməkçi könüllü qrup fəaliyyətdə idi.[1] SSRİ-yə lend-liz üzrə göndərilən yardımlar da artmışdı. Əgər 1941-1942-ci illərdə cəmi 1,2 milyon ton SSRİ-yə yük gəlib çatmışdısa (ABŞ-dan), 1943-cü ildə bu rəqəm 4,1 milyon ton təşkil etmişdi[2]. Molotov 6 mart 1943-cü ildə Litvikova teleqramında ABŞ-ın SSRİ-yə göndərdiyi «Aerokobra» qırıcı təyyarələrinin, «B-25», «Boston» bomabardımançılarının, avtomobillərin özlərini yaxşı göstərdiklərini qeyd etmiş, lakin, benzin mühərrikli amerikan tanklarının Rusiyanın qışı üçün əlverişsiz olduğunu bildirmişdi. Molotov yazırdı: «Alınmış dərmanlar müalicə üçün geniş istifadə olunur... ABŞ-dan gələn ərzaq malları da təhcizat işində böyük əhəmiyyət kəsb edirlər, xüsusən ona görə ki, məhsuldar Ukrayna torpaqları hələ azad edilməyiblər, Şimali Qafqazın və mərkəz zolağının azad edilmiş bölgələri isə, güclü dağıntılara mə'ruz qalmışlar[3]».

8 mart 1943-cü ildə Rusiyaya göndərilən ABŞ yardımları barədə kiçik bir insident baş verdi. Həmin gün ABŞ səfirliyində mətbuat konfransı keçirən səfir Stendli dedi: «Rus hökuməti, görünür ki, xaricdən yardım aldığını gizlətmək istəyir. Hər halda, onlar istəyirlər ki, onların xalqı insanın ki, Qırmızı ordu təklikdə vuruşur». Səfirin (qeyd edək ki, o, diplomat deyildi, admiral və Ruzveltin yaxın dostu idi) çıxışı Kremlin narazılığına səbəb oldu və Ağ evdə həyəcan yaratdı. Ulles, Stendlini dərhal geri çağırmağı təklif etdi, lakin Ruzvelt bunu artıq səs-küy yaratmaq üçün bir qədər te'xirə saldı.

[1] Борисов А.Ю. указ.сог.с.136
[2] Внешняя политика Советского Союза ... сб.док. т.2. с. 142-145
[3] Советско-амерканские...т.1.с. 289-290

1943-cü ilin sentyabrında Stendleni Harrimanla əvəz etdi. Eyni zamanda, SSRİ də Litvinovu Qromıko ilə əvəz etdi və o, öz e'tibarnaməsini 4 oktyabrda Ruzveltə təqdim etdi.

9 oktyabrda Ruzveltin şəxsi göstərişi ilə, ABŞ hərbi istehsal idarəsinin başçısı D.Nelson Moskvaya səfər etdi. Səfər zamanı SSRİ və ABŞ-ın müharibədən sonra iqtisadi əməkdaşlığı məsələləri müzakirə edildi. O, ABŞ-a qayıtdıqdan sonra, sovet-amerikan ticarətinin qarşılıqlı səmərəli olduğunu qeyd etdi.[1]

## III fəsil . 1943-1945- illərdə

SSRİ ABŞ münasibətləri.

19-30 oktayabr 1943-cü ildə əvvəlcədən rahzılaşdırıldığı kimi SSRİ ABŞ və Böyük Britaniya xarici işlər nazirlərinin Moskva konfransı keçirildi. Hələ 20 sentyabrda ABŞ hökuməti, ondan bir gün önyə isə, İngiltərə hökuməti konfransın gündəliyi üçün öz təkliflərini vermişdilər. Təkliflər əsasən, müharibədən sonrakı məsələlərin müzakirəsini nəzərdə tuturdu. 29 sentyabrda Sovet hökuməti konfransda bu məsələlərlə yanaşı II cəbhə probleminin də müzakirəsini təklif etdi. 4 oktyabrda Ruzvelt Moskvaya məlumat verdi ki, baxmayaraq ki, o, qarşıdakı konfransın hərbi strategiyanı planlaşdırmalı və ya məsləhətləşdirməni olduğunu hesab etmir, o, II cəbhənin təşkili barədə ən geniş fikir mübadiləsinə etriaz etmir. K.Hell yazırdı: «Mən Stalinin konfransda hərbi strategiya məsələlərinin müzakirə etmək qətiyyətilə bağlı yaranacaq çətinlikləri görürdüm. Aydın idi ki, Stalini bizimI styasi qərarlar barədə razılığa meyllәndirmək üçün biz, əvvəlcə ona hərbi strategiya məsələsində tam təmintat verməli idik[1]».

Beləliklə, 19 oktyabrda günorta saat 4-də SSRİ XXİK-nin Spiridonovsk (indiki A.Tolstoy) küçəsindəki binasında V.M.Molotovun, K.Hellin və A.İdenin iştirak ilə konfrans başladı. Konfrans zamanı 12 plenar iclas, bundan əlavə nazirlərin şəxsi görüşləri keçirildi. Elə ilk iclasdaca , Molotov II cəbhə məsələsini qaldırdı. Müzakirələrin nəticəsi olaraq, «xüsusi məxfi protokol» imzalandı ki, orada ABŞ və İngiltərə 1944-cü ilin yazında Şimali Fransaya hücum əməliyyatı keçirmək niyyətlərini təsdiq etdilər, lakin şərt irəli sürdülər ki, bu əməliyyatın başlanması vaxtındakı müəyyən şəraitdən asılı olacaq.

Konfransda ABŞ-ın təklifi ilə ümumi təhlükəsizlik haqqında bəyannamə də qəbul edildi: a) müttəfiqlər düşmənin silahı yerə qoyub qeyd-şərtsiz təsli olacağı vaxtadək müharibəni davam etdirəcəklək; b) müharibə qurtardıqdan sonra müttəfiqlərin sə'yləri sülh və təhlükəsizliyin əldə olunmasına

---

[1] Hull C. The Memoirs of Cordell Hull. N.Y.1948.vol. 2. P.1264.

yönəldiləcək; c) yaxın vaxtlarda sülh və təhlükəsizliyin tə'min edilməsi üçün beynəlxalq təşkilat yaradılmalıdır; d) dövlətlər müharibədən sonrakı siyasətlərində qarşılıqlı məsləhətləşmə olmadan mübahisəli məsələlərin həllində hərbi vasitələr tətbiq etməyəcəklər. SSRİ güzəştə gedərək, Çin nümayəndəsinin də bəyannaməyə imza atmağına razı oldu.

İtaliya haqqında bəyənnamədə, ölkədə faşist rejiminin tam məhv edilməsinin və demokratik sistem yaradılmasının zəruriliyi qeyd olundu. Avstriya haqqında bəyənnamədə isə, «azad və müstəqil Avstriyanın» bərpası nəzərdə tutulur, eyni zamanda, onun Hitler Almaniyası tərəfində müharibədə iştiraka görə mə'suliyyəti qeyd olunurdu.

Konfrans zamanı nazirlər, Ruzvelt, Çörçill və Stalinin Birləşmiş Millətlərin 32 dövlətin adından çıxış etdikləri bəyanatını dərc etdirdilər. Bəyanatda bildirilirdi ki, Hitlerin qoşunlarının bir çox ölkələrdə törətdikləri vəhşilik və qətllərdə cavabdeh olan alman zabit və əsgərləri, natsist partiyasının üzvləri mühakimə olunacaq və cəzalandırılıacaqlar.

ABŞ diplomatiyası konfransında geniş beynəlxalq iqtisadi əməkdaşlıq proqramı irəli sürmüşdü.

Sənədlərdən biri xüsusi olaraq SSRİ-yə həsr edilmişdi və «SSRİ-yə dəymiş hərbi zərərin aradan qaldırılmasında əməkdaşlıq»adlanırdı. Onun 15 (a) bəndində deyilirdi: «Müharibənin ABŞ-ın istehsal gücünə olan ağır tələbləri bitdikdən sonra, bizim istehsal gücümüz SSRİ-nin bərpası və rekonstruksiyasında əhəmiyyətli rol oynamağımıza imkan verəcək qədər yetərincə böyük olacaq[1]» Sovet tərəfi bu məsələyə dair XXİK ilə SSRİ-dəki ABŞ səfirliyi arasında ilkin danışıqlara başlamağa razı oldu. Eyni zamanda SSRİ Almaniya və onun müttəfiqlərinin təziinat verməsi məsləsini qaldırdı.

Konfransda həm də, Avropada hərbi əməliyyatların qurtarması ilə bağlı məsələlərə baxmaq üçün nəzərdə tutulan Avropa konsultativ komissiyasının

[1] Советский Союз на международных конференциях периода Великой Отечественной войны 1941-1945 гг. Московская конференция министров иностранных дел ССРИ, США и Великобритании. 19-30 октября 1943г. Сб. док. М.1978.с.360

yaradılması barədə mühüm qərar qəbul edildi. Konfrans iştirakçıları «müharibə aparılması üçün yaranmış hazırki sıx əməkdaşlığı, hərbi əməliyyatların başa çatmasından sonrakı dövrdə də davam etdirməyin» zəruriliyini qeyd etdilər[1].

Lakin, barəsində razılığa gəlinməyən məsələlər də oldu. ABŞ «qərb sərhədi» məsələsindəki düzgün mövqeyindən çəkinmədi və üstəlik, Hell sovet hökumətinin niyyətlərinin əksinə olaraq, qeyd etdi ki, azad olunmuş ölkələrdə demokratik sistemlər bərqərar edilməlidir.

Ümiyyətlə, Moskva konfransı beynəlxalq əməkdaşlığın gələcək inkişafı üçün çox əlverişli atmosfer yaratdı[2].

Əvvəlcədən razılaşdırıldığına görə, Moskva konfransından sonra, üç dövlət rəhbərlərinin konfransı keçirilməli idi. Hələ sentyabrın sonlarında Çörçill görüş yeri kimi Tehranı təklif etmiş və Stalin razılaşmışdı[3]. Lakin, Ruzvelt əvvəlcə konfransın Tehranda keçirilməsi ilə razılaşmadı və Stalinə məktublarında Şimali Afrikadakı (Qahirə, Asmar) və Yaxın Şərqdən (Bağdad, Bəsrə, Ankara və s.) müxtəlif yerləri görüş yeri kimi təklif etdi[4]. Lakin, Stalin bunlarla razılaşmadı və Tehranda israr etdi. 5 noyabrda Ruzvelt məktubunda isə, Stalin bildirdi ki, ali baş komandan kimi Tehrandan o yana gedə bilməz və təklif etdi ki, öz əvəzinə istənilən yerə Molotovu göndərə bilər. Belə olduqda, Ruzvelt öz mövqeyindən əl çəkib Tehranda görüşməyə razı oldu[5]. Çünki, Ruzvelt Stalinlə şəxsən görüşməyə böyük önəm veirdi. O, konfransdan sonrakı çıxışında bildirmişdi ki, «bizim şəxsən kontakta ehtiyacımız var idi[1]»

Tehran konfransında öncə, 22-26 noyabrda Çörçillin təklifi ilə,o özü Ruzvelt və Çin rəhbəri Çan Kayşi Qahirədə görüşdülər. Çörçill Ruzveltə «Overlord» əməliyyatını tə'xirə salmağı və Balkan strategiyası üzərində

---

[1] Внешняя политика Советского Союза в период Великой Отчественной войны сб.док. т.1.с.412
[2] Боратынский С.Дипломатия в период второй мировой войны. М.1959. с.217
[3] Переписка Председателя Совета Министров СССР с президентами США и примьер-министрами Великобритании во время Великой Отчественной войны 1941-1945гг. 2-е изд. Т.1.М.1976. с. 198-199, 204-205
[4] Там же, т.2. с.102-103, 107
[5] Переписка, т. 2.с 108

durmağı bir daha təklif etdi. Lakin, Ruzvelt qətiyyən razı olmadı. SSRİ-dəki amerikan səfiri A. Harrman isə çıxış edərək bildirdi ki, sovet rəhbərliyi «Overlord»dan xəbərdardır və «onlar inanırlar ki, II cəbhə açılacaq[2]».

3 dövlət rəhbərlərinin Tehran konfransı 28 noyabr-1 dekabr 1943-cü ildə keçirildi. Tehranda ingilis və sovet səfirlikləri yanaşı idilər və yaxşı müdafiə olunurdular. ABŞ səfirliyi isə, şəhərin digər səmtində yerləşirdi. Kəşfiyyatın mə'lumatına görə, alman agenturası sui-qəsd hazırlayırdı. Buna görə də, sovet hökuməti Molotov vastəsilə Harrimana çatdırdı ki, prezident sovet səfirliyinə köçsün[3]. Ruzvelt buna razı oldu və öz yaxın çevrəsi ilə birgə sovet səfirliyinə gəldi.

28 noyabr, saat 16.00-da Tehran konfransı açıldı. Konfransda sovet tərəfindən İ.V.Stalin, V.V.Molotov, marşal K.Y.Voroşilov, ABŞ tərəfindən F.D.Ruzvelt, H.Hopkins, A. Harriman, ABŞ ordusu qərəgah rəisi general C.Marşall, HDQ-nin qəraragah rəisi admiral E.Kinq, HHQ qərargah rəisi H.Arnold, prezidentin qərargah rəisi admiral U.Leqi, İngiltərə tərəfindən U.Çörçill, A. İden, baş qərargah rəisi general A.Bruk, SSRİ-dəki səfir A.Kerr, I dəniz lordu E. Kenninqhem, feldmarşal D.Dill, baş aviasiya marşalı Ç.Portal, müdafiyə nazirliyi qərargah rəisi H.İsmey iştirak edirdilər[4].

Tehranda təsdiq edilmiş gündəlik olmadığından, diskussiyalar sərbəstcəsinə, yetərincə sistematik olmadan, müxtəlif problemlərə toxunularaq aparılırdı. Konfrans zamanı dörd plenar iclas keçirildi. Elə ilk iclasdaca Ruzvelt qarşılıqlı razılaşmaya əsasən konfransın sədri seçildi. Konfrans zamanı ikinci cəbhə, Almaniyanin gələcəyi, Polşa problemi, beynəlxalq təşkilat yaradılması, İran və s. məsələlərə toxunuldu.

İkinci cəbhənin müzakirəsi zamanı Stalin təklif etdi ki, Şimali Fransaya qoşun çıxarmaqla eyni vaxtda Cənubi Fransaya da qoşun çıxarılsın.[5] Çörçill

---

[1] Roosevelt F.D. Nothing to Fear:The Selected Address of Flanklin Delano Roosevelt.Boston, 1946, p.380-381
[2] Foreign Relations of United States. The Conferences at Cairo and Teheran. 1943. Washington, 1961. p.322
[3] Тегеранская конференция трех союзных держав-ССРИ, США и Великобритании. 28 ноября-1 декабря 1943 г. сб. док. М. 1978. С.85
[4] Внешняя политика Советского Союза… сб.док.т.1.с. 368-369
[5] Тегеранская конференция…с.100

bu konfransda son dəfə «Overlord» əməliyyatını tə'xirə salmağa və Balkana qoşun yeritmək qərarı qəbul olunmasına cəhd etdi.[1] Lakin onun cəhdləri boşa çıxdı və 30 noyabrda, III plenar iclasda qəti olaraq qərara alındı ki, 1944-cü ilin mayında eyni zamanda Şimali və Cənubi Fransaya qoşun çıxarılıcaq, həmin vaxt həm də, Stalin sovet ordusunun şərqdən hücuma keçəcəyinə söz verdi.[2] Stalin eləcə də, Avropada müharibə bitdikdən sonra, Yaponiyaya qarşı müharibəyə girəcəyinə prinsipial razılıq verdi.[3]

Müzakirə obyekti olan digər məsələ Almaniyanın gələcəyi oldu. Son iclasda, 1 dekabrda Ruzvelt şəxsən hazırladığı planı təqdim etdi. Plana əsasən Almaniya 5 yerə bölünməli idi: 1) Prussiya, Hannover və Şimal-Qərb; 2)Saksoniya və Leyptsiq bölgəsi; 3) Hessen-Darmştadt, Hessen-Kassel və Reyndən cənubundakı ərazilər; 4)Bavariya; 5) Baden-Vürtemberq. Bundan əlavə, Kil kanalı, Hamburq, habelə Rur və Saar vilayəti Birləşmiş Millətlərin nəzarətinə verilməli idi. Çörçill isə, Almaniyanı 3 yerə (Prussiya, Cənub və Rur) bölməyi təklif etmişdi[4]. Stalin isə, məsələnin daha dərin öyrənilməsinə ehtiyac olduğunu bildirdi.

Ruzvelt Almaniya məsələsinin müzakirəsini şərh edərək bildirirdi: «Biz yekdil qərara gəldik ki, Almaniya öz hərbi gücündən məhrum edilməlidir... Birləşmiş Millətlər, alman xalqını əsarət altına salmaq niyyətində deyil... Biz birdəfəlik, onları natsizmdən və Prussiya millitarizmindən... azad etmək niyyətindəyik[5]».

Polşa məsələsinin müzakirəsi zamanı Çörçill Polşanın şərq vilayətlərinin SSRİ-yə verilməsi müqabilində Polşaya Almaniya əraziləri hesabına kompensasiya verilməsinin zəruriliyini qeyd etdi. Çörçill dedi ki, «biz... elə bir sülh yaratmalıyq ki, o, yer kürəsi xalqlarının böyük

[1] Тегеранская конференция c.130
[2] Там же, c.150
[3] The Conferences Cairo and Tehran p. 490
[4] Тегеранская конференция...c.165-166
[5] Roosvelt F. D.Nothing to Fear. P. 382-383

əksəriyyətinin rəğbətini qazansın və müharibənin fəlakət və dəhşətlərini bir çox nəsillər üçün uzaqlaşdırsın[1]».

Konfransda həmçinin, İran haqqında bəyənnamə qəbul edildi. Orada İranın tam müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü qeyd olunurdu[2].

Konfransın yekun bəyənnaməsində deyilirdi: «Biz buraya ümid və qətiyyətlə gəlmişdik. Biz buradan ruh və məqsəd baxımından həqiqi dostlar kimi gedirik»[3]. Lakin, konfransda fikir ayrılıqları da baş vermişdi. Ruzvelt Baltikyanı respublikalar, sovet-Polşa sərhədi, Polşanın mühacir hökuməti məsələlərində yenə də Stalinə güzəştə getməmişdi. Amma Ruzvelt 24 dekabr 1943-cü ildə Tehran konfransının yekunları barədə etdiyi çıxışda demişdi ki, «mən, Rusiya, Böyük Britaniya və Birləşmiş Ştatlar arasında nizamlana bilməyən heç bir fikir ayrılığı görmürəm»[4].

Tehranda qəbul olunan ən mühüm qərar isə heç şübhəsiz, ikinci cəbhə barədə qərar idi. Ruzvelt adminstrasiyası prinsipcə 1942-ci ilin arelindən ikinci cəbhə tərəfdarı olsa da, onun bu məsələdə mövqeyi qeyri-ardıcıl xarakter daşımışdı[5]. Lakin, son nəticədə bu barədə yekdil fikrə gəlmək mümkün oldu. Tehran konfransı, özünün hərbi və siyasi qərarları ilə Birləşmiş Millətlərin müharibədəki qələbəsini tezləşdirdi[6].

1943-cü ilin dekabrında general Eyzenhauer Şimali Fransaya çıxarılacaq müttəfiq qoşunların baş komandanı tə'yin olundu. Uzun hazırlıqlardan sonra, nəhayət ki, 6 iyun 1944-cü ildə Fransanın şimalındakı Normandiya vilayətinə qoşun çıxaran müttəfiqlər, ikinci cəbhəni açdılar. Bu əməliyyat müharibənin taleyində mühüm rol oynadı. Həmin gün Vaşinqtondakı sovet səfirliyində general C. Marşalla I dərəcəli Suvorov ordeni verildi[7].

---

[1] Тегеранская конференция… с. 175
[2] Там же, с. 176
[3] Там же, с. 175
[4] Roosevelt F. D. Nothing to Fear p. 383
[5] Beitzell . The Uneasy Alliance: America, Britain and Russia N.Y. 1972. p. 369
[6] Сиполс В.Я. На пути к великой победе. Советская дипломатия в 1941-1945 гг. М. 1985 с.
[7] Советско-амеркаиские…т.2.с.133

Tehran konfransının qərarlarına əsasən, sovet ordusu müttəfiqlərə kömək etmək üçün iyunun 23-də Belarusiyada hücuma keçdi və almanların böyük qüvvələrini darmadağın etdi. İyulun 29-da sovet qoşunları Visla çayına çatdılar və müəyyən yerlərdə onu keçdilər. Cəbhənin cənub cinahında da, sovet ordusu Rumıniya sərhədinə çıxmışdı. Eyni zamanda, qərb müttəfiqləri də, Fransada yeni-yeni əraziləri azad edirdilər. İtaliyada isə, 4 iyunda onlar Romanı azad etdilər.

Müharibənin sonu yaxınlaşdıqca, müttəfiqlər arasındakı ziddiyyətlər üzə çıxırdı. Hər bir tərəf qələbə ilə başa çatmaqda olan müharibədən daha böyük naliyyətlər əldə etmək istəyir, öz materiallarının tə'min olunmasına çalışırdı. Rus imperalistləri öz ordularını Mərkəzi Avropaya yeritməklə, öz çoxdankı arzularına çatmağa, bir çox ölkələri özlərindən asılı vəziyyətə salmağa, Mərkəzi Avropa və Balkanda möhkəmlənməyə can atırdılar. Nəticədə, faşist Almaniyasının əsarətindən qurtulmağa macal tapmamış xalqlar, sovet Rusiyasının əsarəti altına düşürdülər. Məhz bu faktor, 1944-1945-ci illərdə SSRİ-ABŞ münasibətlərinin gərginləşməsinə səbəb olan əsas amil idi. Bu amil, özünü Polşa məsələsində, onun sərhədləri və gələcək siyasi quruluşu problemlərində daha açıq şəkildə biruzə verirdi. Sovet rəhbərliyi Polşa ilə sərhədin hələ 1920-ci ildə itəklif olunmuş «Kerzon xəttindən» keçməsinə (yə'ni Polşanın ukraynalılar və belaruslar yaşayan şərq bölgələri SSRİ-yə verilirdi, 1939-cu il sovet işğalı qanuniləşdirilirdi) və Polşada özündən asılı olan marionet hökumət qurulmasına çalışırdı. 1943-cü ilin aprelində Moskva Polşa mühacir hökuməti ilə münasibətləri kəsdikdən sonra, ABŞ bir neçə dəfə vasitəçilik cəhdi etsə də, sovet hökuməti bunu rədd etmişdi.

15 yanvar 1944-cü ildə Polşa mühacir hökuməti bəyanatla İngiltərə və ABŞ-a müraciət eetdi ki, sovet-Polşa danışıqlarında vasitəçilik etsinlər. Lakin, Molotov 16 yanvarda Harrimana təqdim etdiyi bəyanatda sovet hökumətinin Londondakı Polşa hökuməti il heç bir danışıq aparmayacağını

bildirdi[1]. Buna baxmayaraqt, K.Hell 19 yanvarda A.Qromıkonu çağırıb, ona ABŞ-ın SSRİ-Polşa danışıqlarına vasitəçilik etmək istəyi barədə nota verdi. Buna cavab olaraq, 23 yanvarda Molotov Hellə nota göndərərək, Polşa hökumətinin əvvəlki başçısı Sikorski ilə indiki başçısı Mikolyçinin siyasəti arasında fərq olmabığını qeyd edərək, «kerzon xəttinin» tanınmasının vəziyyəti düzəldəcəyinə zəmin yaradacağını bildirdi[2].

11 fevralda Ruzveltin Stalinə çatdırılmış məktubunda qeyd edilirdi ki, Çörçill Polşa baş nazirini ərazi dəyişikliklərini tanımağa çağırır. Prezident təklif edirdi ki, «Polşa baş nazirinə imkan verməlidir ki, o, öz hökuməti tərkibində zəruri ola biləcək dəyişikləri, heç bir təzyq və ya bunun digər dövlət tərəfindən diktə edilməsi əlaməti olmadan həyata keçirsin». O, sonda qeyd edirdi ki, «indi ilk növbədə o məsələni nəzərdən keçirmək lazımdır ki, Polşa partizanları, Sizin irəliləyən qoşunlarınızla birgə hərəkət etsinlər, onlara qarşı çıxmasınlar[3]». Lakin, cavab məktubunda Stalin yenə də, «Kerzon xəttinin» tanınmasını və Polşa hökumətinin köklü dəyişdirilmsəini tələb etdi[4]. Stalini, 3 martda Çörçillə və Ruzveltə məktublarında bildirdi ki «Polşa- sovet münasibətləri məsələsinin həllinin hələ vaxtı çatmayıb[5]».

1944-cü ilin iyulunda sovet qoşunları Polşanın Lüblin şəhərini tutduqdan sonra, orada sovetpərəst Polşa Milli Azadlıq Komitəsi (PMAK) hakimiyyətə gətirildi.

21 avqust Varşvada antifaşist üsyanı başladı. Üsyan Polşa mühacir hökumətinin (PMH) nümayəndələri rəhbərlik etdiyindən, Stalin onlara heç bir kömək etmədi və sovet qoşunlarının hücumu dərhal dayandırıldı. Avqust ayında Moskvada PMAK-la PMH arasında koalisiya hökuməti yaratmaq üzrə aparılan danışıqlar nəticəsiz qaldı.

---

[1] Советско-амеркаиские…т.2.с.8-9
[2] Там же, с.13
[3] Переписка…т.2.с.124-125
[4] там же, с. 125-127
[5] Там же, с. 133-134

20 avqustda Ruzvelt və Çörçillin Stalinə birgə məktubda Varşava üsyanına kömək etmək barədə xahişlərinin də ciddi bir nəticəsi olmadı və oktyabrın 2-də Varşava üsyanı tam yatırıldı, 200 min polyak üsyan zamanı həlak oldu. bu işdə, üsyançılara heç bir yardım etməyən və onlara nifrətini gizlətməyən Stalinin də böyük «zəhməti» oldu. Oktyabr ayında Moskvada PMAK-la PMH arasında növbəti danışıqla da nəticəsiz qaldı və 1944-cü ilin deabrında sovet hökuməti PMAK-ı müvəqqəti Polşa hökuməti kimi rəsmən tanıdı və onunla rəsmi münasibətlər qurdu. Bu, əslində Polşanın rus əsarətinə düşməsi demək idi.

Polşa məsələsinin müzakirəsi Moskvanın Mərkəzi Avropa ölkələrinə dair həqiqi niyyətlərini üzü çıxarır və SSRİ-ABŞ münasibətlərini korlayırdı. 1944-cü ilin fevralında ABŞ dövlət departamentinin Şərqi Avropa şö'bəsində E.Derbrounun müəllifliyi ilə «Hazırki sovet siyasətinin bə'zi aspektləri» adlı memorandum hazırlanmışdı. Orada göstərilirdi ki, SSRİ Avropa ölkələri üzərində hökmranlığa can atır. Müəllif ABŞ rəhbərliyini çağırırdı ki, ruslara xəbərdarlıq edilsin ki, «əgər onlar müharibədən sonra bizdən yardım almaq və əmkdaşlıq etmək istəyirlərsə, onda Kominterı ruhlu xarici siyasətdən imtina etməlidirlər[1]». Bu çağırışlar Moskvadakı ABŞ səfirliyinin dəstəyini qazandı. Səfirliyin məsləhətçisi C.Kennan 1944-cü ilin sentyabrında hazırladığı memorandumda Rusiyanın Mərkəzi Avropa ölkələrinə qarşı işğalçı məqsədlər güddüyünü qeyd etmişdi[2]. Harrman isə, 10və 20 sentyabrda Vaşinqtona mə'lumat verirdi ki, SSRİ-yə tə'sir üçün ona müharibədən sonra yardım verilməsi məsələsindən istifadə olunsun. Səfir yazırdı ki, bu «öz konkret nəticələrini tezliklə hiss etdirəcək və ...Stalin son nəticədə güzəştə gedəcək[3]». Lakin, Harriman yanılırdı. Çünki, 9 sentyabr 1944-cü ildə general Danovenin xidməti tərəfindən hazırlanmış gizli bir

[1] Foreign Relations.. 1944 vol 4 Washington, 1966. P. 816-817
[2] Ibid, p. 906
[3] Ibid, p. 994-997

bildirirdi ki, SSRİ xarici borclar və təzminatlar olmadan, öz bərpasını müharibə bitəndə 3 il sonra başa çatdıra bilər.

Münasibətlərdə müəyyən gərginlik yaranmasına baxmayaraq, Ruzvelt və onun yaxın çevrəsi, hələ də ümid edirdilər ki, Rusiya ilə müharibədən sonra dil tapmaq mümkün olacaq. Hell yazırdı ki, "prezident Ruzvelt və mən Polşa məsələsinin müzakirəsi Moskvanın Mərkəzi Avropa ölkələrinə dair həqiqi niyyətlərini üzə çıxarır və SSRİ – ABŞ münasibətlərinin korlayırdı. 1944-cü ilin fevralında ABŞ dövlət departamentinin Şərqi Avropa şöbəsində E.Derbrounun müəllifliyi ilə "Hazırki Sovet siyasətinin bə'zi ospekləri" adlı memorandum hazırlanmışdı. Orada göstərilirdi ki, SSRİ Avropa ölkəlri üzərində hökmranlığa can atır. Müəllif ABŞ rəhbərdiyini çağırırdı ki, ruslara xəbərdarlıq edilsin ki, "əgər onlar müharibədən sonra bizdən yardım almaq və əməkdaşlıq etmək istəyirlərsə, onda Komitern ruhlu xarici siyasətdən imtina etməlidirlər"[1]. Bu çağırışlar Moskvadakı ABŞ səfirliyinin dəstəyini qazandı. Səfirliyin məsləhətçisi C.Kennan 1944-cü ilin sentyabrında hazırladığı memorandumda Rusiyanın Mərkəzi Avropa ölkələrinə qarşı işğalçı məqsədlər gütdüyünü qeyd etmişdi[2]. Harriman isə, 10 və 20 sentyabrda Vaşinqtona məlumat verirdi ki, SSRİ-yə təsir üçün ona müharibədən sonra yardım verilməsi məsələsində istifadə olunsun. Səfir yazırdı ki, bu «öz konkret nəticələrini tezliklə hiss etdirəcək və... Stalin son nəticədə güzəştə gedəcək»[3]. Lakin, Harriman yanılırdı, çünki Rusiyaya eyni cür baxırdı. Biz ikimiz də anlayırdıq ki, bizim qarşılıqlı münasibətlərimizin yolu qızılgüllərlə bəzənməyəcək, lakin biz həmçinin hesab edirdik ki, Rusiya ilə işləyə biləcəyik".[4] Göründüyü kimi, Ruzvelt və onun çevrəsi Rusiyaya münasibətdə daha loyal mövqe tutmuşdular.

1944-cü ilin yanvarında, Moskva konfransı zamanı yaradılmış Avropa Konsultativ Komissiyası (AKK) Londonda öz işinə başladı. O, Almaniyanın

[1] Foregin Relations... 1944. vol. 4 Washington, 1966. p.816-817
[2] Ibid, p. 906
[3] Ibid, p. 994-997
[4] Hull C. Op.cit. vol. 2. P.1467

təslim olması şərtlərini , onun işğal zonalarına bölünməsini və onun üzərində nəzarət mexanizmi yaradılması barədə təkliflər hazırlamalı idi.

Təslim şərtləri barədə 15 yanvarda ingilis, 25 yanvarda amerikan və 15 fevralda sovet memorandumları təqdim edildi. Təkcə sırf hərbi məqsədləri ifadə edən sovet memorandumu əsasında 25 iyulda qərar qəbul edildi. Memorandumda Almaniyanın hərbii əməliyyatları dayandırması zərurəti , onun dərhal və tam tərksilah edilməsi, düşmən əsirliyində olanların azad edilməsi və s. nəzərdə tutulmuşdu. Sovet tərəfinin təklifi ilə, qeyri-hərbi məsələlər hələlik müzakirə edilmədi.

Almaniyanın işğal zonalarına bölünməsi məsələsi bir qədər çətin həll olundu. İngilis nümayəndəsi U.Strenq təklif etdi ki, şərq (sovet) işğal zonasına müharibəyə qədərki Almaniya ərazisinin 40%-i, əhalinin 36%-i, sənaye istehsalının 33%-i daxil edilsin. 18 fevralda sovet tərəfi buna öz razılığını verdi. Lakin, 8 martda ABŞ nümayəndəsi C.Vaynanta Vaşinqtondan gəlmiş instruksiyaya görə, sovet zonası xeyli şərqə çəkilirdi, ABŞ zonasına isə, şimal ərazilər (yəni ərazinin 51%-i, əhalinin 46%-i) daxil edilirdi. Lakin, İngiltərə və SSRİ bunu qəbul etmədilər və ABŞ öz mövqeyindən çəkilib 12 iyulda işğal zonaları barədə sovet- ingilis anlaşmasına qoşuldu. 12 sentyabr 1944-cü ildə imzalanmış protokolda Almaniyanın şərq (sovet) və qərb (ingilis-amerikan) işğal zonalarına, habelə Berlinin də, işğal zonalarına bölünməsi qeyd olundu. 14 noyabr 1944-cü ildə Ruzvelt və Çörçillin Kvebek görüşündə Qərb işğal zonasının ingilis və amerikan zonalarına bölünməsi barədə razılığa gəlindi və inkişaf etmiş Şimal-Qərb ingilis işğal zonası kimi planlaşdırıldı.

25 avqust 1944-cü il tarixli sovet təklifləri Almaniyada nəzarət mexanizmi barədə sazişin əsasını təşkil etdi: Almaniya tərksilahı üzərində nəzarət; faşist rejiminin ləğvi; ölkədə demokratik əsaslarla mərkəzi və yerli hakimiyyət orqanlarının yaradılması üçün şəraitin hazırlanması;bu

*vəzifələrin həyata keçirilməsi üçün 3 dövlətin silahlı qüvvələrinin baş* komandanlarından ibarət Nəzarət Şurası yaratmaq[1].

1944-cü il SSRİ-ABŞ münasibətlərində diqqəti çəkən məqamlardan biri də, onların Almaniya əleyhinə hava hücumları keçirməkdə əməkdaşlıq etmələri idi. Bu məsələ 2 fevralda Harrimanın Stalinlə söhbətində, 5 fevralda isə Harrimanın, ABŞ hərbi attaşesi general D.R.Dinin, ABŞ səfirliyinin II katibi Stivensenin Molotov, sovet aviasiya marşalı Novikov, general-polkovnik Nikitin və general-mayor Slavinin arasında gedən danışıqlarda müzakirə edildi[2], daha sonra isə, sırf mütəxəssislər tərəfindən tam razılaşdırıldı. Plana əsasən, İtaliya və İngiltərədən qalxan ABŞ təyyarələri Almaniya və onun müttəfiqlərinin obyektlərini bombaladıqdan sonra geri qayıtmır və şərqə doğru uçuşu davam etdirib sovet aerodromlarına enirdilər və oradan ABŞ-ın göndərdiyi bomba ehtiyatlarını götürüb, Almaniya və onun müttəfiqlərini yenidən bombalayaraq, öz aerodromlarına uçurdular. Bunun üçün Poltava, Mirqorod, Piryatın və 169-cu xüsusi aviabaza ərazisindəki aeradromlar çoxtonlu ABŞ təyyarələrinin enişi üçün hazırlandı və 15 apreldə əməliyyata ABŞ tərəfindən rəhbərlik etmək üçün general Kessler və onun qərargahı Poltavaya gəldi. Əməliyyata «Frentik» adı verildi.[3]

İki foto-nəşriyyat təyyarəsi üçün isə, Kotli və Veliki Luq aerodromlarına enməyə icazə verildi. Bomba zərbələri endirmək üçün hədəflər birgə seçilirdi. 2 iyunda ABŞ generalı Ekker başda olmaqla, 128 bombardmançı və 64 qırıcıdan ibarət ilk hey'ət sovet aerodromlarına endi. 2 iyun-19 sentyabr 1944-cü ildə sovet aeradromlarında mindən çox ABŞ təyyarəsinə xidmət göstərildi, ABŞ təyyarələri 2200 döyüş uçuşu keçirib düşmənin 13 obyektinə zərbə üçün 2000 ton bomba işlətdilər. Lakin, sovet qoşunlarının qərbə doğru irəliləməsi bu əməliyyatı davam etdirməyi əhəmiyyətsiz etdi və əməliyyat dayandırıldı.

[1] Борисов А.Ю. ССР И США : союзники в годы войны. М.1983. с. 183-187
[2] Советско-американские… т.2.с.15-18;23-29
[3] Бережков В.М. Страницы дипломатической истории. М.1982. с.332.

1944-cü ildə müəyyən narazılıq əlamətləri yaransa da, münasibətlər bir qədər gərginləşsə də SSRİ-ABŞ əməkdaşlığı davam etməkdə idi. SSRİ-yə göndərilən amerikan yükləri artmaqda idi. 1944-cü ilin yayında ABŞ vitse-prezidenti H.Uollesin və ABŞ ticarət palatasının sədri E.Constonun SSRİ-yə səfərləri zamanı tərəflər arasında əməkdaşlıq münasibətlərinin davam etdirilməsinə toxunulmuşdu.

Sovet qoşunları Polşada hücumu dayandırsalar da, cənub istiqamətində aktiv hücum döyüşləri keçirirdilər. 1944-cü ilin payızında onlar, Rumıniya, Bolqarıstan, Slovakiya ərazilərini tutdular. Sovet qoşunlarının irəliləməsi şəraitində, 23 avqustda Rumıniyada faşist Antonesku devrildi və 26 avqustda müvvəqəti hökümət təslim olmağa hazır olduğunu bildirdi, 12 sentyabr 1944-cü ildə Moskvada Rumıniya ilə barışıq imzalandı. 9 sentyabrda Bolqarıstanda da faşist rejim devrildi və 18 oktyabr 1944-cü ildə Bolqarıstanla barışıq imzalandı. 20 yanvar 1945-ci ildə də Macarıstan müvəqqəti hököməti barışıq şərtlərinə imza atdı. Sovet qoşunlarının həmin ölkələrə daxil olması onunla nəticələndi ki, sonradan həmin ərazilərdə Moskvadan asılı olan marionet rejimlər yaradıldı.

4 sentyabr 1944-cü ildə Finlandiya müharibədən çıxdığını bildirdi və 19 sentyabrda Moskvada Finlandiya ilə barışıq bağlandı[1].

Qərb müttəfiqləri də, qərbdən və cənubdan hücumu davam etdirdilər. 15 avqustda Fransanın cənubunu da müttəyiq qoşunları çıxarıldı və partizanların köməyi ilə sürətlə irəliləməyə başladılar.[2]19 avqustda Parisdə üsyan başladı və 25 avqustda müttəfiqlər şəhərə daxil oldular. 3 sentyabrda Brussel azad edildi. Alman qoşunları Almaniya sərhədi boyunca yerləşən «Ziqfrid» müdafiə xəttinə çekildilər.

Eyni zamanda, Sakit okeandakı əməliyyatlar da, müttəfiqlərin üstünlüyü ilə davam edirdi. Lakin, ABŞ rəhbərliyi başa düşürdü ki, SSRİ-nin müdaxiləsi

---

[1] Ивашин И.Ф. Международные отношени яи внешняя политика СССР в период второй мировой войны.М.1954. с.76

[2] Второя мировая война: итоги и уроки. М.1985.с.92

olmadan, Yaponiyanı tam məğlub etmək çətin olacaq və böyük qurbanlar tələb edir. Hələ, Tehranda Stalin Avropada müharibə bitəndən sonra Yaponiyaya müharibə elan edəcəyinə söz vermişdi. 1944-cü ilin iyunun sonunda ABŞ hərbi attaşesi general Din ABŞ ordusu qərargahı adından SSRİ baş qərargah rəisi marşal A.M.Vasilyevskiyə SSRİ-nin Uzaq Şərqdə müharibəyə girməsinin tezləşdirilməsi barədə xahişlə müraciət etdi. Lakin, sovet komandantlığı qəti bildirdi ki, Almaniya tam məğlub edilməyincə, bundan söhbət gedə bilməz.

1944-cü ilin oktyabrın ortalarında, Moskvada Stalinin Harriman və Dinlə söhbətində sovet diktatoru onları əmin etdi ki, Almaniya ilə müharibə bitəndə 3 ay sonra SSRİ Yaponiyaya qarşı müharibəyə girəcək, lakin bunun üçün təchizatın bir hissəsini ABŞ öz üzərinə götürməlidir. Amerika tərəfi bu şərtə razı oldu.

Qeyd edildiyi kimi, hələ 1942-ci ildə Ruzveltin Molotovla danışıqlarında, 1943-cü ildə Moskva və Tehran konfransında müharibədən sonra beynəlxalq təhlükəsizliyi təmin edəcək təşkilat yaratmaq məsələsi prinsipcə razılaşdırılmışdı. Bu məsələ barədə bir sıra xırdalıqları müzakirə etmək üçün 21 avqust-28 sentyabr 1944-cü ildə Dumbarton –oks (Vaşinqton yaxınlığında) konfransı keçirildi. Konfransda SSRİ-ni ABŞ-dan səfir A.A.Qromıko, ABŞ-ın dövlət katibinin yeni müavini Stettinius, İngiltərəni isə, Kadoğan təmsil edirdi. Konfrans 21 avqust, saat 10-30-da öz işinə başlad. İlk iclasda həmçinin Hell və ingilis nümayəndəsi Halifaks da iştirak edirdilər. Açılış mərasimində çıxış edən Hell demişdi ki, «bizim vəzifəmiz odur ki, elə bir əsas yaradaq ki, qələbədən sonra onun üzərində sülhü, azadlığı və gələcək nəsillər üçün inkişafı təmin edək». Öz növbəsində Qramıko da, beynəlxalq təşkilat yaradılmasını xalqlara gələcəkdə sülh, təhlükəsizlik və çiçəklənmə vəd etdiyini bildirmişdi.[1] 23 avqustda nümayəndə heyətlərini qəbul edən Ruzvelt demişdi: «Britaniya imperiyası ilə Birləşmiş Ştatlara

---

[1] Конференция представителей СССР, США и Великобритании в Думбартон –оксе. 21 августа-28 сентября 1944 сб. док. М.1978. с. 110-111; 113-115.

arasında yaxın münasibətlər nəsə yeni bir şeydir. Rus xalqı ilə amerika xalqı arasında böyük dostluq yenidir. Biz gərək, bu dostluğumuzu saxlayaq və onun ruhunu bütün dünyaya yayaraq, nəvələrimiz üçün uzunmüddətli sülh əldə edək»[1].

İlk iclaslardan sonra, yaradılacaq beynəlxalq təşkilatın əsas strukturu müəyyənləşdirildi və 29 avqustda nümayəndə heyətləri başçıları birgə bəyanət verərək, aşağıdakı məsələləri razılaşdırdıqlarını bildirdilər:

«I. suveren bərabərlik prinsipi əsasında bütün sülhsevər ölkələrin nümayəndələrindən ibarət Assambleya yaradılması;

II. az sayda üzvlərdən ibarət Şura yaradılması, hansına ki, əsas dövlətlərin nümayəndələri ilə yanaşı, vaxtaşırı seçilən bir sıra digər dövlətlərin də nümayəndələri daxil olmalıdır.

III. Beynəlxalq Məhkəmə yaradılması»[2].

Təhlukəsizlik Şurasının daxili üzvləri ABŞ, İngiltərə SSRİ və Çin olacaq, gələcəkdə bu sıraya Fransa da qoşulacaq, müvəqqəti üzvləri isə, 6 ölkə olmaqla 2 illiyə seçiləcəkdilər[3]. Təhlükəsizlik Şurasının (TŞ) lazım gələrdisə, güc tətbiq etmək səlahiyyəti vardı. Lakin, tərəflər arasında TŞ-da səsvermə qaydası üstündə mübahisələr yarandı.

ABŞ və İngiltərə hökümətləri, hələ konfransdan öncə 1944-cü ilin iyununda ilkin təkliflər verərkən, TŞ-də səsvermə zamanı veto hüququnu tətbiqini irəli sürmüşdülər. Bu, ona görə edildi ki, ABŞ-ın icazəsi olmadan, TŞ onun silahlı qüvvələrini müharibələrə cəlb edə bilməsin.[4] Eyni zamanda ABŞ və İngiltərə irəli sürürdülər ki, «TŞ-nın mübahisədə iştirak edən üzvünün səsi hesaba alınmamalıdır»[5] və səsvermə bu şərt istisna olmaqla, yekdil olmalıdır. Lakin, sovet tərəfi hesab edirdi ki, mübahisədə iştirak edən tərəfində səsvermə və veto hüququ olmalıdır.

---

[1] Конференция в Думбартон –оксе с.123
[2] Там же,. с.145-146.
[3] Боратынский С. указ. соч. С. 262.
[4] Шервуд Р., Рузвелт И. и Гопкинс. Т. 2. М. 1958, с. 571-572.
[5] Hull C. Op. Cit. Vol. 2. P.1683.

8 sentyabrda Ruzvelt Qromıko ilə söhbətində bu məsələdə sovet tərəfinin güzəştə getməsini istəsə də məqsədinə nail ola bilmədi.[1] Prezidentin Stalinə 9 sentyabr məktubunda da bu məsələ qaldırıldı, lakin 14 sentyabrda, Stalin cavab məktubunda bu təklifi rədd etdi[2]. Nəticədə konfransda belə bir şərti razılaşma əldə olundu: «TŞ mübahisədə iştirak edən tərəflərin səsini nəzərə almırdı, hətta əgər bu tərəflər Şuranın daimi üzvləri olsaydılar belə, o vaxta qədər ki, məcburetmə vasitələri zəruri olanadək. Digər tərəfdən, hər hansı bir növdən olan məcburetmə vasitələrinin tətbiq edilməsi məsələsinə baxılması və qərar verilməsi mübahisədə iştirak edib-etməməsindən aslı olmayaraq, Şuranın bütün daimi üzvlərini yekdil razılığını tələb edirdi».[3] Eyni zamanda sovet tərəfinin Ukrayna və Belorusiyaya da ayrıca səs hüququ verilməsini Qərb ölkələri qəbul etmədilər. Konfrans 28 sentyabr 1944-cü ildə öz işini yekunlaşdırdı.

16 dekabr 1944-cü ildə alman qoşunları Qərbdə, Arden yaxınlığında müttəfiqlərin cəbhəsini yarıb böyük bir hücumu başladılar. 6 yanvar 1945-ci ildə Çörçill Stalinə müraciət edərək, sovet qoşunlarının hücuma başlanmasını xahiş etdi və vaxtından əvvəl, 12 yanvarda sovet orduları Polşa və Şərqi Prussiya ərazisində böyük bir əməliyyata başlayaraq, xeyli ərazini hitlerçilərdən təmizlədilər. 8 fevralda müttəfiqlər də hücuma başlayıb Reyn çayını bir neçə yerdə keçdilər.

Müharibənin sonunun yaxınlaşması «böyük üçlüyün» yenidən görüşməsini və müharibənin bitməsi ilə əlaqədar ortaya çıxan məsələləri müzakirə etməsini zəruri edirdi.Ruzvelt hələ 19 iyul 1944-cü ildə Stalinə yazırdı: «Hadisələr sürətlə və uğurla cərəyan etdiyindən, mən düşünürəm ki, mümkün qədər tez bir zamanda Sizin, Baş nazirin və mənim aramda görüş təşkil etmək lazımdır». Ruzvelt bu görüşü 10-15 sentyabr arası Şotlandiyada (ABŞ və SSRİ-dən eyni məsafədə) keçirməyi təklif etdi. Lakin, 22 iyulda

[1] Конференция…в Думбартон-окси. С. 178-179.
[2] Переписка… т.2. с. 167-169.
[3] Hull C. Op. Cit. Vol. 2. P. 1701

Stalin cavab məktubunda «görüşün arzuedilən olduğunu» qeyd etsə də cəbhə işlərinə görə ölkəni tərk edə bilməyəcəyini prezidentin nəzərinə çatdırdı.[1]

1944-cü ilin sentyabrında Çörçillə Ruzvelt Kvebekdə, oktyabrda isə, Çörçillə Stalin Moskvada görüşdülər. H.Hopkins ABŞ-dakı sovet səfiri A.A.Qromıko ilə söhbətində təklif etdi ki, üçlərin görüşü Krımda keçirilsin. Öz növbəsində, Stalin Ruzveltə məktubunda 1944-cü il noyabrın sonunda «Qara dənizin sovet sahillərində... Tehrandan sonra yığılıb qalmış məsələlərə baxmaq» üçün görüş keçirməyi razı olduğunu bildirdi[2]. Lakin, Ruzvelt Kiprdə. Afrikada və ya Maltada, habelə Pireydə, Salonikidə və ya İstanbulda görüşməyi təklif edirdi[3]. Daha sonra prezident Stalinə məktubunda Romanı, Taormini (Şərqi Siciliya) və ya Rivyeri (İtaliya) təklif etdi və görüşün 28-30 yanvar 1945-ci ildə keçirilməsini istədi. Stalin isə, Ruzveltə və Çörçillə məktubunda yanvarın sonu-fevralın əvvəlində, yenə də, Qara dənizin sovet sahilində görüş keçirməkdə tə'kid etdi[4]. Belə olduqda, Ruzvelt 24 dekabr 1944-cü ildə Çörçillə məktubunda qeyd etdi ki, «mən Krıma getməyə və Yaltada görüşməyə hazıram»[5]. Çörçill də buna razı oldu.

ABŞ-dakı bə'zi hakimiyyət dairələrinin Moskvanın Avropanın bir sıra ölkələrini öz asılılığına salmaq planlarına qarşı ona müharibədən sonrakı bərpa işlərində yardım göstərilməsi məsələsindən təzyiq kimi istifadə etmək siyasəti davam etməkdə idi. 3 yanvar 1945-ci ildə Molotov ABŞ səfiri Harrimanı çağırıb ona sovet memorandumu verdi ki, SSRİ ABŞ-dan 6 milyard dollar kredit almağı və onun əsasında ABŞ-da sifarişlər yerləşdirməyi mümkün sayır. Kredit ödənilməyə başlandığı andan 30 il sonra başa çatmalı, 10 il keçdikdən sonra isə, ildə üzərinə 2,25% gəlməli idi. Bu barədə Vaşinqtona teleqram vuran Harriman bildirdi: «Mən bütünlüklə və tam

---

[1] Переписка... т.2. с. 158-159.
[2] Там.же, с.174
[3] Foreign Relations... The Conferences at Malta and Yalta. 1945. Washington, 1955.p.10-13
[4] Переписка... т.2.с.179
[5] Foreign Relations... The Conferences at Malta and Yalta, p. 31

əminəm ki, kredit barədə məsələ, bizim sovet ittifaqı ilə ümumi diplomatik münasibətlərimizə uyğunlaşdırılmalıdır və ruslara başa salınmalıdır ki, böyük bərpa işlərində bizim onlarla sıx əməkdaşlığa hazır olmağımız, onların beynəlxalq işlərdə özlərini necə aparmalarından asılı olacaq»[1].

Lakin, özgə cür düşünənlər də vardı. Maliyyə naziri Morgentau hətta SSRİ-nin təklif etdiyindən də artıq dərəcədə kredit verilməsinə tərəfdar idi. O, 10 yanvarda Ağ evə verdiyi memorandumunda təklif edirdi ki, ABŞ-dan mal almaq üçün SSRİ-yə 35 illiyə, strateji xammal ödənilməsi ilə, ildə 2% üzərinə gəlməklə 10 milyard dollar kredit verilsin. Morgentau yazırdı ki, bu, müharibədən sonra Ruzveltin 60 milyon iş yeri açılması proqramına da uyğundur.[2] Dövlət departamentində və xarici iqtisadiyyat idarəsində Morgentaonun memorandumu narazılıqla qarşılandı və Harriman təklif etdiyiy kreditdən təzyiq vasitəsi kimi istifadə etmək fikri bəyənildi.

K.Helli əvəz etmiş yeni dövlət katibi E.Stettiniusun kabinetində, bu məsələ ilə bağlı 17 yanvarda idarələrarası toplantı oldu. Morgentau yenə də, SSRİ-yə kredit verilməsini zəruri saydı. Lakin, belə bir fikir üstünlük qazandı ki, bu məsələdə tələsmək lazım deyil. Müzakirənin yekunu barədə danışan dövlət katibinin köməkçisi U.Kleyton dedi: «taktiki baxımdan bizim üçün belə böyük krediti hal-hazırda təklif etmək zərərli olardı və ölkələrimiz arasında qalxacaq bir çox digər siyasi və iqtisadi problemlərlə əlaqədar bizim əlimizdə olan yeganə fəaliyyətdə olan təzyiq vasitəsini də itirərdik»[3]. Moskvada və Vaşinqtonda sovet nümayəndələrinə isə bildirildi ki, sovet təklifi «ən diqqətli şəkildə öyrənilir». ABŞ diplomatiya ümüd edirdi ki, məsələnin bu cür qoyuluşu Moskvanı güzəştə getməyə məcbur edəcək. Ruzvelt Yalta (Krım) konfransı ərəfəsində Morgentauya demişdi ki, nə qədər ki, bizə lazım olanı almamışıq, biz onlara heç bir və'd verməməliyik. Lakin,

[1] Foreign Relations…The Conferences at Malta and Yalta p.312-313.
[2] Ibid, p.315
[3] Foreign Relations… The Conferences at Malta and Yalta, p. 319-321

Moskva özünün eksponsionist siyasətindən ABŞ kreditlərinə görə əl çəkə bilməzdi.

Krım konfransı ərəfəsində sovet qoşunlarının hərbi qələbələri və Yaponiya məsələsində tutacağı mövqe, Moskvanın Qərb ölkələri qarşısında üstünlüyünü tə'min etmişdi və Çörçill ilə Ruzvelt Yaltada SSRİ-yə bir sıra məsələlərdə güzəştə getməli oldular. ABŞ və İngiltərə rəhbərliyi Krıma yola düşməzdən öncə 1-2 fevral 1945-ci ildə yolüstü Maltada öz aralarında bə'zi məsələləri məsləhətləşmələr apardılar. 1 fevralda Stettiniusla İdenin görüşündə Polşa məsələsi müzakirə edildi və qərara alındı ki, Lüblindəki müvəqqəti hökümət tanınmasın, Polşa məsələsinin həllinin rus variantı qəbul edilməsin, Londondakı polyaklardan və Lüblin hökümətindən koalisiya hökuməti yaradılması irəli sürülsün.

Polşa sərhədi barədə isə ingilis tərəfi «Kerzon xəttinə» razı idi, ABŞ isə, Polşaya Lvovun və Oder boyunca bə'zi ərazilərin verilməsini nəzərdə tutulurdu.[1]

SSRİ, ABŞ və Böyük Britaniya rəhbərlərinin Krım (Yalta) konfransı 4-11 fevral 1945-ci ildə keçirildi. Stalin, Yaltada olmasına baxmayaraq, Ruzvelt və Çörçill qarşılamağa çıxmadı və onları Molotov və s. sovet nümayəndələri qarşıladılar. ABŞ nümayəndə hey'əti Livodiya, ingilis nümayəndə hey'əti Vorontsov, sovet nümayəndə hey'əti isə Yusupov sarayında yerləşdilər.[2] Danışıqlarda SSRİ-dən XKS sədri İ.V.Stalin, xalq xarici işlər komissarı V.M.Molotov, hərbi-dəniz xalq komissarı N.Q.Kuznetsov, Qırmızı Ordu baş qərargahının rəis müavini ordu generalı A.İ.Antonov, xarici işlər komissarı müavinləri A.Y.Vışinski və İ.İ.Mayski, aviasiya marşalıS.A.Xudyakov, İngiltərədəki səfir F.T.Qusev, ABŞ-dakı səfir A.A.Qromıko, ABŞ-dan prezident F.D.Ruzvelt, dövlət katibi E.Stettinus, prezidentin qərargah rəisi donanma admiralı U.Leş, prezidentin xüsusi köməkçisi H.Hopkins, hərbi səfərbərlik departamentinin direktoru C.Birns, ordunun qərargah rəisi ordu

[1] Foreign Relations... The Conferences at Malta and Yalta, p. 499-508
[2] Волков Ф.Д. За кулисами второй мировой войны. М.1985. с. 217-219.

generalı C.Marşall, HDQ baş komandanı donanma admiralı E.Kinq, ordunun təchizat rəisi B.Somervel, hərbi-dəniz daşınmaları administratoruE.Lend, general mayor L.Kuter, SSRİ-dəki səfir A.Harriman, dövlət departamentinin xüsusi siyasiişlər üzrə konselyariyası direktorunun müavini A.Hiss, dövlət katibinin köməkçisi C.Bolen, siyasi, hərbi və texniki müşavirlər, Böyük Britaniyadan baş nazir U.Çörçill, xarici işlər naziri A.İden, hərbi nəqliyyat naziri lord Lezers, SSRİ-dəki səfir A.Kerr, xarici işlər nazirinin müavini A.Kadoqan, hərbi kabinet katibi E.Brices, İmperiya baş qərərgahı rəisi feldmarşel A. Bruk, HHQ qərərgahı rəisi aviasiya marşalı Ç.Portel, I dəniz lordu donanma admiralı E.Kanninhem, müdafiə nazirliyi qərərgah rəisi general H.İsmey, Aralıq dənizi cəbhəsindəki Ali müttəfiq komandanı feldmarşel Aleksander, Vaşinqtondakı Biritaniya hərbi missiyası rəisi feldmarşel Vilson və s. iştirak edirdilər[1].

Bir həftə davam edən danışıqlardan sonra, bir sıra məsələlər üzrə qərarlar qəbul edildi.

Almaniya barədə gələcək hərbi əməliyyatların «vaxtı, ölçüləri və koordinasiyası tam razılaşdırıldı və detallı planlaşdırıldı». Birgə kommünikedə qeyd edilirdi ki, «natsist Almaniyası məhvə məhkumdur[2]». Bildirildi ki, Almaniya işğal edildikdən sonra, «üç dövlətin Silahlı qüvvələri Almaniyada xüsusi zonalar tutacaqlar» və ölkəni «üç dövlət Baş komandanlarından ibarət Mərkəzi Nəzarət Şurası» idarə edəcək. Qeyd edilirdi ki, «Fransa üç dövlət tərəfindən də'vət olunacaq, əgər o, bunu istəyirsə, özünə işğal zonası götürəcək və Nəzarət Şurasının IV üzvü olacaq». İşğalı məqsədləri kimi, alman millitarizminin və natsizmin məhv edilməsi, alman ordusunun tərksilahı və tərxisi, alman Baş Qərərgahının birdəfəlik ləğvi, bütün alman hərbi avadanlığının götürülməsi və ya məhv edilməsi, hərbi avadanlığının götürülməsi və ya məhv edilməsi və ya nəzarətə götürülməsi, hərbi canilərin cəzalandırılması, almanların vurduğu

[1] Крымская конференция руководителей трех союзных держав-ССР, США и Великобританию М. 1978с. 264
[2] Там же, с.265

ziyanlar əvəzinə natural əvəz götürülməsi göstərilirdi. Təzminat barədə deyilirdi ki, təzminat natural şəkildə (avadanlıq, dəzgah,gəmi və s. ) götürmək, illik növbədə daha çox zərər çəkmiş ölkələrə ödənilməli idi. Detalları Moskvada yaradılacaq komissiya həll etməli idi.

Ümumdünya təşkilatı (gələcək BMT) yaradılması barəd 25 aprel 1945-ci ildə San-Fransiskoda Birləşmiş Millətlərin (8.II.1945 tərkibi əsasında və 1 III. 1945 tarixi üçün Almaniyaya müharibə e'lan etmiş dövlətlər də daxil olmaqla) konfransını keçirmək qərara alındı. BMT TŞ-da səsvermə proseduru məsələsində Qərb dövlətləri SSRİ-yə güzəştə getdilər və hələ, Dumbarton-Okeda şifahi razılaşdırılmış formulanı bir növ təsdiq etdilər. Krım konfransı protokolunda qeyd edilirdi ki, TŞ-nın qərarları daimi üzvlərin səsləri də daxil olmaqla 7 səs çoxluğu ilə qəbul edilir, eyni zamanda mübahisədə iştirakçı olan tərəf mübahisənin dinc nizamlanması və yerli mübahisələrin regional tədbirlər vastəsilə nizamlanması barədə qərar qəbul edilərkən səsvermədən kənarda qalır. Habelə, Ukrayna və Belorusiyanın BMT-yə ayrıca üzvlər kimi qəbul edilməsi məsələsi SSRİ-nin xeyrinə həll edildi.

Ərazi qəyyumluğu barədə belə bir qərar qəbul edildi ki, Millətlər Cəmiyyətinin mandatların, hazırki müharibədə düşmən dövlətlərdən alınmış ərazilərə və könüllü şəkildə qəyyumluq altına düşmən istəyən ərazilərə bu status tətbiq ediləcək. Lakin, konkret ərazilərin adı çəkildmədi.

Konfransda «Azad olunmuş Avropa haqqında bəyannamə» qəbul edildi: «a) daxili sülh şəraiti yaratma; v) ehtiyac çəkən xalqlara yardım etmək üzrə tə'xirəsalınmaz tədbirlər həyata keçirmək; s) əhalinin bütün demokratik elementlərinin geniş təmisil olunduğu və mümkün qədər tezliklə azad seçkilər yolu ilə xalqın iradəsinə cavab verən hökumət qurmağı öhdəsinə götürən müvəqqəti hökumət yaratmaq; d) haradakı lazımdır, bu cür seçkilərin keçirilməsinə kömək etmək». Lakin, sovet rəhbərliyi öz nəzarətində olan ölkələrdə demokratik seçkilər keçirmək öhdəliyini yerinə yetirmədi.

Polşa məsələsi ətrafında illərcə sürən müzakirələr onunla nəticələndi ki, Qərb dövlətləri SSRİ-yə Polşa ilə sərhəd barədə güzəştə keçsələr də, Polşada demokratiya saxlanmasında qəti mövqe nümayiş etdirdilər. Danışıqlar zamanı Ruzvelt stalinə dedi: «Polşada seçkilər tamamilə təmiz keçirilməlidir, elə təmiz olmalıdır ki, heç kim onu şübhə altına ala bilməsin»[1]. Krım konfransının protokolunda tərəflər razılaşmışdılar ki: «Hal-hazırda Polşada fəaliyyət göstərən müvəqqəti hökumət daha geniş demokratik bazada, həm Polşanın özündən, həm də xaricdəki polyaklardan demokratik xadimlərin daxil olması ilə yenidən təşkil edilsin. Bu yeni hökümət, sonradan Polşa Milli Birlik Müqəqqəti Hökuməti adlandırılsın...

Polşa Milli Birlik Müvəqqəti Hökuməti götürməlidir ki, mümkün qədər tezliklə, gizli səsvermə ilə ümumi seçki hüququ əsasında azad və heç nə ilə əngəllənməyən seçkilər keçirsin. Bu seçkilərdə bütün antinasist və demokratik partiyalar iştirak etmək və namizəd vermək hüququna malik olmalıdırlar.

Polşanın Şərq sərhədi Kerzon xətti boyunca, bə'zi rayonlarda Polşanın xeyrinə olaraq 5-8 km kənara çıxmalarla, keçməlidir...Polşa Şimalda və Qərbdə xeyli ərazi almalıdır. Polşanın Qərb sərhəddinin qəti müəyyənləşdirilməsi sülh konfransınadək tə' xirə salınmalıdır.»

Konfransda Yuqoslaviya məsələsi də müzakirə olündı. Yuqoslaviya partizan dəstələri İ.Broz Tito başda olmaqlə öz ərazilərini demək olar ki, heç bir kənar yardım olmadan almanlardan təmizləmişdilər və 1 noyabr 1944-cü ildə İ.B.Tito ilə Yuqoslaviya kral hökümətinin başçısı İ.Şubaşiç arasında vahid hökümət yaratmaq barədə saziş imzalamışdı. «Böyük üçlük » qərara aldı ki, bu saziş dərhal həyata keçirilsin. Konfransda bir sıra digər məsələlər də müzakirə edildi[2].

[1] Бережков В.М. указ. cor. c. 411
[2] Крымская конференция... с.274-282.

Yaltada habelə, Uzaq Şərq məsələsi barədə anlaşma imzalandı.Qrara alında ki, «SSRİ Avropada müharibə qurtardıqdan 2-3 ay sonra müttəfiqlərin tərəfində Yaponiyaya qarşı müharibəyə girəcək, o şərtlərlə ki:

1.Xarici Monqolustanda (MXR) status-kvo saxlanılacaq.

2.1904-cü ildə Yaponiyanın hücumu nəticəsində Rusiyaya məxsus pozulmuş hüquqların bərpası, yə'ni:

a) Sovet İttifaqına Saxalin adasının cənub hissəsinin və bütün ona yaxın adaların qaytarılması.

v) Dayren ticarət limanının beynəlmiləlləşdirilməsi, bu limanda Sovet İttifaqının üstün maraqlarının tə'min edilməsi və Port-Arturunicarəsinin SSRİ hərbi-dəniz bazası kimi bərpası.

s) Şərqi Çin dəmir yolunun və Cənubi Mancuriya dəmir yolunun, hansı ki, Dayrenə çıxış verir, Sovet-Çin birgə cəmiyyətinin yaradılması əsasında, Sovet İttifaqının üstün maraqları tə'min olunmaqla, birgə istismarı; Bu zaman nəzərdə tutulur ki, Çin Mancuriyada tam suverenliyini saxlayacaq.

3. Sovet İttifaqına Kuril adalarının verilməsi[1].

Bu razılaşmadan göründüyü kimi, sovet rəhbərliyi çar Rusiyasının yeritdiyi xarici siyasəti davam etdirirdi.

Bütövlükdə isə, sovet hökuməti Yaltada götürdüyü bir sıra öhdəliklərə (azad olunmuş ölkələrdə demokratikləşmə, Polşa demokratik seçkilər və s.) əməl etmədi və bu, müharibənin sonunda SSRİ-ABŞ münasibətlərinə daha da mənfitə'sir etdi. Admiral Leqi Ruzveltə Polşa məsələsi barədə narazılığını bildirdikdə prezident demişdi: «Bilirəm, Bill, bilirəm, lakin hal-hazırda mən, Polşa üçün bundan artıq heç nə edə Slovakiyanı, Macarıstanın bir hissəsini tutumuş rusiya, Bu üstünlükdən istifadə edib öz şərtlərini diktə edirdi və heç bir güzəştə getmək istəmirdi.

Krım konfransında Abş prezidenti F.D.Ruzveltin vəfatınadək (12 aprel 1945-ci il) SSRİ-ABŞ münasibətlərində bir sıra narazılıqlar baş verdi. 1945-ci

---

[1] Крымская конференция... с.273-274.

il 6 martda Ruminiyada Rodesku hökuməti sovetpərəst P.Qroza hökuməti ilə əvəz edildikdə, bu Qərbdə narahatlığa səbəb oldu və artıq anlaşıldı ki, sovet rəhbərliyi Mərkəzi Avropa ölkələrini özünə tabe etmək üçün qəti kurs götürüb.

Digər tərəfdən, 1945-ci ilin fevralında İsveçrədə ABŞ kəşfiyyatının prezidenti A.Dalleslə Almaniyanın SS generalı K.Vulf arasında gizli separat danışıqlar keçirilməsi sovet hökumətinə bəlli oldu və 16 mart Stalin Ruzveltə məktub yazaraq, bu fakta öz e'tirazını bildirdi.

Başqa bir narazılıq isə, hərbi əsrlər məsələsində baş verdi. Beləliklə, 1945-ci ilin martında Ruzvelt və Stalin arasındakı məktub mübadillərində, tərəflər bir-birini qarşı tərəfin alman əsirliyindən azad edilmiş hərbi əsirlərinə yaxşı baxmaqda günahlandırdılar»[1].

12 aprel 1945-ci ildə ABŞ prezidenti Franklin Delona Ruzvelt 63 yaşında vəfat etdi. Ruzvelt, II dünya müharibəsi dövründə anti faşist koalisiyasının yaranmasında, düşmən üzərində qələbənin təşkilində və müharibədən sonrakı nizamlanma prosesinin qərəralaşdırılmasında böyük xidmətləri olmuş şəxsiyyət idi. II dünya müharibəsinin 1941-1945-ci illər mərhələsində SSRİ-ABŞ yaxınlaşmasının əsas təşəbbüskarlarından biri məhz F.D.Ruzvelt olmuşdu.

Ruzveltin vəfatından dərhal sonra, Molotov və Stalin ABŞ səfiri Harrimanı qəbul etmiş və ona başsağlığı vermişdilər Ruzvelt vitse-prezident H.Trumen əvəz etdi.

17 aprel 1945-ci ildə Ottavada SSRİ, Kanada, ABŞ və İngiltərə nümayəndləri SSRİ-yə yardım üzrə IV protokolu imzaladılar. Bu protokolu 1 iyul 1944-30 iyun 1945-ci il dövrünü əhatə edirdi və əslində, formal bir akt idi. Çünki onun şərtləri 30 iyun 1944-cü ildən həyata keçirildi[2].

20 aprel 1945-ci ildə Harriman yeni prezident Trumenlə görüşmək və ona Moskvanın siyasətinin mahiyyətini şərh etmək üçün Vaşinqtona gəldi.

[1] Переписка…т.2.с.206-209
[2] Советско-американские… т.2.примеч. 81. с. 536

H.Trumenin SSRİ-yə sərt mövqeyi hələ əvvəlcədən bəlli idi və bir sıra obyektiv səbəbləri vardı.

Yeni prezidentlə görüşən Harriman qeyd etdi ki, Rusiya bir tərəfdən ABŞ və İngiltərə ilə əməkdaşlığa can atır, digər tərəfdən isə Şərqi Avropa (əslində Mərkəzi Avropa ölkələri nəzərdə tutulur-N.M.) üzərində öz nəzarətini qurmaq istəyir uə Amerikaya meydan oxuyur.O, əlavə etdi ki, rusların müharibədən sonra bərpa üçün Amerika yardımına ehtiyacı var, buna görə də, onlar ABŞ-la münasibətləri kəsmək istəmirlər, bu da ABŞ-a özünü ciddi riskə salmadan , ən mühüm məsələlərdə sərt olmaq imkanı verir.Trumen cavavbında dedi ki, o ruslardan qorxmur və onlarla münasibətdə sərt, lakin ədalətli olacaq. Prezident qeyd etdi ki, hər halda «rusların bizə daha çox ehtiyacı var, nəinki bizim onlara». Səfir əlavə olaraq, rusların Avropaya barbarcasına soxulmalarından, Stalinin öz öhdəliklərinin pozmasından danışdı. Trumen bildirdi ki, SSRİ-yə münasibətdə illüziyalardan əl çəkib, ABŞ üçün «100%-li olmasa da, heç olmasa, 85 %-li» sərf edən qrarlara nail olmaq vaxtı çatıb[1].

San-Fransisko konfransında iştirak etməyə gələn Molotovu 22 aprel 1945-ci ildə Trumen qəbul etdi. Molotovu ABŞ-da görməyinə şad olduğunu söyləyən prezident qeyd etdi ki, o çox istəyir ki, ABŞ-la SSRİ arasında əvvəllər də olduğu kimi, dostcasına münasibətlər mövcud olsun. Eyni zamanda Trumen dedi ki, Amerika ictimai rə'yi üçün Polşa məsələsinin həllini xüsusi vacib sayır. Trumen ümid etdiyini bildirdi ki, ABŞ və SSRİ-nin qarşılıqlı razılığı ilə bu məsələ həll ediləcək. O, istəyir ki, Molotov, Stettinus və İden bu məsələni müzakirə etsinlər və aydınlaşdırsınlar ki, razılığa gəlmək yolunu tapmaq olarmı?

Cavabında Molotov dedi ki, o, ABŞ üçün Polşa məsələsinin əhəmiyyətini başa düşür, lakin Polşa ABŞ-dan daha uzaqda yerləşir, nəinki SSRİ-dən. Buna görə də, Polşa məsələsinin SSRİ üçün xüsusi mühüm

---

[1] Борисов А.Ю.указ соч.с.233

əhəmiyyəti var[1]. Söhbətin sonunda Trumen Stalinlə görüşmək istədiyini bildirdi.

Qeyd edək ki, hələ 9 mart 1945-ci ildə sovet hökumət; ABŞ hökumətinə müraciət etmişdi ki, Varşavadakı sovetpərəst Polşa Müvəqqəti Hökuməti San-Fransisko konfransına də'vət olunsun. 15 martda Stettinşus çıxışında bildirdi ki, Polşa yalnız o zaman San-Fransisko konfransında təmsil oluna bilər ki, müvəqqəti hökumətin yenidən təşkili konfransadək başa çatmış olsun. 22 martda sovet hökuməti yenidən ABŞ hökumətinə memorendum verdi ki, Polşa Müvəqəti Hökuməti konfransa də'vət olunsun[2]. 29 martda ABŞ hökuməti cavab verdi ki, yaranmış vəziyyətdə San-Fransisko konfransına «hazırda Varşavada fəaliyyət göstərən Polşa Müvəqqəti Hökumətinin» də'vət edilməsini mümkün hesab etmir. Beləliklə, ABŞ və İngiltərə San-Fransisko konfransda Polşa Müvvəqəti Hökumətinin iştirakına razı olmadılar və o, konfransda iştirak edə bilmədi. Lakin, sonradan Polşa imkan verildi ki, BMT nizamnaməsini təşkilatın ilkin üzvlərindən biri kimi imzalasın[3].

23 apreldə Trumen Ağ evdə günorta saat 2-də kabinetin növbədənkənar toplantısını keçirdi. Stettinius bildirdi ki, sovet tərəfi ilə Polşa barədə danışıqlar nəticə verməyib. Stimson, Leqi kimi xadimlər Rusiya ilə ehtiyatlı davranmağa çağırdılar. Marşall isə , qeyd etdi ABŞ-ın tələskənli addımları ruslarınUxaq Şərqdə müharibəyə girməsinə mane ola bilər. Forrestol və harrimon isə, Rusiyaya qarşı sərt kurs götürməyə təklif etdilər. Trumen də sonuncuları dəstəklədi. O, dedi : «Sovet İttifaqı ilə razılaşmalar bu vaxtadək birtərəfli yol hərəkətinə malik küçə olub və artıq bu cür davam edə bilməz[4]».

Trumen həmin axşam Molotovu yenidən qəbul etdi və Polşa məsələsində irəliləyişin olmamasından narazılığını bildirdi. O, dedi ki, ABŞ bütün demokratik elementlərin təmsil olunmadığı Polşa hökümətini tanıya

---

[1] Советско-американски отнашения …т.2.с.367
[2] Конференция Обьединенных Наший в Сан-Франсиско. Сб.док. М.1980. с.80-81
[3] Сиполс В.Я,указ. соч.с. 375-376
[4] Foreign Relations…1945.vol.5.p.252-255.

bilməz. Prezident qeyd etdi ki, Amerika ictimai rə'yi Polşa məsələsindən narahatdır və buna görə də, o, konqresdən SSRİ-yə müharibədən sonrakı iqtisad yardım üçün vəsaitlər ayrılması qanunu keçirə bilməz və sovet nümayəndəsinə məsləhət gördü ki, bunu unutmasın. Bu söhbətdən sonra, Molotov Stalinə mə'lumat verdi ki, ABŞ Ruzveltin siyasətindən geri çəkilir.[1]

Bu mə'lumatdan sonra , Stalin 24 apreldə Trumenə Polşa məsələsinə dair məktub yazdı.Orada qeyd edilirdi ki: «Mən sizin xahişinizi yerinə yetirməyə və razılaşdırılmış qərara gəlmək üçün mümkün olan hər şeyi etməyə hazıram. Lakin, Siz məndən həddən artıq çox şey istəyirsiniz. Sadə dillə desək, Siz tələb edirsiniz ki, mən Sovet İttifaqının təhlükəsizlik maraqlarından əl çəkim, lakin mən öz ölkəmin əleyhinə gedə bilmərəm»[2]

25 aprel 1945-ci ildə Elba çayı sahilində , Almaniyanın mərkəz hissəsində Torqau şəhəri bölgəsində Sovet 1-ci Ukrayna cəbhəsinin 5-ci qvardiya ordusunun hissələri ilə 1-ci amerikan ordusu hissələri görüşdülər. Bununla da, zəifləmiş , əldən düşmüş alman ordusu 2 hissəyə parçalandı. Həmin gün San-Fransiskoda Birləşmiş Millətlərin konfransı başlandı.

2 may 1945-ci ildə Berlin şəhəri sovet qoşunları tərəfindən tam alındı. May ayının 8-dən 9-na keçən gecə , saat 00.43-də Almaniyanın qeyd şərtsiz təslim olması haqqında akt imzalandı.Akta Almaniya tərəfindən general-feldmarşal V.Keytel, HDQ baş komandanı admiral Q.Frideburq, aviasiya general-polkovniki H.Ştumper, SSRİ-dən marşal Q.K.Jukov, Böyük Britaniyadan aviasiya baş marşalı A.Tedder, ABŞ-dan strateji hava qüvvələri komandanı general K.Spaats və Fransadan general J.Delatr de-Tassinyi imzaladılar.[3] 5 iyunda Berlində Almaniyanın məğlubiyyəti və Almaniyada ali hakimiyyətin SSRİ, Böyük Britaniya, ABŞ və Fransa hökümətlərinin üzərinə götürülməsi barədə bəyannamə dərc olundu.

---

[1] Бережков В.М.указ.соч.с.444
[2] Переписка… т.2.с.234-236.
[3] Внешняя политика…Сб.док.т.3.с.44.

12 mayda ABŞ hökümәti SSRİ-yә lend-liz üzrә göndәrişlәri dayandırdı. SSRİ müvәqqәti işlәr vәkili N.V.Novikovun sorğusuna ABŞ hökümәti cavab verdi ki, bu , Avropada müharibәnin bitmәsi ilә әlaqәdardır. [1] Bu, SSRİ-nin narazılığına sәbәb oldu.

Sovet hökümәti Novikov vasitәsilә ABŞ dövlәt katibi sәlahiyyәtlәrini icra edәn (Stettinius San-Fransisko konfransında olduğu üçün ) C.Qryuya lend-liz barәdә mәktub verdi. Orada deyilirdi: «... Göndәrişlәrin dayandırılması Sovet Hökümәti üçün tam gözlәnilmәz olmuşdur. Lakin, әgәr ABŞ Hökümәti digәr çıxış yolu görmürsә, sovet hökümәti ABŞ hökümәtinin göstәrilәn qәrarını qәbul etmәyә hazırdır»[2].Lakin, Yaponiya ilә müharibә bitmәdiyindәn ABŞ bir qәdәr sonra göndәrişlәri bәrpa etdi.

Sovet Hökümәti ilә münasibәtlәrin hәddәn artıq korlandığını görәn Trumen , 20 mayda Stalinә mәktubunda bildirdi ki, çәtin vә vacib mәsәlәlәrin müzakirә etmәk üçün Hopkinslә Harrimanı Moskvaya göndәrmәk istәyir.[3] Qeyd edәk ki, Hopkins Stalinin yanında böyük hörmәtә malik idi vә onun Moskvaya göndәrilmәsinә Harriman vә SSRİ-dәki ABŞ sәfirliyinin işçisi Bolen tәklif etmişdilәr. Hәmin gün stalin Hopkinsin gәlişinә razı olduğunu qeyd etdi.

26 mayda Stalinlә görüşәn Hopkins, Ruzvelt dövrüdәki yaxşı münasibәtlәrdәn bәhs etmiş, bildirmişdir ki, lakin son hәftәlәrdә bu münasibәtlәr pislәşmәyә doğru gedir. «Hal-hazırda ictimai rә'y öz diqqәtini ona yönәldib ki, biz, Polşaya dair Yalta razılaşmasını yerinә yetirmәk qabilәiyyәtindә deyilik.» Stalin cavab verdi ki, «sovet hökumәti Polşada dost hökumәt (әslindә isә, әlaltı hökumәt-N.M.) istәyir, ingilislәr isә, xüsusәn dә, mühafizәkarlar, sanitar kordon yaratmaq istәyirlәr». Hopkins bildirdi ki, «nә Amerika xalqı, nә dә Amerika hökumәti sanitar kordon istәmirlәr, lakin әgәr Polşa mәsәlәsi hәll edilmәsә, işlәr pislәşә bilәr[4]».

---

[1] Советско-американские ... т.2.с.391.
[2] Там же, с.392
[3] Переписка... т.2.с.250.
[4] Советско-американские.. т.2.с. 398-400

28 may 1945-ci ildə Hopkinslə yenidən görüşən Stalin, avqustda Yaponiyaya qarşı SSRİ-nin müharibəyə girəcəyini bildirdi. Söhbətdə bir sıra digər məsələlər də müzakirə edildi.

Bu danışıqlardan sonra, Moskva, Potsdam konfransı öncəsində taktiki gediş edərək, demokratik qüvvələrin bə'zisinin Polşa hökuməti tərkibinə daxil olmasına razı oldu və 1945-ci ilin iyununda Yalta qərarları əsasında «milli birlik» hökuməti formalaşdırıldı. Qeyd edək ki, Mərkəzi Avropa ölkələrində hakimiyyətin tam olaraq sovetpərəst ünsürlərin əlinə keçməsi dərhal baş verməmiş, bu proses Polşada 1947-ci ildə, Bolqarstanda və Ruminiyada 1946-cı ildə Macarıstanda 1947-ci ildə, Çexoslovakiyada 19048-ci ildə başa çatmışdı. Bu taktika Qərbin təzyiqlərini zəifl ətmək məqsədi güdürdü.

26 iyun 1945-ci ildə San-Fransisko konfransı BMT nizamnaməsinin imzalanması ilə öz işini bitirdi. Konfransın işində 50 dövlət iştirak etmişdi.

Yalta qərarlarına əsasən yaradılmış Moskvadakı Təzminat komissiyası 37 iclasdan sonra öz işini nəticəsiz başa vurdu. Avropada müharibənin başa çatması ilə əlaqədar 17 iyul-2 avqust 1945-ci ildə Berlin yaxınlığındakı Potsdamda SSRİ, ABŞ və Böyük Britaniya rəhbərlərinin konfransı keçirildi. İngiltərədə parlament seçkilərindən sonra leyborist partiyası qalib gələndən sonra, 28 iyulda konfransda Çörçill K. Ettli əvəz etdi. Berlin (Potsdam ) konfransı öz işinə 17 iyul, saat 17.00-da başladı. Uzun müzakirələrdən sonra, 1 avqust 1945-ci ildə konfransın protokolu imzalandı. Protokola əsasən, «dinc nizamlanmaya dair zəruri hazırlıq işləri keçirilməsi üçün» Böyük Britaniya, SSRİ, Çin, Fransa və ABŞ xarici işlər nazirliyinin Şurası yaradılmalı, iclaslar Londonda keçirilməli (1 sentyabr 1945-ci ildən gec olmayaraq ilk iclas olmalı idi) və İtaliya, Rumıniya, Bolqarıstan, Macaıstan, Finlandiya ilə sülh müqavilələri hazırlanmalı idi.

Protokolun 2-ci bölməsi «İlkin nəzarət dövründə Almaniya ilə davranmanın rəhbər tutulması zəruri olan siyasi və iqtisadi prinsiplər »

adlanırdı. Orada qeyd edilirdi ki, Almaniyada ali hakimiyyəti SSRİ, ABŞ, Böyük Britaniya və Fransa silahlı qüvvələri baş komandanları həyata keçiricəklər, ümumi məsələlərdə birgə qərar qəbul ediləcək. Almaniyanın işğalının məqsədləri kimi Almaniyanın tam demilitarizasiyası, natsizmin tam ləğvi və siyahı həyatı demokratikləşməsi nəzərdə tutulurdu.

Protokola əsasən, SSRİ təzminatı öz işğal zonasından götürəcək, Polşanı da təzminatla təmin edəcək,bundan əlavə Qərb işğal zonasından götürülən təzminatın 25%-i SSRİ-yə veriləcəkdi. Alman HDD və ticarət gəmiləri 3 dövlət arasında bərabər bölünəcəkdi, sualtı qayıqların isə, əksəri məhv ediləcək, yalnız 30-u bölüşdürüləcəkdi.

Habelə, Königsberq şəhəri və ona yaxın ərazinin SSRİ-yə ilhaq olunması, hərbi canilərin məhkəməyə verilməsi, Avstriyadan təzminat alınması və s. nəzərdə tutuldu.

Sovet hökümətinin Polşa hökümətі barədə iyun ayında etdiyi taktiki və aldadıcı gediş öz nəticəsini verdi. Potsdamda Polşa məsələsinə dair aşağıdakı qərara gəlindi: «Britaniya hökümətinin və Birləşmiş Ştatlar hökümətinin Polşa Müvəqqəti hökümətі ilə diplomatik münasibətlər qurması, onların, Londondakı keçmiş Polşa hökümətini tanımalarına son qoyur... Üç dövlət nəzərə alır ki, Polşa Milli Birlik Müvəqqəti Hökümətі, Krım konfransının qərarlarına uyğun olaraq bildirib ki, azad və heç nə ilə əngəllənməyən seçkilər mümkün qədər tez keçiriləcək.» Polşanın sərhədləri isə, qərb istiqamətində də müəyyənləşdirildi: «...Bundan sonra, Polşanın qərb sərhədi tam müəyyənləşənədək, keçmiş alman əraziləri, hansılar ki, Baltik dənizindən başlayaraq, Svinemyundedən bir qədər qərbdə və oradan Oder çayı boyunca Qərbi Neyse çayı ilə birləşənədək və Qərbi Neyse çayı boyunca Çexoslovakiya sərhəddinədək olan xəttdən şərqdə yerləşirlər, Berlin konfransının qərarına əsasən, SSRİ-nin idarəsinə verilməyən Şərqi

Prussiya ərazisi də daxil olmaqla, Polşa dövlətinin idarəsi altındadır və Almaniyadakı sovet işğal zonası sayılmamalıdır.»[1]

Müharibənin sonunda hərbi qələbələri ilə öz mövqeyini xeyli gücləndirmiş SSRİ-yə təzyiq etmək üçün ABŞ rəhbərliyi atom bombası faktorunu önə çəkməyə qərar vermişdi. Hələ, 11 oktyabr 1939-cu ildə prezident Ruzvelt A.Eynşteyn və digər alimlər tərəfindən, atom bombasının düzəldilməsinin mümkünlüyü barədə mə'lumatlandırılmışdı[2] və 15 iyun 1940-cı ildə Ruzvelt atom silahı istehsalı üzrə işə başlamağı göstəriş verdi.[3] "S-İ " kod adı ilə atom bombası üzərində işlər, aparıcı Avropa alimlərinin cəlb edilməsi ilə, general Qrouvuzun rəhbərliyi altında gizli "Manhetten layihəsi" çərçivəsində aparılırdı. Nəhayət, ABŞ dünya tarixində ilk dəfə olarqa, 16 iyul 1945-ci ildə atom bombası sınağını keçirtdi.

Berlin konfransı zamanı, 24 iyulda Trumen Stalinə ABŞ-da "müstəsna dağıdıcı qüvvəli" yeni bomba yaradılması barədə məlumat verdi. Bu zaman prezident "atom silahı" və ya "nüvə silahı" sözünü işlətmədi. Stalin Trumenin mə'lumatını çox sakit dinlədi. Çünki, o zaman SSRİ-də, 1943-cü ildən başlayaraq, İ.V.Kurçatovun başçılığı ilə atom silahı yaradılması üzrə tədqiqatlar gedirdi. Stalinlə söhbətdən sonra, Trumen Çörçillə bildirdi ki, Stalin heç bir sual vermədi. Öz növbəsində Jukov, xatirələrində yazır: «İclasdan qayıdan Stalin, mənim yanımda Molotova Trumenlə söhbətindən danışdı. Molotov bu zaman dedi: «Öz qiymətlərini qaldırırlar». Stalin gülümsündü: «Qoy qaldırsınlar, Kurqatovla işimizin tezləşdirilməsi barədə danışmaq lazımdır». Mən başa düşdüm ki, söhbət atom bombasından gedir».[4]

6 avqust 1945-ci ildə ABŞ Yaponiyanın Hirosima şəhərinə, 9 avqustda isə, Naqasaki şəhərinə atom bombası zərbəsi endirdi. Dinc əhalinin kütləvi

---

[1] Берлинская (Потсдамская ) конференция руководителей трех союзных держав-СССР,США и Великобритания (17 июля-2 августа 1945г.)М. 1980.с.459-478.

[2] The United states in World War II Encyclopedia of American history (Ed, ly B.Morris).M.Y.1953.p.362.

[3] Яковлев Н.Н. Франклин Рузвелт: Человек и политик.М. 1981.с.270.

[4] Жуков Г.К. Воспоминания и размышления .т.2.м.1978.с.364

məhvinə səbəb olan bu hadisə, heç şübhəsiz ki, vəhşilik aktı idi və ABŞ-ın güc nümayiş etdirmək istəyindən irəli gəlirdi.

8 avqustda sovet hökuməti bildirdi ki, 9 avqust 1945-ci ildən e'tibarən özünü Yaponiya ilə müharibə vəziyyətində hesab edəcək. 9 avqustda sovet ordularının iri kütlələri Mancuriyada geniş hücuma başladılar. Qeyd edək ki, artıq o vaxtadək Yaponiya Hind Çindəki və Sakit okeandakı bir sıra mühüm mövqelərini itirib xeyli zəifləmişdi. Belə şəraitdə yapon hököməti təslim şərtlərini qəbul etdi və 2 sentyabr 1945-ci ildə, Tokio körfəzindəki «Missuri» adlı ABŞ gəmisində Yaponiyanın qeyd-şərtsiz təslim olması barədə akt imzalandı. Bununla da, II dünya müharibəsi başa çatdı.

Qeyd edək ki, II dünya müharibəsi zamanı, 1941-1945-ci illərdə ABŞ hökməti lend-mez xətti ilə antifaşist ölkələrinə 50 milyard dollar məbləğində yardım etmişdi ki, bunun da, 30,3 milyard dolları Britaniya imperiyasının (21,5 milyardı birbaşa İngiltərənin, digər hissəsi dominionlarının), 10 milyard dolları isə, SSRİ-nin payına düşmüşdü.[1] Həmin müddət ərzində SSRİ özünün Qərb müttəfiqlərindən 18700 təyyarə (14795 ədədi ABŞ-dan), 10800 tank (7056 ədəd ABŞ-dan), 9600 top, 375000 yük avtomobili, 44600 ədəd metalkəsən dəzgahlar (hamısı ABŞ-dan) və s. almışdı. Qeyd edək ki, həmin dövr ərzində SSRİ özü ümumiyyətlə, 112100 döyüş təyyarəsi, 102800 tank, 482200 top istehsal etmişdi. Beləliklə, Qərbdən göndərilən yardımlar SSRİ istehsalı ilə müqayisədə toplar üzrə 2%, tanklar üzrə 10%, təyyarələr üzrə 12% olduğu aşkara çıxır.[2] Lakin qeyd etməliyik ki, sovet rəhbərləri ABŞ təyyarələrini yüksək qiymətləndirirdilər. Digər tərəfdən, SSRİ-yə göndərilmiş yük avtomobillərinin sovet qoşunlarının avtonəqliyyatla təmin edilməsində əvəzsiz rolu olmuşdu. Habelə, müxtəlif dəzgah, avadanlıq, paravoz, rabitə vasitələri, əlvan metallar, yüksəkoktanlı yanacaq və s. materiallarla yardımın SSRİ üçün böyük əhəmiyyəti olmuşdu. Ümumilikdə isə, ABŞ-ın tətbiq etdiyi

[1] Громыко А.А. Внешняя экспансия капитала. История и современность. М.1982.с.197
[2] История Великой Отечественной Войны Советского Союза.т.6. м.19.с.48

lend-mez, II dünya müharibəsində faşizm üzərində qələbə qazanılmasında ən həlledici olmasa da, hər halda böyük rol oynamışdı.

1947 və 1960-cı illərdə SSRİ ilə ABŞ arasında hesablaşmalar haqqında danışıqlar aparılmış, lakin danışıqlarda razılığı gəlmək mümkün olmamışdı. Danışıqlar 1972-ci ildə bərpa olunmuş, ABŞ ödəmələrin məbləğini xeyli aşağı salmağa, həmçinin tərəflərin iqtisadi münasibətlərinin inkişafındakı uğurlardan asılı olaraq qaytarılmasına razı olmuşdu. 1972-ci il oktyabrın 18-də Vaşinqtonda SSRİ ilə ABŞ arasında eyni vaxtda lend-liz üzrə hesablaşmaların tənzimlənməsi, ticarətin inkişafı və qarşılıqlı surətdə kredit verilməsi haqqında müqavilə imzalanmışdı. Lakin, SSRİ demək olar ki, ABŞ-a lend-mez üzrə olan borclarını faktiki olaraq, tam ödəmədi.

## NƏTİCƏ

İkinci dünya müharibəsi dövründə SSRİ-ABŞ münasibətləri onunla xarakterizə olunur ki, təcavüzkar «ox» dövlətlərinin tərəfindən təhlükə artdıqca, bu 2 nəhəng ölkə arasındakı münasibətlərin yaxşılaşması hiss olunmuş, əksinə, təhlükə az oldıqda münasibətlərdə gərginlik və nisbətən pisləşməsi prosesi baş vermişdi.

1939-cu ilin sentyabrında 1940-cı ilin may-iyun aylarınadək SSRİ-ABŞ münasibətləri kəskin xarakter daşımış, SSRİ-nin Almaniya ilə sövdələşməyə gedib təcavüzkarlıq siyasəti yeritməsi, habelə, SSRİ-nin Almaniya ilə sıx iqtisadi əlaqələri və əksinə, ABŞ-ın ingilis-fransız blokuna yaxın olması sovet-amerikan münasibətlərinin daim gərgin olmasına əsas yaratmışdı.

Lakin, Fransanın süqutundan sonra, hər 2 tərəf üçün təhlükə artıdığından, münasibətlərdəki gərginliyi bir qədər səngitmək üçün müəyyən tədbirlər görülmüşdü.

1941-ci il iyun 22-də Hitler Almaniyasının SSRİ-yə hücumundan sonra, ABŞ da İngiltərə kimi SSRİ-ni dəstəklədiyini bildirmiş, bir qədər sonra SSRİ-yə yardım edilməyə başlanmışdı.

1941-ci ilin dekabrında ABŞ II dünya müharibəsinə daxil olduqdan sonra, SSRİ və ABŞ arasında məqsəd ümumiliyi daha da artmış və tərəflərin əmkdaşlığı daha geniş xarakter almışdı. Lakin, SSRİ-ABŞ münasibətlərində müəyyn narazılıqlar da özünə yer tapırdı. Msələn, sovet rəhbərliyi ABŞ-ı Avropada II cəbhə açmamaqda, ABŞ hökuməti isə, SSRİ-nin Almaniya ilə sövdələşmə nəticəsində qəsb etdiyi ərazilərə dair iddialarından hələdə əl çəkməməkdə ittiham edirdi.

1941-1945-ci illərdə SSRİ-ABŞ münasibətləri çoxşaxəli xarakter almış, hərbi, siyasi, iqtisadi, mədəni, elmi-texniki sahələri əhatə etmişdi. SSRİ, ABŞ və Böyük Britaniyanın daxil olduğu «böyük üçlüyün» müttəfiqliyi faşist-millitarist blokunun qəti məğlubiyyəti ilə nəticələnmişdi.

Lakin, müharibənin sonu yaxınlaşdıqca, tərəflər arasında ziddiyyətlər yenidən üzə çıxmış, xüsusən də prezident Ruzveltin vəfatı və onu Trumenin əvəz etməsi SSRİ-ABŞ münasibətlərinin bir qədər gərginləşməsinə səbəb olmuşdu. Bu, əsasən hər 2 tərəfin qələbə ilə başa çatmaqda olan müharibədən daha çox qazancla çıxmaq istəyi ilə bağlı idi. Xüsusən də, Moskvanın Mərkəzi Avropa ölkələrində özündən asılı olan rejimlər qurub həmin əraziləri özünə tabe etməsi Qərbdə böyük təşviş yaranmasına səbəb olurdu. Bu da, heç sözsüz ki, SSRİ-ABŞ münasibətlərinə mənfi tə'sir göstərirdi.

Son olaraq onu qeyd etmək istərdim ki, sovet diktaturasının Qərb ölkələri, o cümlədən ABŞ-la müttəfiqliyi müharibə dövrünün zərurəti və ümumi təhlükə qarşısında birləşmək istəyindən irəli gəlirdi və bu zərurət, bu təhlükə aradan qalxdıqda, təbii ki, müttəfiqlik münasibətləri də aradan qalxmış oldu. İkinci dünya müharibəsinin ən mühüm nəticələrindən biri isə, BMT-nin yaradılması və dünyada qlobal miqyasda (lokal miqyasda deyil) müharibələrin baş verməsinin qarşısının alınması oldu.

# ƏDƏBİYYAT SİYAHISI:

## a) Ruc dilində sənəd topluları


1. Внешняя политика Советского Союза в период Отечественной войны. Сборник документов. т.1-3. Москва, 1946-1947.
2. Внешняя политика СССР. Сборник документов.т.4.Москва, 1946.
3. Восемнадцатый съезд Всесоюзной коммунистической партии (б).10-21 марта 1939 г. Стенографический отчет. Москва, 1939.
4. Документы внешней политики.т.22. Москва, 1992.
5. Канун и начало войны. Документы и материалы (составитель Л.А.Киршнер). Ленинград, 1991.
6. Оглашению подлежит: СССР-Германия, 1939-1941. Документы и материалы (составитель-переводчик Ю.Фельштинский) Москва, 1991.
7. Переписка Председателя Совета Министров СССР с президентами США и премьер-министрами Великобритании во время Великой Отечественной войны 1941-1945 гг. 2-е издание. Т.1-2. Москва, 1976
8. Сборник действующих договоров, соглашений и конвенций, заключенных СССР и иностранными государствами. Выпуск XI. Москва, 1955
9. Седьмая сессия Верховного совета СССР. 29 марта-4 апреля 1940 г. Москва, 1940
10. Советский Союз на международных конференциях периода Великой Отечественной войны 1941-1945 гг. Сборник документов. т.1-6, Москва, 1978-1980.
11. Советско-американские отношения во время Великой Отечественной войны 1941-1945 гг. Документы и материалы. Т.1-2, Москва, 1984.
12. Шестая сессия Верховного совета СССР.1 августа-7 августа 1940 г. Москва, 1940.

в) **Ruc və Azərbaycan dillərində ümumi ədəbiyyat**


13.Батлер Дж., Гуайер Дж. Большая стратегия. Июнь 1941-август 1942 (перевод с английского). Москва, 1967.

14.Бережков В.М. Страницы дипломатической истории. Москва, 1982

15.Боратинский С. Дипломатия в период второй мировой войны: Международные конференции 1941-1945 гг. (перевод с польского) Москва, 1959.

16.Борисов А.Ю. СССР и США: союзники в года войны 1941-1945 гг., Москва, 1983.

17.Важнейшие решения (сборник статей): перевод с английского. Москва, 1964.

18.Великая Отечественная война 1941-1945: Энциклопедия.Москва, 1985

19.Волков Ф.Д.За кулисами втрой мировой войны.Москва, 1985

20.Всемирная история.т.10.Москва, 1965.

21.Вторая мировая война. Итоги и уроки (С.А.Гашкевич и другие). Москва, 1985.

22.Вторая мировая война. Краткая история (Д.Аххольц и другие), Москва, 1984.

23.Громыко А.А. Внешняя экспансия капитала : история и современность, Москва,1982.

24. Жуков Г.К. Воспоминания и размышления.т.1-2. Москва, 1978.

25.Земсков И.Н.Дипломатическая история второго фронта в Европе. Москва, 1982.

26. Ивашин И.Ф. Международные отношения и внешняя политика СССР в период втрой мировой войны. Москва, 1954.

27.История Великой Отечественной войны Советского Союза. Т.1-6, Москва, 1960-1965.

28.История внешней политики СССР (под редакцией А.А.Громыко и Б.Н.Пономарева).т.1 (1917-1945). 5-е издание, Москва, 1986

29.История второй мировой войны т.1-3,12 . Москва, 1973-1982.

30.История дипломатии.Т.4 Москва, 1975.

31.История международных отношений и внешней политики СССР. Т.1, Москва, 1986

32. История СССР с древнейших времен до наших дней.т.9,3,10, Москва, 1971-1973.

33.История США.т.3, Москва, 1985.

34.Крылов С.Б. Материалы к истории Организации Объедененных Наций. Выпуск 1, Москва, Ленинград, 1949

35.Кузнец Ю.Л. Выступление США во вторую мировую войну.Москва, 1962.

36.Кумиш В.М. История второго фронта. Москва, 1971

37.Лебедев Н.И. ССРИ дүнја сијасәтиндә (1917-1980). Бакы, 1982

38.Лиддел-Гарт Б. Вторая мировая война (перевод с английского), Москва 1976

39. Майский И.М. Воспоминания советского посла. Война (1939-1943). Москва, 1965.

40. Мэтлофф М. От Кассабланки до "Оверлода" (перевод с английского), Москва, 1964.

41. Мэтлофф М. , Снелл Э. Стратегическое планирование в коалиционной войне, 1941-1942 (перевод с английского), Москва, 1955.

42.Ржешевский С.А. Война и история 2-е издание, Москва, 1984.

43. Рузвельт Э. Его глазами (перевод с английского). Москва, 1947

44. Сасонов А.М. Вторая мировая война: очерк важгнейших событий, Москва, 1985.

45.Севоятьянов П.П. Перед великим испытанием. Внешняя политика СССР накануне Великой Отечественной войны (сентябрь 1939г-июнь 1941 г), Москва, 1981.

46.Сейерс М., Кан А. Тайная война против Советской России (перевод с английского), Москва, 1947.

47.Севачев Н.В., Язьков Е.Ф. Новейшая история США. Москва, 1980.

48.Сипольс В.Я.На пути к великой победе.Советская дипломатия 1941-1945 гг. Москва, 1985 г.

49. Тавровская Г. К вопросу о создании антигитлеровской коалиции //вопросы истории 1957 № 12

50. Черчилл У. Вторая мировая война (перевод сечкиляр английского). Ростов-на-Дону, 1997.

51.Шервуд Р. Рузвельт и Гопкинс глазами очевидца (перевод с английского) т.1-2. Москва, 1958

52. Штеменко С.М. Баш штаб мушарибя илляриндя. Бакы, 1972

53. Эрман Дж. Большая стратегия. Авнуст 1943-сентябрь 1944 г. (перевод с английского), Москва, 1958.

54. Яковлев Н.Н. Франклин Рузвельт : Человек и политик. Новое прочтение. Москва, 1981.

### c) İngilis dilində sənəd topluları

55. Documents of American History (Edited by H.Commadger) New York 1968

56.Foreign Relations of United States. Diplomatic papers.1940.vol.3 Washington 1958 1941 vol.1 Washington

57. Foreign Relations of United States. The Conferences at Cairo and Teheran, 1943. Washington, 1961.

58.Foreign Relations of United States. The Conferences at Malta and Yalta, 1945. Washington, 1955

### D) İngilis dilində ümumi ədəbiyyat

59. Beitzell R. The Uneasy Alliance: Amerika, Britain and Russia. Nev York, 1972

60.Divine R. Roosevelt and World War II Baltimore, 1972

61.Encyelopedia of American History (Edited by B. Morris, Professor of History, Columbia University). New-York, 1953.

62. Hull C. The Metoirs of Cordell Hull.vol 1-2. New York, 1948

63.Lckes H.Z. The Sekret Diary of Harold L. Lckes. Vol.2-3. New-York, 1953- 1954.

64. Langer W., Gleason S. The Challange to Isolation, 1937-1940. New-York, 1952.

65. Langer W., Gleason S. The Undeclared War, 1940-1941. New-York, 1953.

66.Leighton R., Coakley R. Global Logistics and Strategy. Vol.1-2. (1940-1945). Washington, 1955.

67. Maddux T. Years of Estrangement. American Relations with Soviet Union (1933-1941). Tallahase, 1980.

68. Neymann H. We can do business with Russia. Chicago, 1945.

69. Roosvelt and Churchill. Theic Secret Wartime Correspondence. New-York, 1975.

70.Roosvelt F.D. Nothing to Fear: The Selected Addresses of Franklin Delano Roosvelt (1932-1945). Edited by B.D.Zivin, Boston, 1946.

71.Roosvelt F.D. The War Messages of Franklin D.Roosvelt. Supplement: November 7, 1942 to July 30, 1943. (The President's War Addresses to the People ofthe United States, to the Congress of the United States, and to Other) Washington, 1943

72. Stoler M. The Politics of the second Front. Westport, 1977.

Резюме.

В период от 1 сентября до поряжение Франции (июнь,1940г.)отношения между Россией и С.Ш.А.носили очень напряженный характер.Это объяслялось тем,что несмотря на то ,что обе державы объявили свой нейтралитет,С.Ш.А.фактически поддержала английско-французскую коалицию, а Россия, наоборот, имел пакт с Германией и вел захваттическую политику.Но после поражении Франции,фашистская опастность взросло для обоих стран, и в советско-американским отношениям появились некоторые элементы сближения.

После наподения Германии на Россию,С.Ш.А. и Великобритания поддержали ссоветское правительство в борьбе против фашизма,и на Россию начали поступать американские и британские помощи.

В декабре 1941г.С.Ш.А. официально вступила во вторую мировую войну, и общность целей между Россией и С.Ш.А. возросло.

Стороны сотрудничествовали в войне против фашизма.В 1944-1945гг.,когда поражение фашизма стала неизбежной,тогда опять на передний план вышли разногласии.Это в большей степени объяснялось агрессивной политикой России против стран Центральной Европы.И это обстоятельство создало начало для «Холодной войны».

Resume.

During the period from September 1,1939 to fall France (June,1940) relations between Russia and U.S.A. were very cold. Because,U.S.A.were near to anglo-french alliance, but Soviet Russia had a pact with Nari Germany and it was an agressor.But, when France fell, danger of fascist increased for both Russia and U.S.A.

When Nari Germany in vaden to Russia,U.S.A.and Great Britain were near to Soviet government and american and britsh aids arrived to Russia for fight against fascism.

In Desember 1940 U.S.A.got it to the Second Words War and take part of war against fascism.But the Allians between U.S.A.,Great Britain and Russia was not easy,there were many problems in the Alliance (problems of aid to Russia,the second Front in West Europe,Russia agression in Europe and extr).

Because of Alliance between U.S.A.,Great Britain and Russia,the Axis fell in the Second World War.But because of Russian agression in Europe began the Cold War between U.S.A.and U.S.S.R.

Резюме.

В период от 1 сентября до поражение Франции (июнь,1940г.)отношения между Россией и США весьма очень напряженный характер. Это объяснилось тем,что несмотря на то ,что обе державы объявили свой нейтралитет,США фактически поддержали англейско-французскую коалицию, а Россия, наоборот, имея пакт с Германией и вел захватническую политику.Но после поражения Франции,фашистская опастность выросло для обоих стран, и в советско-американских отношениях появились некоторые знаменты сближения.

После нападения Германии на Россию США и Великобритания поддержали советское правительство в борьбе против фашизма,и на Россию начали поступать американские и британские помощи.

В декабре 1941г.США официально вступили во вторую мировую войну, и образовали целей между Россией и США коалицию.

Сотрудничество с странами в войне против фашизма.В 1944-1945гг.,когда поражение фашизма стали неизбежный,тогда опять на передний план вышли разногласия.Это в большей степени объяснялось агрессивной политикой России против стран Центральной Европы.И это обстоятельство создало начало для «Холодной войны».

Resume.

During the period from September 1,1939 to fall France (June 1940) relations between Russia and U.S.A. were very cold. Because U.S.A were near to anglo-french alliance, but Soviet Russia had a pact with Nazi Germany and it was an agressor.But, when France fell, danger of fascist increased for both Russia and U.S.A.

When Nazi Germany in vaded to Russia U.S.A.and Great Britain were near to Soviet government and american and britsh aids arrived to Russia for fight against fascism.

In December 1940 U.S.A.got it to the Second Worlds War and take part of war against fascism.But the Alliance between U.S.A. Great Britain and Russia was not easy,there were many problems in the Alliance (problems of aid to Russia,the second front in West Europe,Russia agression in Europe and etc).

Because of Alliance between U.S.A.,Great Britain and Russia,the Axis fall in the Second World War.But because of Russian agression in Europe began the Cold War between U.S.A and U.S.S.R.